AZƏRBAYCAN RESPUBLİKASI BAKI SLAVYAN UNİVERSİTETİ TƏHSİL NAZİRLİYİ
ÜMUMİ ŞÖBƏ

**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏHSİL NAZİRLİYİ**
**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**YAKUP ÖZDEN RZA**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN TƏHSİLİN DEMOKRATİKLƏŞDİRİLMƏSİ UĞRUNDA MÜBARİZƏSİ

İxtisas: 060119 – Pedaqogika nəzəriyyəsi və tarixi

**MAGİSTR DİSSERTASİYASI**

Elmi rəhbər: *pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent* **Z.M.MEHRƏLİYEVA**

**BAKI-2018**

# MÜNDƏRİCAT

GİRİŞ.......................................................................................................3
I FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİLİN DEMOKRATİKLƏŞDİRİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ ŞƏRAİT................................................10
1.1. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait..........................10
1.2. XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətləri ........................................................................................21
1.3. Azərbaycan maarifpərvərlərinin təlimin ana dilində aparılması uğrunda mübarizəsi ........................................................................29
II FƏSİL. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN PEDAQOJİ PROBLEMLƏRİN HƏLLİ UĞRUNDA MÜBARİZƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ…...41
2.1. Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi........................................................................41
2.2. Azərbaycan maarifpərvərlərinin yeni məktəb uğrunda mübarizəsi ............58
2.3. Azərbaycan maarifpərvərlərinin milli dərslik yaratmaq uğrunda mübarizəsi ........................................................................65
2.4. Azərbaycan maarifpərvərləri qadın təhsili haqqında....................................68
NƏTİCƏ ...........................................................................................................73
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..................................................................76

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycanın təhsil-tərbiyə ilə bağlı xalqın min illər boyu yaratdığı mili-mənəvi dəyərlər, zəngin xəzinə, xronoloji ardıcıllıqla və mərhələlərlə sistemli olaraq öyrənilməmişdir. Xalqımızın təhsil sahəsində malik olduğu zəngin irsi, maarifçi ziyalıları və görkəmli şəxsiyyətlərin mütərəqqi ideya və fikirlərini öyrənməklə, onlarda müasir dövrün tələblərinə uyğun bəhrələnməklə böyük nailiyyətlər qazanmaq mümkündür. Ümummilli liderimiz Heydər Əliyev haqlı olaraq deyirdi ki, nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə, öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir. Bu gün təhsil sahəsində aparılan hər bir yeniləşmə və təkmilləşmə, ilk növbədə milli zəmin üzərində qurulmalıdır. Bunun üçün isə qiymətli xəzinəni Azərbaycan maarifçilərinin ta qədimdən bu günə qədər təhsil-tərbiyə sahəsində yaratdığı nəzəriyyə və konsepsiyalar, eləcə də onların əməli fəaliyyətləri təşkil edir. Bunların öyrənilməsi və milli təhsil quruculuğuna gətirilməsi önəmli bir vəzifədir.

XX əsrin əvvəllərində Azərbaycanda genişlənməkdə olan maarifçilik ideyalarının və pedaqoji hərəkatın əsas xüsusiyyəti millətin mənəvi diriliyi problemi ilə bilavasitə bağlı idi. Xalqın tarixinə və mədəniyyətinə, onun istiqlal şüurunun taleyinə artan maraq milli məktəblərin, milli dərsliklərin, milli kadrların hazırlanmasını zəruri edirdi. Elə məktəb ki, orada millətin dili, tarixi, mədəniyyəti öyrənilirdi. XIX əsrin axırlarında yaranan yeni məktəb hərəkatı təhsilin bütün sahələrində islahatların aparılmasını zəruri edirdi. Təlimin ana dilində aparılması, ana dili dərsliklərinin yaradılması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim üsullarının tətbiqi, mənəvi tərbiyənin yeni məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, məktəblərin dünyəviləşdirilməsi, bir sözlə təhsilin demokratikləşdirilməsi məktəb islahatı uğrunda mübarizənin əsas parametrlərini təşkil edirdi. Dünyəvi məktəb problemi maarifçiliyin avropalaşmaq ideyası ilə bilavasitə bağlı idi. M.F.Axundov yazırdı ki, əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə, puça çıxacaqdır. Dövrün zəka sahibləri Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Əlibəy Hüseynzadə,

Əhməd Ağayev, Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyov, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Fərhad Ağazadə və xalqımızın digər onlarla işıqlı zəka sahibləri milli mənafe uğrunda fədakarlıqla çalışır, millətin maariflənməsi üçün mətbuat nümunələri yaradır, qəzet və jurnallar nəşr edir, xeyriyyə cəmiyyətləri təşkil edir, ana dilli məktəblər yaradır, milli dərslik yazır, uşaq ədəbiyyatı nümunələri yaradırdılar. Azərbaycan maarifpərvərləri xalqa milli – mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli xilas, qurtuluş, ictimai azadlıq, mücadilə və mübarizə savadı öyrətmək istəyirdilər. Bu dövrdə Azərbaycanda milli özünüdərk hərəkatı, o zamana qədər heç vaxt görünməmiş bir səviyyəyə yüksəlmişdi. Siyasi bütövlüyünü itirmiş, dünyanın müasir texnologiyasından geri qalmış böyük bir xalqın ziyalıları milli mənlik şüurunun inkişafı uğrunda mücadiləyə qalxmışdılar. Onlar inanırdılar ki, məktəb açıb camaatı maarifləndirməklə, ana dilində qəzet və jurnallar nəşr edib ideoloji təbliğat aparmaqla, xeyriyyə cəmiyyətləri qurub müxtəlif problemləri müzakirə etməklə, qurultaylar keçirib müsəlman müəllimlərini eyni məqsəd uğrunda mübarizəyə istiqamətləndirməklə, ana dilində dərsliklər yaratmaqla, yəni maarifçiliklə xalqın tarixi mənliyini özünə qaytarmaq mümkündür. Bu dövrdə yetişən Azərbaycan ziyalıları dünyagörüşünə görə eyni bir siyasi partiyaya mənsub olmasalar da ideya və amalları eyni idi. İnqilabçı proletariatın liderləri olan N.Nərimanov, S.M.Əfəndiyev, Ə. Axundov, M.H.Musəvi, H.Terequlov, hesab edirdilər ki, pedaqoji fikrə inqilabi ruh gətirməklə, yeni cəmiyyət qurmaqla təhsil–tərbiyə işini yeniləşdirmək mümkündür. C. Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ə.Nəzimi kimi inqilabçı-demokratik ziyalılar burjua demokratik inqilabının əsas məsələlərində yenilik mövqeyində durub, çar hökümətinin mürtəce maarif siyasətini, sxolastik təlim metodlarını, köhnə-ənənəvi məktəbləri tənqid edirdilər. Bu ziyalıların içərisində maarifçi–demokratik ziyalılar (H.Zərdabi, A.Səhhət, A.Şaiq, H.Mahmudbəyov, F. Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə F.Ağazadə, Ü.Hacıbəyov, M.Maqomayev və b.) millətin mənəvi diriliyi məsələsini ortaya atmaqla, dünyəvi təhsili inkişafın, tərəqqinin açarı sayıblar. Ümummilli intibaha çalışan Ə.Hüseynzadə, Ə.Ağayev türkçülüyə, islam birliyinə çağırışın ideoloqları kimi çıxış edirdilər.

Liberal burjua mövqeyində dayanan ziyalılar da vardı: onların bu fəaliyyətini XIX əsrin I yarısında Rusiyada mövcud olan «slavyanofillər»lə «qərbçilər»in fəaliyyətinə bənzətmək olar. O dövrdə siyasətçiləri və pedaqoqları təhsil–tərbiyədə xəlqilik ideyası daha çox düşündürürdü. Avropa təhsilində baş verən yeniliklər Rusiyada, o cümlədən milli ucqarlarda–məktəb və pedaqoji fikrin inkişafına güclü təsir göstərirdi. A.İ.Gertsen «slavyanofillər»lə «qərbçilər»in fəaliyyətini təhlil edərək deyirdi ki, bizim eyni olmayan bir məhəbbətimiz var. Biz ikibaşlı qartal kimi müxtəlif tərəflərə baxırdıq, amma ürəyimiz bir vururdu [146, 483]. Bu ziyalıların mübarizə apardıqları əsas məsələ təhsilin demokratikləşdirilməsi problemi idi. Onlar təhsilin demokratikləşdirilməsini həyata keçirmək məqsədilə milli məktəblər, milli müəllim kadrları, təlimin ana dilində aparılması, təhsilin məzmununun milliləşdirilməsi, səmərəli təlim metodlarının tətbiqi, qadın təhsili, dünyəvi elmlərin tədrisi ilə bağlı fədakarlıqla çalışdılar, maarifçi ideya və fəlsəfi konsepsiya işləyib hazırladılar. Bizim ideya sərvətimiz olan həmin konsepsiyalar Azərbaycan Demokratik Respublikası dövründə uğurla tətbiq olundu. Biz bu gün onların həmin fikirlərini, ideya və konsepsiyalarını tarixdən bu günə gətirməyi, təhsil quruculuğuna tətbiq etməyi bacarmalıyıq. Tarixdə bu günü görmək lazımdır. Tarixin pedaqoji təcrübəsindən keçmiş ideyaları aşkarlayaraq, milli düşüncəmizə gerçək modellər, siyasi–ideoloji düsturlar verməliyik. Onların müasir milli dövlət quruculuğu prosesində necə həyata keçirildiyini izləmək məqsədilə tarixi pedaqoji irsin ən yaxşılarını seçib götürməliyik. Elə buna görə də Azərbaycanın təhsil tarixi ətraflı tədqiq olunmalıdır.

**Tədqiqatın obyektini** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin və pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi təşkil edir.

**Tədqiqatın məqsədi** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafını şərtləndirən ictimai-pedaqoji, mədəni şəraiti üzə çıxarmaqdan, təhsilin demokratikləşdirilməsini zəruri edən amilləri müəyyənləşdirilməkdən, pedaqoji hərəkatın inkişaf istiqamətlərini səciyyələndirməkdən, maarifpərvərlərimizin yeni üsullu məktəb, təlimin ana dilində aparılması, milli müəllim kadları hazırlığı, milli

dərslik və uşaq ədəbiyyatı nümunələri yaradılması, qadın azadlığı və təhsili uğrunda mübarizəsinin mahiyyətinə aydınlıq gətirməkdən, ümumiləşdirməkdən və sistemləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafını şərtləndirən ictimai-pedaqoji, mədəni şəraiti üzə çıxarmaq;
- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini zəruri edən amilləri müəyyənləşdirmək;
- XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətlərini müəyyənləşdirmək;
- Yeni məktəb uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyyətini təhlil etmək;
- Təlimin ana dilində aparılması uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyyətini üzə çıxarmaq;
- Milli müəllim kadrları hazırlığında Azərbaycan maarifpərvərlərinin mübarizəsinin mahiyyətini açmaq;
- Milli dərslik və uşaq ədəbiyyatı nümunələri yaratmaq uğrunda mübarizədə Azərbaycan maarifpərvərlərinin fəaliyətini səciyyələndirmək;
- Azərbaycan maarifpərvərlərinin qadın azadlığı və təhsili uğrunda mübarizəsini səciyyələndirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə təddiq olunan prinsiplər, metodlar, vasitələr və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** tarixi-müqayisəli metod, təhlil-tərkib metodu, induktiv və deduktiv metod, nəzəri təhlil, arxiv sənədlərinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi.** XX əsrin əvvəllərində Azərbaycanda təhsilin demokratikləşdirilməsini zəruri edən amillərin üzə çıxarılması, Azərbaycan maarifpərvərlərinin bu sahədəki xidmətlərinin araşdırılması, onların ümumiləşdirilərək sistemləşdirilməsi tədqiqat işinin elmi yeniliyi hesab oluna bilər.

Müdafiəyə təqdim olunan **müddəalar**:

- XX əsrin əvvəllərində Azərbaycanda təhsilin inkişafının ictimai-pedaqoji, mədəni şərait şərtləndirmişdir.

- XX əsrin əvvəllərində Azərbaycanda yeni ictimai-pedaqoji hərəkat təhsilin demokratikləşdirilməsini zəruri etmişdir.

- XX əsrin əvvəllərində yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, milli müəllim kadları hazırlığı, milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması, qadınların təhsilə cəlb olunması, xeyriyyə cəmiyyətlərinin yaradılması Azərbaycan maarifpərvərlərinin uzunmüddətli mübarizələrinin nəticəsində olmuşdur.

- Milli dilə, təlimin ana dilində aparılmasına-milli diriliyə münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində XX əsrin əvvələrində olduğu kimi kəskinliklə heç bir vaxt irəli sürülməmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatda XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi, onların pedaqoji hərəkatın genişlənməsində, ibtidai təhsilin yeni məzmunda inkişafında, təlimin ana dilində aparılmasında, milli dərsliklərin hazırlanmasında, yaşlı əhalinin təhsilə cəlb edilməsində, müəllim kadrları hazırlığındakı fəaliyyətləri sistemli şəkildə təhlil edilir, təhsilin və pedaqoji fikirin inkişafına təsirləri üzə çıxarılır.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın nəticələrindən «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» dərsliyinin, «Azərbaycan pedaqoji fikrinin antologiya»sının, eyni adlı müntəxabatın tərtibində, ali pedaqoji məktəblərdə pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə mühazirə və seminar məşğələlərində istifadə etmək olar. Tədqiqatın nəticələri maarif və mədəniyyət tariximiz üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələri dəfələrlə respublika elmi-praktik konfranslarında, seminarlarda, pedaqoji mühazirələrdə müzakirə edilmiş, mözu üzrə materiallar respublika mətbuatında çap edilmişdir. Dissertasiya mövzusu ilə bağlı məqalə və tezislər çap etdirilmişdi.

1. Şəxsiyyətin formalaşmasında biliklərə əsaslanan iqtisadiyyatın rolu // PROBLEMLƏR. AXTARIŞLAR. PERSPEKTİVLƏR. Magistrantların elmi məqalələr toplusu. BSU, Bakı, XXI buraxılış, 2017, səh. 304-306;

2. Şəxsiyyətin formalaşmasında iqtisadi mədəniyyətin rolu // PROBLEMLƏR. AXTARIŞLAR. PERSPEKTİVLƏR. Magistrantların elmi məqalələr toplusu. BSU, Bakı, XXII buraxılış, 2018, səh 336-338.

3. Tədris prosesində şagirdlərin iqtisadi tərbiyəsinin xüsusiyyətləri / Magistrantların XVII Respublika elmi konfransı. Sumqayıt, SDU, 2017, səh.156.

4. Tədris prosesində şagirdlərin iqtisadi təhsili və tərbiyəsi / Magistrantların XVIII Respublika elmi konfransı. Sumqayıt, SDU, 2018, səh. 482

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə, təkliflər və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

**Girişdə** tədqiqatın mövzusu, aktuallığı əsaslandırılır, məqsədi, obyekti, predmeti, işçi fərziyyələri formulə edilir, tədqiqatın metodoloji əsasları, onun elmi-nəzəri və praktik əhəmiyyəti xarakterizə olunur, müdafiəyə çıxarılan müddəalar və tədqiqatın bəyənilməsi verilir.

**Birinci fəsildə** XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanda kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı, kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş verən dəyişikliklər, regionun ayrı-ayrı əraziləri arasında iqtisadi birliyin yaranması, iqtisadi və mədəni mərkəzlərin yüksəlməsi kimi amillər, vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi həyatı olan Azərbaycan xalqının bir millət kimi formalaşması araşdırılır. Yeni münasibətlərin yaranması milli burjuaziyanın təşəkkülünə şərait yaratdığı kimi Azərbaycan xalqı arasındı milli birlik ideyasını möhkəmləndirdi. Azərbaycandakı maarifçi mühit maarifçilik cərəyanına çevrildi və burjuaziyanın təsiri ilə millətin tarixi taleyində mühüm rol oynayan yeni ziyalılar nəsli formalaşdı. Milli şüurun oyanması, milli azadlıq hərəkatının güclənməsi, milli istiqlal və istiqbal mübarizəsində ciddi irəliləyişlər nəzərə çarpırdı. XX əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikri maarifçilikdən daha çox, onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri cəlb edirdi.

**İkinci fəsildə** təlimin ana dilində aparılması, yeni milli məktəblərin yaradılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi milli maarifçilərin ictimai-siyasi və pedaqoji fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirilir. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi.

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmunun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi.

Dissertasiya işinin **nəticə** hissəsində əldə edilən ümumi nəticələr verilir.

# I FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİLİN DEMOKRATİKLƏŞDİRİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ ŞƏRAİT

## 1.1. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanda kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı ilə səciyyələnir. Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra kapitalizmin inkişafında ciddi dönüş yaranmağa başladı. Rusiyanın milli ucqarlarında məhkəmə, şəhər və inzibati idarə sahəsi ilə yanaşı kəndli islahatı keçirilməyə başlandı. Bu islahat öz mahiyyəti etibarilə burjua xarakteri daşıyırdı.Tədqiqatçıların fikrincə, kəndliyə şəxsi azadlığın verilməsi feodal-istehsal münasibətlərinə ciddi zərbə olub,ölkədə kapitalizmin inkişafına şərait yaradırdı [7, 212]. Milli ayrıseçkilik, müstəmləkəçilik siyasəti, məhkəmə işlərinin rus dilində aparılması kimi özbaşınalıq hökm sürürdü. 1870-ci il 14 may islahatı Azərbaycanda kənd təsərrüfatı və sənayenin inkişafında mühüm rol oynadı. Rusiya Azərbaycanda güclü sənaye mərkəzlərinin yaranmasına hər vəzlə mane olurdu. Azərbaycanın iqtisadiyyatı bütövlükdə Rusiyanın bazarları və sənaye mərkəzlərinin tələbatına uyğun şəkildə qurulmuşdu. XIX əsrin axırlarında Azərbaycan iqtisadiyyatının sürətlə inkişafı sənaye və kənd təsərrüfatında kapitalizm ünsürlərinin genişlənməsinə şərait yaratdı, Bakı-Tiflis, Bakı–Vladiqafqaz dəmir yolunun çəkilməsi Azərbaycanın iqtisadi təkamülündə mühüm rol oynadı. Azərbaycanın neft sənayesinin əsas hissəsi az sonra milli burjuaziyanın əlinə keçdi. Neft sənayesinin inkişafı milli burjuaziyanın formalaşmasına təkan verdi, ölkədə digər sənaye sahələrinin yaranmasına şərait yaratdı.

İqtisadi inkişafa baxmayaraq Azərbaycanda təhsilin ehtiyaclarının ödənilməsinə xəzinədən çox az miqdarda vəsait–1,7 milyon manat pul buraxılırdı. Məbləği adambaşına böldükdə hərəyə 64 qəpik düşürdü [2, 217].

Yeni münasibətlərin yaranması milli burjuaziyanın təşəkkülünə şərait yaratdığı kimi Azərbaycan xalqı arasında milli birlik ideyasını möhkəmləndirdi. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərləri Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov kimi liberal baxışlı ziyalılar milli birlik ideyaları yaratmağa çalışır, milləti elmə, təhsilə, biliyə maarifə, milli–mənəvi diriliyə səsləyirdilər. Bu dövrdə milli burjuaziya nümayəndələri H.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi maarifçi messanatlar xalqın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayırdılar. Azərbaycan xalqı Çar Rusiyası tərəfindən dini, milli, hüquqi, mədəni və iqtisadi cəhətdən təzyiqlərə məruz qalaraq sıxışdırılırdı. XX əsrin əvvəllərində Azərbaycanda çoxsaylı ziyalı kadrlar yetişdi. Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verməsi ilə səciyyələnən maarifçilik hərəkatının ideologiyası və fəlsəfi görüşləri formalaşdı.

Milli maarifçilər çar rejiminə qarşı mübarizə aparır, çox zaman siyasi səbəblər üzündən onların təşəbbüsləri boşa çıxırdı. Bu vəziyyət Azərbaycan xalqının istiqlalı, istiqbalı və gələcəyi üçün böyük təhlükə törədirdi. Bunu dərk edən ziyalılar xalqın maariflənməsinə daha çox çalışır, xalqı öz azadlığı uğrunda mübarizəyə hazırlayırdılar. Milli burjuaziyanın görkəmli nümayəndələri (H.Z.Tağıyev, M.Nağıyev, M. Muxtarov, Ş.Əsədullayev, və b.), milli demokratik və inqilabi fikrin nümayəndələri (Ə. Hüseynzadə, Ə.Ağayev, M.Hadi, Ü.Hacıbəyov, Ə.Cavad və b.) dərk edirdilər ki, Azərbaycanın iqtisadi-ictimai geriliyinin əsas səbəblərindən biri milli ziyalı potenisialının kifayət qədər güclü olmaması ilə bağlıdır. Çar hökuməti milli ucqarlarda, xüsusilə də Azərbaycanda ali və orta təhsil ocaqlarının açılmasına hər vəclə mane olurdu. Azərbaycanlı gənclər ali təhsil almaq üçün ya Rusiyaya və ya xarici ölkələrə getmək məcburiyyətində qalırdılar. XX əsrin əvvəllərində xeyli gənc Peterburq, Moskva, Kiyev və Rusiyanın digər şəhərlərində, o cümlədən, Fransa, Almaniya, İngiltərə kimi qabaqcıl kapitalist ölkələrində təhsil alaraq Azərbaycana qayıtmışdılar. Avropa mühiti onların ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynamışdı.

T.Əzizov bu xüsusda yazırdı: «Avropanın qabaqcıl, mədəni ölkələrində xalqın tarixinin öyrənilməsinə, onun dilinin, adət və ənənələrinin qorunub saxlanmasına,

elm və mədəniyyətinin inkişafına, milli hökumətlərin xüsusi qayğı göstərməsi azərbaycanlı gənclərə əyani surətdə sübut etdi ki, xalqın mənəvi yüksəlişi yalnız onun milli-siyasi azadlığı şəraitində mümkündür. Müstəmləkə əsarətindən qurtarmaq üçün hər şeydən əvvəl xalqın oyanması, onun milli özünüdərketməsi lazımdır» [18, 78].

XIX əsrin sonu, XX əsrin əvvəllərində milli şüurun oyanması, milli azadlıq hərəkatının güclənməsi, milli istiqlal və istiqbal mübarizəsində ciddi irəliləyişlər nəzərə çarpırdı. Xalqı milli–mənəvi diriliyə çağıran mütərəqqi fikirli ədiblər, maarifçilər onların milli süstlükdən xilas olmaları üçün yollar axtarırdılar. Rusiyada baş verən ictimai-siyasi hadisələrin təsiri altında milli tərəqqi, demokratiya, azadlıq haqqında ideyalar formalaşmağa başladı. Azərbaycan maarifpərvərlərinin milli dirçəlişə, milli-mənəvi diriliyə və azadlığa çağıran ideyaları meydana gəldi. Ə.Hüseynzadə türk birliyi ideyası irəli sürdü, türk xalqlarının tərəqqisi üçün «türklük, müsəlmanlıq və avropalılıq» prinsipini əsaslandırdı. Əhməd bəy Ağayev dini və milli ayrıseçkiliyin əleyhinə çıxaraq deyirdi ki, din və məhzəb heç vaxt nifaq və ayrılığa səbəb olmayıb və olmaz. Milli münasibətlərdə hər hansı millət özünə ehtiram tələb etməklə bərabər başqa milliyyətlərdən olanlara da hörmət bəsləməlidir. «Azadlıq şüurun cövhəridir» deyən Ə.Ağayev azadlığı «sərbəst düşünmək və düşündüyünü sərbəst, səmimi söyləmək kimi» ifadə edirdi. Azərbaycan maarifpərvərləri millətin siyasi gerilikdən çıxması üçün səy göstərir, partiya və təşkilatlar yaradırdılar.

Belə bir dövrdə millətin təşkilatlanmasına zəruri ehtiyac var idi. Artıq Azərbaycanda demokratik ideyalar formalaşırdı. İlk sosial demokrat dərnəklər təşkil edildi. 1901-ci ildə RSDFP-nin Bakı komitəsi fəaliyyətə başladı. Lakin bu təşkilatlarda qeyri-azərbacanlılar üstünlük təşkil etdiyinə görə onlar milli ideyaları, xalqın milli istək və arzularını nəzərə almırdı. Bu səbəbdən onların ideyaları geniş yayılmır, həmfikirlərinin sayı artmırdı. 1902-ci ildə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə «Müsəlman gənclik təşkilatı» yaradıldı. O, Azərbaycanda ilk milli–siyasi təşkilat idi. M.Ə.Rəsulzadə yazırdı: «Əsasən türk-azərbaycnlı tələbələrdən ibarət təşkilat bir tərəfdən maarifçilik ideyaları yayır, digər tərəfdən ana dilinin öyrənilməsi, milli duyğuların təbliği, fəhlələr arasında siyasi bəyannamələr, milli azadlıq ideyaları

yaymaq və s. Bu kimi işləri görürdü [50, 7]. Həmin təşkilat bir qədər sonra «Müsəlman demokratik müsavat cəmiyyəti» adı ilə fəaliyyət göstərmişdir.

«Hümmət» təşkilatı məhz onun əsasında yaranmışdı. «Hümmət»çilər II dövlət Dumasına keçirilən seçkilərdə fəal iştirak etməklə yanaşı mətbuat səhifələrində xalqı maariflənməyə, mədəni tərəqqiyə, təhsilə, ana dilində məktəblərin açılmasına çağırırdılar. 1906-1907-ci illərdə onların leqal «Təkamül», 1907-1908-ci illərdə qeyri-leqal «Yoldaş» qəzetləri nəşr olunmuşdu. İlk fevral burjua inqilabının məğlubiyyətindən sonra «Hümmət»çilərin siyasi fəaliyyəti xeyli zəiflədi.

Azərbaycan maarifpərvərləri çar Rusiyasına qarşı mübarizəni genişləndirmək məqsədilə maarifçilik hərəkatını genişləndirdilər. «Nicat», «Səadət», «Səfa» və «Nəşri-maarif» xeyriyyə cəmiyyətlərinin fəaliyyəti genişləndi. «Molla Nəsrəddin» və «Fiyuzat» jurnalları millətin mənəvi yüksəlişinə təşir göstərə biləcək məqalələrlə çıxış etməyə başladılar. Gəncədə yaradılan «Difayi» partiyası öz fəaliyyətini genişləndirdi. 1907-ci ildə polkovnik İbrahim Vəkilovun təşəbbüsü ilə Tiflisdə «Müdafiə» Partiyası yaradıldı. Partiya «Difayi» Partiyasının proqramını qəbul etdi. Maraqlı fakt odur ki, Azərbaycan maarifpərvərləri əhali arasında savad yaymaqla yanaşı, həm də kütləvi siyasi iş aparırdılar. XX əsrin əvvəllərində baş verən rus-yapon müharibəsi bütün Rusiyada olduğu kimi, Azərbaycanda da iqtisadi və siyasi vəziyyəti gərginləşdirdi. Rusiyada olduğu kimi Bakıda tətil hərəkatı başlandı. 1905-1907-ci illər inqilabı Çar Rusiyasını müəyyən güzəştlərə getməyə məcbur etdi. Məktəblərin sayı bir qədər artırıldı, ibtidai məktəblərdə dərslərin ana dilində aparılmasına, birsinifli məktəblərin üçillik əvəzinə dörd illik olmasına icazə verildi. Azərbaycan maarifpərvərləri Rusiya müsəlmanlarını birləşdirən ilk siyasi təşkilat–Rusiya müsəlmanlar ittifaqını yaratmaqla güc mərkəzi kimi formalaşmağa başladılar. 1905-ci il aprel ayının 8-də Peterburqda Rəşid bəy Əfəndiyevin evində Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, Aliməfəndi Maqsud və Binyaminəfəndi Əlhəmin iştirakı ilə toplantı keçirildi. Görüşün əsas məqsədi bütün Rusiya müsəlmanları üçün siyasi partiya yaratmaqdan ibarət idi. Az sonra «Tərcüman» qəzetinin sahibi İsmayıl bəy Kaspiralı da onlara qoşuldu. 1905-ci il avqust ayının 15-də Rusiya müsəlmanlarının qurultyaları keçirildi. Ə.Topçubaşovun təşəbbüsü və

rəhbərliyi ilə Nijni Novqorodda yarmarka zamanı Oka çayındakı gəmilərdən birində Rusiya müsəlmanlarının gizli surətdə I qurultayı açıldı. Qurultayda Qafqaz, Krım, Kazan, Türküstan, Ural və Sibirdən 150 nəfərə yaxın nümayəndə iştirak edirdi. Ə.Topçubaşovun yazdığı və qurultayda cüzi dəyişikliklərlə qəbul edilən qətnamədə Rusiya müsəlmanlarının bütün siyasi və mədəni məsələləri öz əksini tapmışdı. Məktəb və mədrəsədə ciddi islahat aparmaq üçün 35 maddədən ibarət layihə hazırlanmışdı. Müsəlman məktəb və mədrəsələrinin üzərində nəzarətin ruhanilərin əlindən alınıb cəmiyyətin ixtiyarına verilməsi haqqında proqramında bir neçə maddə var idi. Bu qurultayın təsiri nəticəsində 1906-1907-ci illərdə Azərbaycanda müsəlman müəllimlərinin qurultayı çağrıldı. Bu qurultaylar ana dilində dərsliklərin yazılmasından başlamış məktəblərin ən xırda işlərinə qədər məsələləri müzakirə etdi. Rusiya müsəlmanlarının oyanmasından qorxuya düşən çar höküməti 1905-ci il iyulun 18-dən 25-ə kimi Zaqafqaziya müəllimlərinin iştirakı ilə müşavirə çağırdı. Bu müşavirə ilə o qeyri-rus xalqlarının ehtiyac və qayğılarına kömək etməyə çalışdığını göstərməli idi. Çar höküməti belə yollarla maarif islahatını öz əlinə almağa cəhd edərək xalqı əsas məqsəddən, irəli sürdüyü demokratik tələblərdən yayındırmağa və xalqın ən vacib istəklərini minimum hədd içərisində əritməyə çalışırdı.

II qurultay 1906-cı il yanvar ayının 13-23-də Peterburqda qizli şəraitdə keçirildi. Qurultayda 100-ə yaxın nümayəndə iştirak edirdi. Azərbaycanı Ə.Topçubaşov, Q.Qarabəyli, Ə.Axundov təmsil edirdi. III qurultay isə 1906-cı ildə avqustun 15-21-də 800 nəfərin iştirakı ilə keçirilmişdir. Məhz həmin qurultayda «Məktəb islahatı» proqramı qəbul edilmişdir.

1905-ci il 17 oktyabr manifesti istismar olunan xalqlara heç bir xoşbəxtlik gətirmədi. Əksinə Rusiyada qəti qərar vermək səlahiyyətinə malik olmayan parlament yaradıldı. Rusiyanın hüquqi dövlət olduğunu söyləyənlər xalqı aldatdılar. Belə bir çətin məqamda Azərbaycan maarifpərvərləri millətin yanında oldular. Onların adından Peterburqa ərizələr göndərdilər. Onlar milli mədəniyyətə, dilə, adət və ənənənələrə və xüsusilə dinə qarşı olan təzyiqlərin tez aradan götürülməsini tələb edirdilər. 1905-ci ildə Bakıda başlanan milli hərəkat Azərbaycanın digər şəhərlərinə də yayılmışdı. Çar idarəsinin qoyuduğu bütün məhdudiyyətlərə baxmayaraq Gəncə

bələdiyyəsinə seçkilər zamanı 55 nümayəndə seçilmişdi. Bakı şəhərinə göndərilən nümayəndəni daxili işlər naziri Blugin Peterburqda şəxsən qəbul etmiş, Qafqaz xalqlarının da arzu və istəklərinin nəzərə alınacağına söz vermişdi. Belə bir dövrdə Azərbaycan maarifpərvərləri mətbuatda xalqı oyatmaq üçün yazılar dərc edir, onları birliyə çağırırdılar. Bu baxımdan Ə.Hüseynzadənin aşağadkı fikirləri maraq doğurur: «Əgər biz irəliləmək və həyati varlığa sahib bir millət olmaq istəyiriksə, hər şeydən öncə müsəlman olaraq qalmalıyıq. Bizim mütərəqqi idealımız, həyatımızın yaxşılaşması istiqamətində olan arzumuz İslam qanunlarına bağlı olaraq əldə edilə bilər» [24]. Ə.Hüseynzadə ilə eyni bir vaxtda millətin azadlığı, haqq və huquq uğrunda mübarizə aparan Ə.Ağayev «Kaspi» qəzetində yazırdı: «Bütün bu cəmiyyət yalnız dini cəmiyyət olmayıb, eyni zamanda etnik bir varlıqdır. Çünki bizim Rusiya müsəlmanları çox az istisna ilə böyük türk–tatar irqinə mənsubdur» [31]. Bu məzmunlu yazılar, Peterburqa göndərilən ərizələr, müsəlmanların nümayəndə heyətinin daxili işlər naziri ilə görüşü, Qafqaz müsəlmanlarının apardıqları açıq bir milli azadlıq mübarizəsi idi. Bu mübarizənin önündə milli maarifpərvərlər Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə və başqaları dayanırdı. Qafqaz müsəlmanlarının tələbləri sadə idi. Onlar da ruslarla eyni siyasi, mədəni, dini hüquqların verilməsini, müsəlmanlar üçün qanunla və fərmanla təsdiq olunan bütün məhdudiyyətlərin aradan qaldırılmasını tələb edirdilər. Onlar da azad yaşamaq hüquq əldə etmək istəyirdilər. Azad din hüquq ilə bərabər, hər yerdə, hər zaman bütün dini vergiləri azad ala bilmək hüquq tələb edirdilər. Ruhani idarələrinə daxili işlər nazirliyi deyil, xalqın özünün nəzarət etməsini tələb edirdilər. İbtidai təhsilin ümumi, məcburi, pulsuz olması bütün məktəblərdə ana dilinin, milli ədəbiyyatın, milli tarix dərsinin tədris edilməsinə icazə verilməsini, bütün dərslərin milli dildə aparılmasını, milli dildə qəzet-jurnalların nəşr edilməsini tələb edirdilər. Azərbaycan ziyalıları Duma iclaslarında da onlara verilən hüquq və səlahiyyətlərdən istifadə edir, Qafqaz müsəlmanlarının, o cümlədən azərbaycanlıların təhsil azadlığını məhdudlaşdıran qanunların ləğv edilməsini onların təhsilə ayrılan büdcənin artırılmasını tələb edirdilər. İkinci Dumada Azərbaycandan millət vəkili seçilən Mustafa Mahmudov Duma kürsüsündən ana dilində təhsilə izn verilmədiyini bildirərək maarif büdcəsini

tənqid edərək belə demişdi: «Biz, müsəlman müəllimlər maarif sahəsində hər hansı bir yeri almaqdan məhrum edilmişik. Bu vəziyyətdən maarif naziri heç utanırmı? Rus olmayan millətlər, xüsusilə türklər üçün maarif naziri tərəfindən açılan məktəblər bomboşdu. Çünki maarif Nazirliyi bu məktəblərdə müqəddəs olan bir şey qoymamışdır. İnsanlıq adına nə varsa hamısı silinmiş, sökülüb atılmışdır. Rus dövləti Zaqafqaziyada yerləşən polis idarəsi üçün ildə 2361400 manat məbləğində pul ayırdığı halda rus olmayan millətlərin təsirinə cəmi – cümlətani 114000 manat pul ayrılmışdır [9, 117]. Ufa vilayətinin millət vəkili Həsənoğlu Rusiya türklərinin acınacaqlı vəziyyətindən bəhs etməklə yanaşı, iyirmi beş milyon türk xalqının məktəblərində tətbiq olunan yalançı dərs sisteminin aradan qaldırılması təklifini irəli sürdükdə rus millət vəkilləri «Rədd ol, get Türkiyəyə» deyə qışqırmışlar. Dumadan gələn bu səslər Çar Rusiysının milli ucqarlarda yeritdiyi siyasətin bariz nümunəsidir. Qeyd edək ki, Rusiya türklərindən birinci Dumada 46 millət vəkili var idi. İkinci Dumada bu say qorunub saxlanmışdı. Üçüncü Dumada millət vəkillərinin sayı on, dördüncü Dumada isə yeddiyə enmişdi. Millət vəkilləri Ə.Topçubaşov, İsmayıl xan Ziyadxanov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, Fətəli xan Xoyski, Xəlil Xasməmmədov, İsmayıl Tağıyev, Mustafa Mahmudov, Zeynal Zeynalov Dumada millətin tarixi taleyi ilə bağlı maraqlı çıxışlar etmiş, onların hüquq və azadlıqlarını qorumuşlar. Gəncədən millət vəkili seçilən İsmayıl Xan Ziyadxan oğlu çıxışlarının birində demişdir: «Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsr kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq... Hökümətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi sahənin hanısna nəzər salsanız hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız. Ölkəmiz istila edilən kimi dərhal milli varlığımıza təcavüz edildi. Dinimizə və müqəddəs yerlərimizə müdaxilə edildi. ..Xalq təhsilindən, ümumiyyətlə maarif sahəsindən danışmağa belə dəyməz. Çünki bizim kəndlərin heç birində məktəb yoxdu….biz müsəlmanlara bəzi ali məktəblərə qəbul olunmaq hüququ verilməmişdir [9, 126-129]. İ.Ziyadxanoğlu sonra rusların

himayədarlığı ilə ermənilərin İrəvanda, Gəncədə və Tiflisdə müsəlmanlara qarşı apardıqları soyqırımdan bəhs edərək demişdir: «İrəvanda silah səsləri eşidilməkdədir…İki ildən bəri qan içində üzən ölkəmizdə cəsədlərin üstündən keçirik. Artıq səbrimiz tükənib. Biz anaların qucağından alınıb havaya atılan südəmər uşaqların havada ikən xəncərlərə keçirildiklərini görmüşük, biz hamilə qadınların qarnına salınan xəncərlərin açdığı yaralardan uşaq əllərinin bayıra sallandığının şahidi olmuşuq [9, 130].

Milli ziyalılar çar hökümətinin Azərbaycan xalqının maarifə olan ehtiyacını həll etməyəcəklərini yaxşı bilirdi. XX əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikri maarifçilikdən daha çox, onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri cəlb edirdi.

Azərbaycan tarixində 1911-ci ildə yaradılan «Türk adəmi mərkəziyyət» (federalistlər) müsavat partiyası mühüm rol oynamışdır. H.Baykara «Azərbaycan istiqlal mübarizəsi tarixi adlı kitabında yazır ki, «Türk adəmi mərkəziyyət» partiyası Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan yeganə partiya idi» [9, 71]. 1917-ci ildə vəziyyət yenidən gərginləşdi, siyasi partiyalar fəallaşdı. Bunun nəticəsində çar üsul-idarəsi devrildi. Müvəqqəti hökumət yarandı. 8 ay müddətində Rusiyada əmələ gələn geniş demokratiya rus imperiyasında yaşayan müsəlman türklərinin yenidən canlanmasına səbəb oldu. Krım türk-tatarları kəndlərdə Bəkir Məhəmməd və İman İbrahimin başçılığı ilə azadlıq, qardaşlıq, ədalət, bərabərlik şüarları altında nümayişlər keçirdilər. Elə bu vaxt Səyid Səlim Hərdət, tarixçi Əbdül Xalqının təşəbbüsü ilə Simferopolda Rusiyada yaşayan müsəlmaların I-II konqresi, 1917-ci ildə aprel ayının 16-dan 22-ə qədər Daşkənddə Türküstan müsəlmanlarının ilk qurultayı keçirildi. Qurultayın 9 iclası olmuşdur. Onun 7-ci iclası may ayının 8-də müsəlman türklərinin maarif və mədəniyyət məsələlərinə həsr edilmişdi. İclasda ibtidai təhsilin ümumi, icbari, pulsuz olması, orta və ali təhsilin problemləri geniş müzakirə edildi. Qurultayda müzakirə edilən ən əhəmiyyətli məsələlərdən biri də müsəlman qadınlarının təhsili problemi idi. Qurultay sənədlərində göstərilir ki, Qafqaz və Türküstanda müsəlman qadınları İdil (Volqa) və Ural sahillərində yaşayan müsəlman qadınlarından fərqli olaraq din pərdəsi altında ictimai həyata buraxılmır.

Bu məsələ qurultayda qızğın müzakirəyə səbəb oldu. Qurultay nümayəndələrindən bir çoxu, o cümlədən Azərbaycan nümayəndəsi Əlimərdan boy Topçubaşov qadınların ictimai-siyasi həyatda kişilərlə bərabər olmasını müdafiə edərək, çoxarvadlılığa qarşı çıxdı. Lakin bir çox mühafizəkar qurultay nümayəndələri və dindarlar belə bir bəyanatla çıxış etdilər: «Biz qurultayı tərk elməyə haqlı olsaq da, bu böyük ali məclisə hörmət göstərib getmirik və etiraz ərizəsi ilə sizə müraciət edirik». Ərizəni 197 imam, şeyx və molla imzalamışdı.

Qurultayda iştirak edən qadınlar çox kəskin çıxış edərək dedilər: «Biz bura danlanmağa yox, düşündüyümüzü deməyə gəlmişik. Gəlmişik deyək: Nikolay hökuməti xalqının iradəsinə davam gətirə bilmədiyi kimi, mütləq sizin də iradənız yıxılacaqdır. Biz sizin iradənizi şübhəsiz devirəcəyik. Yadda saxlayın: bizə azadlıq vermək istəmirsinizsə, deməli millətin irəli getməsini istəmirsiniz. Millət ananın tərbiyə etdiyi uşaqlarla irəli gedir. Sizin bayraqlarınızda ədalət olmasa, irəli gedə bilməzsiniz. Sizin bizə münasibətiniz isə ədalətsizlikdir. Ədalət yoxsa, şərəflə qaldırmaq istədiyiniz bayraqları aşağı salın» [52, 599].

Azərbaycan maarifpərvərlərinin təşkilatçılığı ilə 1917-ci ildə Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağırıldı. Elə həmin il Peterburqda «Müsəlmanların müvəqqəti mərkəzi bürosu»nun rəisi Əhməd Saleh başçılığı ilə Ümumrusiya Müsəlmanlarının Qurultayı açıldı. Qurultayda aşağıdakı qərarlar qəbul edildi:

a) şəraitə görə qadınların hüququ kişilərlə bərabərdir;

b) şəraitə görə qadınlar siyasi-ictimai fəaliyyətə cəlb olunduqları üçün onlar seçkilərdə iştirak edə bilər;

c) qadınları bərabər hüquqa malik olan millətlər güclüdür;

ç) qadınlar ali məclis seçkilərinə iştirak etdikləri kimi, özləri də seçilə bilər [52, 399].

Qurultayda Əlimərdan bəy Topçubaşov Rusiyada üsuli-cədid məktəblərinin genişləndirilməsi ilə bağlı məruzə etdi, qadın təhsilini və azadlığını müdafiə edərək əsaslandırdı ki, türk qadını öz mili xüsusiyyətlərini saxlamaqla yanaşı, təhsil almalı və ictimai həyata qoşulmalıdır. Qurultayda Rusiyada yaşayan müsəlmanlarla bağlı 23 maddədən ibarət qərar qəbul edildi:

1. Maarif və mədəniyyət işləri hər xalqın öz iradəsində olmalıdır.

2. Maarif və mədəniyyət hər xalqın özünün seçdiyi idarəyə tabe edilməlidir.

3. Məktəblərdə oxumaq hər xalqın öz dilində olmalıdır. Orta məktəblərdə türk dili məcburi fənn kimi öyrənilməlidir. Ali məktəblərdə isə tədris türk-tatar dilində aparılmalıdır.

4. Müəyyən yaşa çatmış uşaqlar üçün oxumaq, ibtidai təhsil almaq ümumi, icbari və pulsuz olmalıdır.

5. İbtidai məktəblər eyni tipli olub, din və dünyəvi məktəblərə bölünməlidir.

6. Şagirdlərin ibtidai məktəbdən orta və ali məktəblərə keçməsi imtahansız olmalıdır.

7. Rus dili məktəblərdə ikinci dil kimi tədris edilməlidir;

8. Rusiyanın bütün millətləri üçün eyni fənlər keçilməlidir.

9. Hər xalqın maarif və mədəniyyəti üçün ayrılan xərclər dövlətin və ya məhəllə idarələrinin hesabına olmalıdır.

10. Milli məktəbləri bitirən gənclər Rusiyanın ali məktəblərinə imtahansız qəbul olunmalıdır.

11. Kənd məktəblərinin hər birinə ətraf sahədən ən azı 6 desyatin torpaq ayrılmalıdır.

12. Yerli şəraitdən asılı olaraq qızlar və oğlanlar birgə təhsil almalıdır.

13. Rus məktəblərində oxuyan müsəlman uşaqlarının sayı 8 olarsa, onlara dövlət hesabına ana dili və ilahiyyat dərsləri keçilməlidir.

14. Dini məktəblər ruhani idarələrinə tabe edilməlidir.

15. Hökumət 1917/18-ci dərs ilində zemstvo, şəhər və məhəllə məktəblərini milli məktəblərə çevirməlidir.

16. Müsəlman məktəblərinə, məktəbəqədər və milli tərbiyə müəssisələrinə müəllim hazırlamaq məqsədilə qadın və kişilər üçün ali təhsil müəssisələri və kursları açılmalıdır.

17. Müsəlmanlar üçün açılmış olan rus məktəbləri, milli seminariyalara və kurslara çevrilməlidir. Onlardan toplanmış pul və binaların mülkiyyət hüququ yerli müsəlmanlara verilməlidir.

18. Bu ildən etibarən müsəlman orta ümumi təhsil və peşə məktəbləri açılmalıdır.

19. 1917/18-ci dərs ilindən milli məktəblər hüquqi cəhətdən və məzmunca rus məktəbləri ilə bərabərləşdirilməli, vahid tədris planı tətbiq edilməli, dərslər eyni vaxtda başlayıb qurtarmalıdır.

20. Müsəlman məktəblərində oxumaq istəyən qeyri-millətlərin uşaqlarına heç bir maneə törədilməməlidir .

21. Müsəlman xalqlarının milli, mədəni müxtariyyət və federasiya məsələsi həll olunana qədər zemstvo və şəhər rus məktəblərini idarə etmək üçün milli heyətlər yaradılmalıdır.

22. Müəllimlik hüququ verən müəssisələrin birindən vəsiqə alan və yaxud ali məktəbdə dövlət imtahanı verib məktəbi qurtarmış adamlara müəllim olmaq hüququ verilməlidir.

23. Hərbi-qapalı müəssisələr və müxtəlif sahələr üçün müəyyənləşmiş məktəb-lərə müstəqil olmaq ixtiyarı təsdiq edilməlidir [9, 28].

XX əsrin əvvəllərində yaranan və fəaliyyət göstərən siyasi partiyalar, təşkilatlar və cəmiyyətlərin bazası əsasında nüfuzlu siyasi partiyalar yarandı ki, bunlarında əsas ideyası «türkləşmək, islamlaşmaq və müasirləşməkdən» ibarət idi.

Cəmi 23 ay fəaliyyət göstərən ADR dövründə qismən həyata keçirildi. Məktəblər milliləşdirildi, təlim ana dilində aparıldı, ilk ali təhsil müəssisəsi «Bakı Dövlət Universiteti» yaradıldı, təhsilin ümumi, pulsuz və icbari olması təmin edildi, xeyli orta məktəblər açıldı, təhsil almaq üçün xaricə gənclər göndərildi, millətin milli-mənəvi yüksəlişi üçün sistemli və ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Lakin XI Qızıl Ordunun Azərbaycan müdaxiləsi bu işləri davam etdirməyə imkan vermədi. Fikrimizi ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, xalqımızın milli oyanışı əsasən XX əsrlə bağlıdır. Azərbaycan ziyalıları xalqın milli oyanışında, milli azadlıq hərəkatının istiqamətləndirilməsində və onun siyasi mübarizə məktəbinə çevrilməsində əhəmiyyətli rol oynamışdır.

## 1.2. XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın inkişaf istiqamətləri

XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi şərait milli ucqarlarda, o cümlədən Azərbaycanda yeni bir canlanmanın və intibahın yaranmasına səbəb oldu. Milli maarifçilərin (A.Bakıxanov, M.F.Axundov, Q.Zərdabi, M.T.Sidqi və s.) demokratik əsasda özünü qoyduqları ictimai-pedaqoji fikir öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Milli məfkurəyə, milli düşüncəyə və milli dəyərlərə sahib çıxan yeni peaqoqlar nəsli (F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, H.Vəzirov, S.M.Qənizadə, M.Mahmudbəyov və b.) formalaşdı. Onlar Qori müəllimlər seminariyasının məzunları idi. Yeni üsullu məktəblərin yaradılması, təlimin ana dilində aparılması, milli dərsliklərin və uşaq ədəbiyyatının yaradılması, qadınların hüquq və azadlıqlarının qorunması, millətin mənəvi yüksəlişi onların fəaliyyətlərinin əsasını təşkil edirdi. Prof. Ə.Ağayev onların fəaliyyətini yüksək qiymətləndirərək yazır: «Bu pedaqoqlar yeni, vətənpərvər maarif ordusunun tərbiyələnib yetişməsində xeyli zəhmət çəkməli oldular» [2, 15]. Əsasən XX əsrin əvvəllərindən fəaliyyətə başlayan yeni dəstəyə Abdulla Tofiq Sur, Süleyman Sani Axundov, Abdulla Şaiq, Fərhad Ağazadə, Əli Rağib (Ağəli Qasımov), Üzeyir Hacıbəyov və bir çox başqaları daxil oldular. XX əsrin əvvəlləri çox mürəkkəb və zidiyyətli dövr idi. Ədəbiyyatşünas alimlər o dövrü səciyyələndirərək yazırdı: «cəmiyyətdəki barışmaz ziddiyyətlərin ifadəsi olaraq mədəniyyət aləmində iki böyük qütb üz-üzə çarpışmaqda idi: bunlardan biri feodal və burjua məfkurəsi, çarizmin müstəmləkəçilik siyasəti, dini dünyagörüşü ifadə edənlər, ikincisi isə zəhmətkeşlərin azadlıq ideyalarından və inqilabi hərəkatından ilham alan tərəqqipərvər demokrtik ziyalılar idi» [4, 366]. Bu fikirdə ilk baxışdan qeyri-elmilik nəzərə çarpır. Belə ki, Sovet hakimiyyəti illərində Azərbaycan maarifpərvərlərini «Molla Nəsrəddin»çilər və «Füzüat»çılar kimi iki cəbhəyə bölmüş, onların millətin tərəqqisi inkişafı ilə bağlı fikir, ideya və konsepsiyalarını düzgün şərh etməmişik. Vaxtilə Rusiyanın inkişaf istiqamətlərini müxtəlif yönümdən izah edən qərbçilərin və slavyonafillərində fikirləri eyni cür təhrif olunmuşdur. Halbuki A.İ.Gertsin onların fəaliyyətlərini təhlil

edərək deyirdi ki, bizim eyni olmayan bir məhəbbətimiz var. Biz iki başlı qartal kimi müxtəlif tərəflərə baxırdıq, amma ürəyimiz bir vururdu. Hər iki cərəyanın nümayəndələri rus xalqını qızğın məhəbbətlə sevib, amma onun inkişafını ayrı-ayrı yollarda görürlər. «Molla Nəsrəddin»çilər və «Fyüzüat»çılara da eyni mövqedən yanaşmaq lazımdır.

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmunun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi.

Axund Əbu Turab qeyd edir ki, insaniyyət və mərifət sahibi olmaq üçün təkcə cəbr və hikməti öyrənmək kifayət deyildir. Bütün elmlər din, şəriət qanunlarına uyğun öyrənilməlidir. İlahiyyəti, şəriəti öyrənmədən heç bir dünyəvi elmin əhəmiyyəti yoxdur və elə təlim görmüş şəxs insaniyyət və mərifətdən uzaqdır. «İnsaniyyətə lazım və vacib olan elm dəyanət o şəriətdir. Bu elmi təkmil edib sair elmi təhsil etmək üçün bir artıq fəzilət olacaqdır».

Axundun bu fikri ilə razılaşmaq olar ki, mənəvi tərbiyə, əxlaq kamilliyi olmadan öyrənilən hər hansı elmin, təhsilin faydası yoxdur. Əlbəttə, insan həm əqli, həm də mənəvi cəhətdən sağlam olmalıdır. İnsan ruhunun təmiz, pak olması, onun hər tərəfli, mədəni bir şəxsiyyət kimi yetişməsi üçün din təlimi və tərbiyəni digər fənlərlə əlaqədar surətdə öyrədilməsi çox əhəmiyyətlidir. Amma dünyəvi elmləri ikinci plana çəkmək olmaz. Dünyəvi elmlərin özündə insan mənəviyyatını durulaşdıran, mədəni tərbiyənin inkişafına kömək edən bəşəri dəyərlər az deyildi. Bax, ona görə də Əlibəy Hüseynzadə kimi ziyalılar həm elmi ədyanı, həm də elmi əbdanı öyrənməyi məsləhət bilirdilər. Lakin ziyalıların hamısı belə düşünmürdü.

Ə.Hüseynzadə bəşər dühasının yaratdığı elmi nailiyyətləri çox yüksək qiymətləndirirdi. O, məktəblərdə dünyəvi elmlərin tədrisini vacib sayır və göstərirdi ki, bunsuz ictimai, siyasi, iqtisadi inkişaf ola bilməz. Nəhayət, məqalənin axırında yazır ki, bizə həm elmi əbdan, həm də elmi ədyan eyni dərəcədə lazımdır. «Kimimiz

molla, kimimiz təbib, kimimiz mühəndis, kimimiz kimyagər olmalıyiz. Lakin behəq olmalıyız» [25].

Mirzə Cəlil də dinə münasibətdə bəzən sərt mövqe tuturdu. O, «Hansı elmlər lazımdır?» adlı felyetonunda elmi ədyan tərəfdarlarını tənqid edirdi. C.Məmmədquluzadə bununla demək istəyirdi ki, xalq dirildiyi, tərəqqiyə qədəm qoyduğu bir vaxtda Axund Əbu Turab şəriət və din ehkamlarını təlim etməyə səy göstərir.

F.B.Köçərli «Zaqafqazye» qəzetində çap etdirdiyi «Müsəlmanlara hansı elmlər lazımdır?» sərlövhəli məqaləsində Əbu Turabın fikirlərini tənqid edirdi. Göstərir ki, bizdə mollaların əksəriyyəti belə fikirdədir ki, şəriət və ilahiyyat təlimindən savayı bütün elmlər elmlər şeytan işidir, öz kəşfləri ilə tanınmış ixtiraçılar və alimlər isə cinlərin iradəsini yerinə yetirən adamlardır.

M.Ə.Rəsulzadə də həm elmi–əbdanın, həm də ədyanın tərəfdarı idi. O, bu elmi mübahisələrdən çox–çox əvvəl, yəni 1903–cü ildə «Şərqi–Rus» qəzetindəki «Hümmət və qeyrət vaxtıdır» adlı məqaləsində yazırdı: «…bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir».

M.Ə.Rəsulzadə bu elmlərin hər ikisini bilməyi vacib sayaraq yazırdı: «Bu elmlərin ikisini də öyrənmək bizə lazımdır» [49].

Rusiyada gedən ictimai-pedaqoji hərəkat Azərbaycana da güclü təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr xalqın mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişlənməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaratdı, pedaqoji hərəkatın canlanmasına təsir göstərdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azdlıq və müstəqilliyinə münasibət səviyyəsində irəli sürüldü.

Əsası A.A.Bakıxvanov, M.Ş.Vazeh, M.F.Axundov, M.Kazımbəy, İ.Qutqaşınlı tərəfindən qoyulan maarif hərəkatı XIX əsrin sonu XX əsrin əvvəllərində ictimai fikrin bütün qatlarına nüfuz edir, xalqın milli şüurunu formalaşdırır.

Bu dövrdə M.F.Axundovun «Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır»–fikri milli

ziyalıların fəaliyyət proqramına çevrildi. Onlar artıq xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir, xalqa milli-mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli qurtuluş, ictimai azadlıq və mübarizə savadı istəyirdilər.

Təhsilin demokratikləşdirilməsi problemi XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini düşündürən ən ciddi məsələlərdən biri idi. M.Ə.Rəsulzadənin təhsilin demokratikləşdirilməsi ideyasının əsasını, xalqın ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən öyrənmək və bu biliklər vasitəsilə dünya mədəniyyətinə qovuşmaq təşkil edir. Onun fikrincə, təhsilin demokratikləşdirilməsinin əsaslarını hamının kimliyindən, milliyyətindən, rütbəsindən asılı olmayaraq ana dilində təhsil almaq, oxumaq, özünün milli ləyaqətini, milli varlığını dərk edən həqiqi Azərbaycan vətəndaşı kimi tərbiyə almaq, müxtəlif münasibətlərdə insanlığı gözləmək sosial ədalətsizliyə qarşı barışmaz olmaq və s. tələblər təşkil edir. Təhsilin demokratikləşdirilməsi respublikada iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsi ilə də əlaqələndirilirdi. İqtisadiyyatın özülünü təşkil edən amilləri özünəməxsus ifadələrlə təsvir edən M.Ə.Rəsulzadə belə bir qənaətə gəlirdi ki, həm mənəvi, həm də bir qədər zəngin sərvəti olan Azərbaycan dünya miqyasına çıxıb ən qüdrətli dövlətlərlə müqavilələr bağlaya bilər, özünün mənəvi sərvətlərini–məktəbini, mədəniyyətini, incəsənətini inkişaf etdirib təhsilini demokratik zəmində qura bilər. Onun fikrincə, mətbuat məktəb, maarif, təhsil məsələlərinə geniş yer verərək xalqın milli hisslərini oytamalı, xalqı maarifə, təhsilə yiyələnməyə çağırmalıdır.

XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji mühitin formalaşmasında kitabxana və qiraətxanalar mühüm rol oynayırdı. Azərbaycan xalqının milli şüurunun, siyasi dünyagörüşünün formalaşmasına, təhsil səviyyəsinin yüksəlməsinə, kitabxana, qiraətxana, xalq evləri, klublar, yeni yaradıllan məktəblər təkan verirdi. XX əsrin əvvəlində Bakıda 4 kitabxana fəaliyyət göstərirdi.

Pedaqoji hərəkatın yeni istiqamətdə inkişafına təkan edən amillərdən biri də XX əsrin əvvəllərində Azərbaycanda elmin inkişafı ilə bağlı idi. Bu dövrdə təbiət elmlərinə maraq güclü idi. Neftin öyrənilməsi ilə bağlı ciddi tədqiqat işləri aparılırdı. Rusiya və Ukraynada təhsil alan azərbaycanlılar təbiətşünaslıq, biologiya, təbabətlə bağlı araşdırmalar aparırdılar. Tarix elmi sahəsində də müəyyən nailiyyətlər var idi.

Mirzə Yusif Nersusov Qarabaği, Rzaqulubəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir, Mirmehdi Xəzane kimi tədqiqatçılar Qarabağın tarixinə dair əsərlər yazdılar. Azərbaycan tarixinin ayrı-ayrı məsələləri maarifpərvərlərin əsərələrində öz əksini tapdı. Ədəbiyyatşünaslıq və ədəbi tənqid sahəsində də diqqətəlayiq nailiyyətlər qazanmışdı. Mirzə Fətəli Axundovun realist ənənələri yeni dövrdə inkişaf etdirilirdi. Maarifçilik Azərbaycan ədəbiyyatının əsas qayəsini təşkil edirdi. Azərbaycanın sosial-siyasi, iqtisadi, mədəni və pedaqoji həyatında baş verən yeniləşmə bədii ədəbiyyatda da öz əksini tapırdı. Hüseyn Baykara «Azərbaycan istiqlal mübarizəsi tarixi» adlı kitabında yazırdı: «Bu dövrdə Azərbaycan ədəbiyyatının əsas məqsədi cəhalətlə mübarizə etmək, xalqı irəliyə doğru aparmaqdan ibarət idi. Ədəbiyyatın, ədəbiyyatçıların əsas qayələrindən biri də çar mütləqiyyət və istiqdad idarəsinin zülm və haqsızlıqlarını xalqa başa salmaq, ona qarşı mümkün olan vasitələrlə mübarizə aparmağın yollarını göstərmək idi. Bu dövrdə Azərbaycan ədəbiyyatının xarakterik yönlərindən biri də…xalqın qəlbinə, ruhuna yol tapmaq, cəmiyyətə, vətəndaşlara mənliklərini tanıtmaq, onlara şəxsiyyət hissi aşılamaq olmuşdur [9, 63].

XX əsrin əvvəllərində ümumi mədəni yüksəlişlə əlaqədar olaraq Azərbaycanda «Nicat», «Nəşri-maarif», «Səfa», «Səadət» və digər xeyriyyə cəmiyyətləri yarandı. Bu cəmiyyətlərin fəaliyyəti nəticəsində Azərbaycan həyatının bütün sahələri – marif, elm, incəsənət, teatr, kadr hazırlığı, mətbuat, ədəbiyyat öz inkişafının yeni mərhələsinə daxil oldu. Təhsilin ümumi, məcburi və pulsuz olması, təlimin ana dilində aparılması, dünyəvi təhsilin genişləndirilməsi, böyüyən nəslin fiziki və ruhi tərbiyəsi, yeni üsullu məktəblərin açılması, təlimin yeni prinsip və metodlarının tətbiqi, əlifbanın dəyişdirilməsi, qadın təhsili, təhsilin məzmununun təkmilləşdirilməsi, müəllim kadrlarının hazırlığı və s. problemlər görkəmli Azərbaycan pedaqoq və məktəbdarlarının (H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, M.Mahmudbəyov, F.Ağazadə, F.Köçərli, M.Ə.Rəsulzadə və.b) ən çox diqqət yetirdiyi məsələlər idi. Onların mənalı həyatı hər bir vətəndaş ziyalı üçün örnək məktəbidir.

Azərbaycanda yaradılan xeyriyyə cəmiyyətlərinin təhsillə, maariflə bağlı həll etmək istədikləri problemlər aşağıdakılar idi: 1) yeni üsullu məktəblərin açılması; 2)

təlimin ana dilində aparılması; 3) dərs kitablarının ana dilində tərtib edilməsi; 4) milli müəllim kadrlarının hazırlığı; 5) Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Bakıya və ya digər iri müsəlman şəhərlərindən birinə köçürülməsi; 6) qiraətxanaların açılması; 7) mətbəələrin təşkili; 8) milli mətbuat orqanlarının yaradılması; 8) yaşlı əhalinin təhsilə cəlb edilməsi və s.

Azərbaycanda təlimin ana dilində aparılması ideyası XIX əsrin II yarısına təsadüf edir. Bu ideya Azərbaycanın Rusiya tərəfindən işğalından sonra təşəkkül tapmışdı. K.D.Uşinskinin təlimin ana dilində aparılması ideyası Azərbaycanda da bu ideyaya elmi və mənəvi zəmin hazırladı. Bu ideya inkişaf edərək XIX əsrin sonu XX əsrin əvvəllərində dövrün ən zəruri məsələsinə çevrildi. Rusiyada başlanan inqilabi hərəkat Azərbaycanda məktəb və maarif sahəsində xüsusi canlanma yaratdı. Məktəblərdə təlimin ana dilində aparılması, yeni milli dərsliklərin yazılması, milli mətbuat orqanlarının yaradılması tələbi ciddiləşdi. Azərbaycan xeyriyyəçilərinin bilavasitə təşəbbüsü və yardımı ilə çağrılan müəllimlərin I və II qurultayında ana dili təlimi məsələsi ciddi müzakirə predmetinə çevrildi. Məktəblərdə ana dili fənninin ağır vəziyyətdə olmasının səbəbləri aşağıdakı kimi qruplaşdırıldı:

1. Ana dili dərslərinə verilən vaxtın azlığı;
2. Azərbaycan dilinin məcburi bir fənn olmaması;
3. Ümumi bir Azərbaycan dilinə riayət edilməməsi;
4. Azərbaycan dilinə məktəb müdirlərinin etinasız yanaşmaları;
5. Şagirdlərin Azərbaycan dilinə az əhəmiyyət vermələri;
6. Bəzi valideynlərin Azərbaycan dilinə həqarətlə baxmaları.

Bu nöqsanları aradan qaldırmaq üçün qurultay aşağıdakı tədbirlərin həyata keçməsini zəruri və vacib hesab edirdi:

a) Azərbaycan dili fənnini tədris edən müəllimlərin hüququnu başqa fənn müəllimlərinin hüququ ilə birləşdirmək;

b) Azərbaycan dili fənninin məktəbdə məcburi fənn kimi keçirilməsinə nail olmaq;

c) Azərbaycan dili dərslərinin həftəlik saatını artırmaq;

ç) Azərbaycan dili müəllimlərinin məktəbə təyinində, azad olunmasında caamatın fikrini nəzərə almaq.

Xeyriyyə cəmiyyəti ətrafında birləşmək ziyalıların təşəbbüsü və iştirakı ilə məktəblərdə ana dilinin təlimi üçün məhz ana dilinin zəngin mənbələrindən qidalanan, məzmunca dolğun, formaca maraqlı, stabil dərsliklər tərtib olunmuşdu. A.Şaiqin «Uşaq çeşməyi» (1907), N.Nərimanopvun «Türk-Azərbaycan dilinin müxtəsər sərf-məhvi» (1907), M.Mahmudbəyovun «Birinci il müsəvvər Türk əlifbası və ilk qiraət» (1907), S.Əbdurrəhmanbəyov, M.Mahmudbəyov, S.Axundazə, F.Ağazadə, A.Talıbzadə, A.Əfəndizadənin «İkinci il» (1908), A.S.Mehdizadə və M.Mahmudbəyovun «Yeni məktəb» 1909, A.Şaiqin «Gülzar» (1912), F.Ağazadənin «Ədəbiyyat məcmuəsi» (1912) və digər dərsliklərdən xeyli müddət məktəblərdə istifadə edilmişdir. Nəşr olunan dərsliklərin əksəriyyətini «Nicat» cəmiyyəti maliyyələşdirmişdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ən mühüm pedaqoji problemlərdən biri də milli müəllim kadrlarının hazırlanması idi. Bu mübarizədə xeyriyyə cəmiyyətlərinə birləşən ziyalılar böyük fədakarlıq göstərirdilər. Onlar dəfələrlə (xüsusilə Azərbaycan müəllimlərinin I Qurultayına) müəllimlərin maddi və mənəvi ehtiyaclarını müzakirə etmiş, bu ehtiyacları ağırlaşdıran obyektiv və subyektiv səbəbləri müəyyənləşdirmiş, aradan qaldırılması üçün məqsədyönlü və sistemli iş görmüşlər. Bunlar aşağıdakılardan ibarət olmuşdur:

1) Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsini müsəlman mərkəzlərindən birinə köçürmək;
2) Həmin şöbəni müəllimlər seminariyasına çevirmək;
3) Həmin seminariyada Azərbaycan dilini əsas fənn kimi tədris etmək;
4) Müsəlman müəllimlərinin hüququnu başqa müəllimlərin hüququ ilə bərabər tutmaq;
5) Hər şəhərdə qız rus-tatar məktəbi açmaq;
6) Müsəlman müəllimləri üçün pedaqoji kurslar təşkil etmək.

Xeyriyyə cəmiyyətləri nəinki məktəbyaşlı uşaqların, həm də yaşlıların ibtidai təhsil alması qayğısına qalırdı. Bu sahədə birincilik «Nicat» cəmiyyətinə mənsub

olmuşdu. Cümə məktəblərində  və axşam kurslarında dövrün tanınmış ziyalıları dərs deyir və mühazirələr oxuyurdular.

XX əsrin əvvəllərində yeni üsullu məktəblərin yaradılması, təhsilin məzmununun və təlim metodlarının yeniləşdirilməsi, məktəb yaşlı uşaqların ümumi, icbari və pulsuz təhsilə cəlb olunması, qadın təhsilinin həyata keçirilməsi, yeni proqram və dərsliklərin hazırlanması, kitabxana və qiraətxanaların açılması, mətbəələrin fəaliyyətə başlaması, kadr hazırlığı və təlimin ana dilində aparılması, real təcrübədən doğan nəzəri-pedaqoji fikrin və metodik tövsiyələrin hazırlanması, milli vətənpərvərlik tərbiyəsinin səmərəli yollarının tapılması və digər sahələrdə maarifpərvərlərin, maarifçi ziyalıların inadlı axtarışları, əməli işləri Rusiya türkləri arasında genişlənməkdə olan pedaqoji hərəkatın leytmotivini təşkil edirdi.

1914-1915-ci dəsr ilində ibtidai məktəblərin və bu məktəblərdə oxuyan şagirdlrəin sayı 1902-ci ildə olduğundan dörd dəfədən çox artdı. 943 ibtidai məktəbdə 61 mindən artıq şagird təhsil alıdrdı. Onların 30 faizini qızlar təşkil edirdi. Həmin dövrdə azərbaycanlı şagirdlərin sayı altı dəfə artaraq, 21650 nəfərə çatdı. İndi onlar bütün ibtidai məktəb şagirdlərinin 35,2 faizini təşkil edirdi.

1914-1915-ci dərs ilində 15 orta və 18 natamam orta təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu məktəblərin sayı əsrin əvvəlində olduğundan dörd dəfə çox idi. 5 kişi və 6 qadın gimnaziyası, 4 realnı məktəb, 2 ticarət məktəbi, 1 texniki məktəb və s. vardı. Orta və natamam orta məktəblərdə cəmi 11860 şagird təhsil alırdı. Onların yalnız 11,8 faizi – 1400 nəfərə qədəri azərbaycanlı idi. Azərbaycanlı şagirdlərin içərisində qızlar 2,2 faiz təşkil edirdi. Orta məktəblərin 13-ü Bakıda, 2-si Yelizavetpolda yerləşirdi. Şamaxı, Şuşa, Lənkəran və başqa şəhərlərdə natamam orta məktəblər vardı.

1914-cü ildə Gəncə müəllimlər seminariyası açıldı [18, 218].

XX əsrin əvvəllərində Azərbaycan milli hərəkatı xalqın sosial-mədəni yüksəlişinə, oyanışına yönəlmişdi. Azərbaycan xalqı yeni əsrin siyasi təlatümlərinə millət olmaq əzmini gerçəkləşdirmək ümidi ilə daxil olurdu. Bu müqəddəs vəzifəni isə  yalnız milli məktəb, milli dərslik, milli kadrların vasitəsilə həyata keçirmək mümkün idi.

## 1.3. Azərbaycan maarifpərvərlərinin təlimin ana dilində aparılması uğrunda mübarizəsi

XIX əsrin ikinci yarısında Azərbaycanda ictimai-iqtisadi və mədəni həyat xeyli inkişaf etməyə başladı. Bu tərəqqi məktəb təhsilinin və pedaqoji fikrin inkişafına əlverişli şərait yaratdı. Köhnə ideyalarla yeni mütərəqqi ideyalar arasında mübarizə başladı. Bu mübarizədə köhnə ideyaların güclü olmasına baxmayaraq, «zülmət səltənətində parlayan maarif ulduzları artır və getdikcə daha güclü işıq saçmağa başlayırdı» [33, 17].

XIX əsrin 60-cı illərində Rusiyada başlayan ictimai-pedaqoji hərəkat qısa bir müddətdə Azərbaycanda özünə geniş tərəfdarlar tapdı.M.F.Axundovun, H.Zərdabinin ideyaları təlimin ana dilində aparılmasına güclü mənəvi zəmin hazırladı.Təlimin ana dilində aparılması ideyasının həyata keçirilməsində M.İ.Qasirin, S.Ə.Şirvaninin, M. T.Sidqinin,S.M.Qənizadənin, H.Mahmudbəyovun, S.Vəlibəyovun, R.Əfəndiyevin, C. Məmmədquluzadənin,N.Nərimanovun və digər maarifçilərin böyük xidmətləri oldu.

1905-1907-ci illər inqilabı çar Rusiyasını lərzəyə saldı. Xalqın həyacanından qorxuya düşən hökumət müəyyən güzəştlərə getmək məcburiyyətində qaldı. 1906-cı il martın 31-də «Rusiyanın cənub-şərq və şərq hissələrində yaşayan başqa xalqlardan olanlar üçün ibtidai məktəblər haqqında qaydalar» [52] qəbul edildi. Şəhərlərdə və kəndlərdə hökumətin icazəsi olmadan məktəblər açıldı və ibtidai məktəblər genişləndirildi. Rusiyanın milli ucqarlarında rus olmayan xalqların, ruslaşdırma siyasətinə qarşı və ana dilində təlim uğrunda mübarizəsi başlandı.

Təlimin ana dilində aparılması, yeni milli məktəblərin yaradılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi milli maarifçilərin ictimai-siyasi və pedaqoji fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi. Milli maarifpərvərlər yaxşı bilirdi ki, ənənəvi məktəb və mədrəsəni bu ən kütləvi mənəvi-əxlaqi tərbiyə və ideoloji təsir silahını ruhaniliyin əlindən tamamilə almadan, dünyəvi

elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən istiqlal və maarifçilik ideyalarına yiyələnmək olmaz. M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şahtaxtlı, C.Məmmədquluzadə və onların həmfikirləri hesab edirdilər ki, köhnə məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi–hərəkət və fəaliyyət orqanı ola bilməz. Ona görə də təlimi ana dilində aparmaq üçün «üsuli-cədid» məktəblərinin yaradılmasını və milliləşdirilməsini vacib hesab edirdilər.

Yeni üsullu milli məktəblərin yaradılması xalqın nicat yolu hesab edilirdi. M.Ə. Rəsulzadə yazırdı: «İbtidai məktəblər gərək ki, milli olsun. İbtidai məktəblər gərək ki, yerli camaata doğma olsun. Burada təlim ana dilində olsun. Bu məktəblər gərək camaatin məişətinə uyğun olsun» [50].

Təlimin ana dilində aparılması uğrunda mübarizədə eyni platformada dayanan ziyalılar

(N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, S.S.Axundov, Ü.Hacıbəyov, Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, F.Köçərli, S.M.Qənizadə, M.Mahmudbəyov və b.) müxtəlif cərəyanları təmsil edirdilər. Ana dilinin tədrisi, saflığı uğrunda Azərbaycan ziyalılarının mübarizəsi 1906-1907-ci illərdə Bakıda çağrılan I və II müəllimlər qurultaylarında daha geniş vüsət aldı. Hələ qurultaydan əvvəl 1905-ci il fevral ayının 16-da Bakı müsəlman müəllimlərinin Nazirlər kabinəsinin sədri S.Y.Viteyə göndərdikləri kollektiv ərizədə digər məsələlərlə yanaşı, təlimin ana dilində aparılması məsələsi xüsusilə vurğulanırdı. Həmin məktubun III bəndində göstərilirdi: «Təlim ana dilində aparılmalıdır. Çünki xalq məktəblərinin təcrübəsi göstərmişdir ki, təhsil ana dilində olanda uşaqlar dərsi yaxşı mənimsəyirlər» [32].

Rusiya müsəlmanlarının Nijni–Novqorodda keçirilən I qurultayında (1906) məktəblərlə bağlı qəbul olunan proqram Azərbaycanda təlimin ana dilində aparılması ideyasının gerçəkləşməsinə güclü təkan verdi. Ə.Topçubaşovun sədrliyi ilə baş tutan qurultayın «məktəblər komissiyası»nın hazırladığı təkliflərin 12-ci maddəsi bilavasitə yeni üsullu məktəblərin açılmasına, burada ana dilinin tədrisinə və təhsilin məzmununa həsr olunmuşdu. Hazırlanan təkliflərdə göstərilirdi: «Məktəblər

komissiyası bütün Rusiya müsəlmanlarının Nijni-Novqorod şəhərində keçirilən üçüncü məclisinin göstərişinə əsasasən xalqlarımızın dini, iqtisadi, ictimai mənafelərini nəzərə alaraq ümumi dərsliklərin hər millətin öz ana dilində olmasını münasib görür və maarifin bu istiqamətdə inkişaf etməsinə heç bir maneə törədilməməlidir. Rus dilinin tədrisi hər millətin öz istəyindən və ixtiyarından asılıdır. Zor gücünə bu iş həyata keçirilə bilməz» Məktəblər haqqında təklifin III bəndində göstərilirdi: «Bütün məktəblərdə dərslər ana dilində ərəb əlifbası ilə tədris edilsin. İbtidai məktəblərdə rus dilini öyrənmək məcburi olmasın.Ancaq rüşdiyyə məktəblərində rus dili bir fənn kimi tədris edilsin» [9, 132].

Görkəmli dilşünas və pedaqoq olan F.Köçərli Azərbaycan dilinin nə qədər saf, səlist olduğunu öz məqalələrində şərh etməyə çalışmışdır. O, yazılarında millilik ruhunu saxlamaqla yanaşı, tənqidi fikirlərini də söyləməyi özünə borc bilirdi. F.Köçərli Azərbaycan dilinin düzgün tələffüz edilməsi, dilimizin şəffaflığı və səlistliyi uğrunda mübarizə aparırdı. O, Azərbaycan ədəbiyyatının tarixini yaratmağa təşəbbüs göstərmiş, bunun üçün zəngin material toplamış, XVII–XIX əsrlərin ədəbiyyatını müəyyən dərəcədə işıqlandırmağa müvəffəq olmuşdur. Onun yaradıcılığında əlifba məsələsi xüsusi yer tuturdu. Azərbaycan dilində əlifbanın olmaması, ərəb əlifbasının oxunuşunun çətinliyi onun yazılarında mühüm yer tuturdu. Bunu nəzərə alaraq o, Azərbaycan dili üçün ərəb əlifbasının nə qədər çətin olduğunu və onun yeni əlifba sırf Azərbaycan əlifbası ilə əvəz edilməsi məsələsini gündəmə gətirmişdi. Dilin rolunu yüksək dəyərləndirən F.Köçərli «Ana dili» məqaləsində yazırdı: «Hər millətin özünəməxsus ana dili vardır ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyi, həyatın mənəviyyatı, ruhun qidasıdır. Ananın südü bədənin mayesi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevməlidir. Dili itib batmayan millətin, özü də heç zaman itib batmayacaqdır» [56, 278-280].

Abbas Səhhətə görə, hər bir xalq öz ana dili vasitəsilə tərbiyə olunur, həyatı, dünyanı dərk edir. Xalq öz doğma dilinə yad nəzərlərlə baxarsa, onu sevməzsə belə şəxslər «yaşamağa deyil, ölümə məhkumdur» [57]. A.Səhhət ana dilinin başqa dillərlə bir-birinə qarışdırılması əleyhinə çıxaraq onun pedaqoji və metodiki cəhətdən

zərərli olduğunu söyləyərdi. Onun fikrincə, hər hansı bir dili mükəmməl bilmək lazımdır. Həmin dilin qayda-qanunlarına riayət edərək fikrini müstəqil surətdə şərh edə biləsən, başqasına düzgün çatdırasan. O, hər dildən bir neçə söz ifadə etməyi bacarmağı dil bilmək kimi qiymətləndirmirdi. Əksinə, dili bu cür «bilən» şəxsləri başqa dillərlə ana dilini qarışdırdıqlarına, dilin saflığına, təmizliyinə xələl gətirdiklərinə görə həmişə məzəmmətləyirdi. A.Səhhət məktəblərdə ana dilinin tədrisinə böyük əhəmiyyət verirdi. Mövcud məktəblərdə ana dilinə qeyri-ciddi münasibət, ana dilinin qeyri-məcburi fənn sayılması onu narahat edirdi: «Ana dili bu halacan qeyri-məcburi dərs sayıldığından altıncı saatda öyrədilir. Yəni mütəllimlərin yorulmuş və başqa bir şey öyrənməyə əsla meyl və rəğbətləri qalmadıqları bir vaxtda təəllüq edilməsidir. Hətta darülmüəllimlərdə bu dərslərə artıq əhəmiyyət verilməsi lazım ikən bu dərslər …qayət ixtisar vəchilə keçirilmişdir. Bəzi zikur və ünas gimnaziyalarda ana dilinin təlimi ancaq 1905-1906-cı illərdən başlamışdır. Hətta bu məktəblərdə ana dilinin təlimi öylə fəna bir vəzə qoyulmuşdur ki, müəllimlər və mütəllimlər kəmali-meyl və rəğbət izhar etdikləri halda yenə fandeli bir nəticə əldə edilməlidir» [58]. A.Səhhət digər maarifçilər kimi ana dilinin məcburi dərslər siyahısına daxil etməyi, onu ciddi və əsaslı bir qayda üzrə keçməyi tələb etmiş, məktəblərdə ana dili və ədəbiyatın tədrisinə böyük əhəmiyyət vermişdir. O, haqlı olaraq yazırdı: «Ana dili və ədəbiyyatın tədrisini yaxşılaşdırmayınca, onu əsaslı öyrənməyincə, xalq içərisində yaymayınca, həm övladlarımız, həm də başqa xalqlar bizim dilimizdən, ədəbiyyat və mədəniyyətitmizdən xəbərsiz qalacaq, ona əhəmiyyət verməyəcəkdir. A.Səhhət məktəblərdə ana dilinin tədrisini sadəcə təbliğ etmirdi, özü bilavasitə pedaqoji fəaliyyətlə məşğul olur, Şamaxı realnı məktəbində ana dili və ədəbiyyatdan dərs deyirdi. Dərs dediyi şagirdlərə ana dilini sevdirməyə çalışırdı.

XX əsrin əvvəllərində təlimin ana dilində aparılması uğrunda C.Məmmədquluzadənin misilsiz xidmətləri olmuşdur. O, ana dilinin xüsusi təlim fənni kimi tədris edilməsi üçün yorulmaq bilmədən mübarizə aparmışdır. O, ana dilinin tədrisini yaxşılaşdırmaq məsələsindən danışarkən bu dilin mühüm incəliklərini öyrənmək məsələsinə ciddi fikir verilməsini tələb edirdi. O, ana dilinin tədrisini yaxşılaşdırmaq, onun keyfiyyətini yüksəltmək məsələlərindən danışarkən dilin təmiz

və səlistliyini gözləməyə xüsusi fikir verilməsini tələb edirdi. Onun fikrincə, dili sadəcə bilmək kifayət deyildir, onu dərin məhəbbətlə sevmək lazımdır. Elə buna görə də böyük ədib «hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək» deyən bu kimi üzdəniraq «ziyalılara» müraciətlə: «Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərimizdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökumət qoymur, ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?» O, dilimizdə ərəb, fars sözlərinin işlənməsinə qarşı çıxaraq saf, səlist ana dili uğrunda mübarizə aparırdı. C.Məmmədquluzadə ana dilimizi sevir, onu böyük həvəs və ustalıqla öyrədirdi. Ona görə də böyük ədib həmin dilin təmizliyi, saflığı uğrunda mübarizə aparmaqla bərabər, onun geniş əhali arasında yayılması və təlimin ana dilində aparılması uğrunda da səmərəli fəaliyyət göstərmişdir. Bunun üçün o, ana dilində danışmaq və yazmağın zəruri olmasını qeyd edirdi. C.Məmmədquluzadə Azərbaycan dilinin sadəliyi və saflığı uğrunda mübarizə apararkən onun müstəqil fənn kimi tədris planlarına daxil edilməsi və ona verilən saatların isə artırılmasını tələb edirdi. C.Məmmədquluzadə ana dilimizin qrammatikasının elmi əsaslar üzərində qurulmasını tələb edirdi. Onun fikrincə, dilin qrammatikası lazımı qədər hazırlanmadığı üçündür ki, hər kəs öz istədiyi kimi yazır və danışır. O, ana dili təlmində yazı işlərinin aparılmasına xüsusi fikir verilməsini tələb edirdi.

Azərbaycan maarifçilərinin ana dilində məktəb açmaq fikirlərini C.Məmmədquluzadə ürəkdən bəyənmiş və «Molla Nəsrəddin» jurnalını da ana dilində nəşr etmişdi. C.Məmmədquluzadə ömrünün axırına kimi ana dilinin saflığı, təmizliyi uğrunda mübarizə aparmış, onu hər cür yad təsirlərdən qorumağa çalışmışdır.

«Molla Nəsrəddin» jurnalında millətə milli mənlik şüuru aşılamaq, mənəvi dirilik dərsi keçmək üçün təlimin ana dilində aparılması ideyası geniş surətdə təbliğ edilir, ana dilinin tədrisi bütün təlim işinin mərkəzinə qoyulurdu. «Molla Nəsrəddin» jurnalı ilk nömrədən başlayaraq sonuncu nömrəyə kimi ana dilində yazdı.

O dövrdə xalqın sürətlə savadlanması, ana dilinin inkişafı üçün ərəb əlifbasının yeni əlifba ilə əvəz olunması çox vacib, həlli təxirəsalınmaz məsələlərdən biri kimi dəyərləndirilirdi. Bu məsələnin böyük ictimai, pedaqoji, metodik əhəmiyyətini

dərindən başa düşən C.Məmmədquluzadə onun həyata keçirilməsi uğrunda ciddi səy göstərirdi. O, M.F.Axundovun bu yolda göstərdiyi səy və təşəbbüsü yüksək qiymətləndirir və onun fikrinə ürəkdən şərik çıxırdı. Ərəb əlifbasının nöqsanlarını ətraflı şərh edən böyük demokrat yazıçı belə nəticəyə gəlirdi: «Mən elə qanıram ki, nə qədər ərəb əlifbası ilə yazı-pozu edilir, mətbuat tərəqqi tapmayacaq, dil hörmətdən düşəcək, milli ədəbiyyat puç olacaq. O millət qeyri bir güclü millətə qarışıb yox olacaqdır».

C.Məmmədquluzadə «Əlifba» və digər məqalə və felyetonlarında ərəb əlifbasının çatışmamazlıqlarından ətraflı bəhs etmişdir.

«Molla Nəsrəddin» jurnalı Azərbaycan dilini təbliğ etməklə kifayətlənmir, bu dilin gözəlliyini, böyüklüyünü, əzəmətini tərənnüm edir, bu dildə yazmaqla fəxr edirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbayanda təlimin ana dilində aparılması uğrunda mübarizədə Ömər Faiq Nemanzadə də xüsusi fəallıq göstərirdi. O, yazırdı ki, məni ən ziyadə rahatsız edən dərdlərimizdən biri də dil və imla məsələsi idi. O, «Şərqi rus» qəzetinin 29 iyun 1904-cü il sayında ana dilinə etinasız yanaşanları tənqid edərək yazırdı: «təkrar edirəm, xalqın anlaya biləcəyi bir dilimiz olmalıdır. Bu ümumi nüfuzlu dil dəxi mərifətli millətlərdə olduğu kimi şəksiz, xalqa yaxın olan mətbuat dilidir. Dili, mətbuatı olmayan bir xalqın siyasi vücudiyyəti də olmaz» [61].

Ana dili uğrunda mübarizənin ön cərgəsində gedənlərdən F.Ağazadə yazırdı: «İnsan övladının incə hisslərini oyandırmaq üçün ana dili birinci vasitədir. O, ərəb, türk, fars təsirinə qarşı çıxaraq «Nə üçün ərəb hərfləri türk (Azərbaycan) dilinə yaramır?» məqaləsində ərəb əlifbasını dəyişib latın qrafikasına keçməyi lazım bilirdi. O, ərəb əlifbası tərəfdarlarının ciddi müqavimətlərinə baxmayaraq, Azərbaycan əlifbasının böyük nəzəriyyəçisi kimi çıxış edirdi.

H.Minasazov yazırdı: «dil nə qədər xalqa, onun danışıq tərzinə yaxındırsa, demək o ədəbi dildir. Belə olmasaydı Puşkinin, Nekrasovun, Tolstoyun əsərlərinin dili ədəbi dil hesab edilməzdi» [42].

Azərbaycan dilinin böyük ictimai-siyasi əhəmiyyətini dərk edən və ona yüksək dəyər verən Ü.Hacıbəyov yazırdı ki, Azərbaycan dili Avropa ədiblərinin dediyinə görə ən kamil və dərin bir dildir. Bu kamil dildən istifadə etməməyi o, bədbəxtlik hesab edirdi. Ü.Hacıbəyov Azərbaycan dilini öyrənmək üçün Azərbaycan dilinin təmizliyini, kamilliyini saxlamaq üçün dövrü mətbuata, onun üslubuna, dilinə böyük əhəmiyyət verirdi. Ü.Hacıbəyov mətbuatda dilimizə yad olan sözlərin işlədilməsindən mütəəssir olaraq yazırdı ki, «Mühərirlər oxuduqları qeyri dillərdə işlədilən sözləri Azərbaycan dilinə daxil edərkən dilimizin heç bir qayda-qanununu gözləmirlər».

Ü.Hacıbəyov dili yüksək qiymətləndirərək yazırdı: «İnsanın hər bir ehtiyacını, ağlına gələn ali əfkarını qəlbində törəyən hissiyatı şairanəsini ən müsbət surətdə ishar dilin geniş, zəngin, bəliq və səlisi olması insanın hər bir cəhətdən təali və tərəqqisinə nə böyük xidmət etmiş olar» [22, 32].

Yeri gəlmişkən qeyd edək ki, çar hökuməti Azərbaycanı işğal etdikdən sonra ana dilinə, onun tədrisinə həmişə düşmən münasibət bəsləmiş, gizli təlimat və göstərişlərlə onu məhdudlaşdırmağa çalışmışdır. Rus olmayan xalqların məktəblərində rus dilinə 12 saat vaxt ayrıldığı halda, ana dilinə 1-2-ci siniflərdə 6 saat, 3-cü sinifdə isə 4 saat vaxt ayrılırdı. Azərbaycan maarifpərvərləri ana dili uğrunda mübarizə apararkən dilin məktəblərdə mükəmməl keçirilməsini lazım bilərək ana dilinə verilən saatların miqdarını artırmağı zəruri hesab edirdilər.

Ü.Hacıbəyova görə, ədəbi dil ilk növbədə xalq danışıq dili əsasında «unudulmuş sözləri «diriltmək» hesabına yenidən ixtira edilməlidir. Azərbaycan ziyalıları ədəbi dili həm də klassik ədəbiyyatımızın hesabına inkişaf etdirməyi lazım bilərək özləri də bu sahədə gözəl nümunə göstərirdilər. Onlar yaxşı başa düşürdülər ki, heç bir dil ancaq sırf milli dil çərçivəsində çıxış edə bilməz. Elə bir dil yoxdur ki, onun lüğət tərkibi digər dillər hesabına zənginləşməsin. Onlar belə hesab edirdilər ki, yeni anlayışları ədəbi dilə daxil edərkən onları öz milli sözümüzlə düzgün vermək mümkündürsə, bu yolu seçmək lazımdır. Bu mümkün deyilsə, onda kor-koranə, yeri gəldi gəlmədi ərəb və fars sözləri ilə deyil, rus və Avropa dillərindən dilimizin qayda-qanunlarına uyğun gələnləri seçib işlətməliyik.

Ü.Hacıbəyov dil haqqında yürütdüyü mülahizələrində dilin psixoloji təhlilini verərək yazır: «...insanın hər bir ehtiyacatı, əqlinə gələn ali əfkarını, qəlbində törəmiş hissiyati-şairanəsini ən müsbət sürətdə izhar və bəyan etməyə vasitə dildir».

Beləliklə, Ü.Hacıbəyov dilin insanlara məxsus bir proses olub, insanların ən ali fikirlərini, ən incə hisslərini, arzu və ehtiyaclarını ifadə etməkdə qüvvətli vasitə olduğunu göstərmişdir.

Dilin xalqın tərəqqisi üçün böyük vasitə olduğunu başa düşən Ü.Hacıbəyov xalqın öz dilini mükəmməl surətdə öyrənməsini, öz dilində danışmasını, öz dilində düşünməsini və balalarına ana dilində təhsil verməsini tələb edirdi: «...dilimizi öyrənməliyiz, öz rifah və səadətimiz üçün öyrənməliyiz, öz mədəniyyət və mərifətimiz üçün öyrənməliyiz ki, öz ehtiyacımızın bəyanına qadir olaq».

Xalqa öz dilini öyrənməyin vacibliyini əsaslandırmaqla yanaşı, dili öyrənməyin vasitələrini göstərirdi. Bu vasitələr aşağıdakılardır: ana dilində nəşr edilən qazetləri oxumaq və ya oxuyanlara qulaq asmaq, lüğət və qamuslardan istifadə etmək və s. Bununla bərabər Ü.Hacıbəyov ana dilini öyrənməkdə, onu qoruyub saxlamaqda ən güclü vasitənin məktəblərdə tədrisin ana dilində aparılmasında görürdü. Həqiqətən də, o dövrdə Azərbaycan ədəbi dilində özünü göstərən hərcmərcliyin, başqa dillərin ona təzyiq və təcavüz etməsinin səbəblərindən biri də Azərbaycanda ana dilində məktəblərin olmaması idi.

Təhsilin ana dilində verilməsinin böyük əhəmiyyətini başa düşən Ü.Hacıbəyov Azərbaycan dilində tədrisi kitabları yaratmaq məsələsini irəli sürmüşdür. Hələ Qori müəllimlər seminariyasının tələbəsi olduğu zaman o, gələcəkdə Azərbaycan məktəbləri üçün dərs kitabları tərtib etməyi qarşısına məqsəd qoyur. «Mən seminariyanın ikinci klasında idim ki, il yarımdan sonra müəllim olacaqdım. Yazı imtahanı olmaq üzrə - «Mən gələcəkdə nə iş görəcəm» sərlövhəsi təhtində bir məqalə yazmağı bizə əmr etdilər. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olmaqdan ötrü dərs kitabları tərtib edəcəyəm». Ü.Hacıbəyov bu fikrinə sadiq olaraq 1907-ci ildə «İbtidai məktəblərin birinci və ikinci sinifləri üçün hesab məsələləri» adlı dərsliyi nəşr etdirir. Ana dilində dərsliklərin çox az olduğu bir zamanda bu kitabın böyük əhəmiyyəti var idi.

Ü.Hacıbəyov kitabın müqəddiməsində bu barədə belə yazır: «Ana dilində hesab məsələlərinə dair bir kitabçanın lüzumunu pedaqoqlarımızdan hər biri iqrar edir zənnində olub bu kitabı meydana çıxartmağa səy etdim».

Ü.Hacıbəyovun «Hesab məsələləri» kitabının bir çox məziyyətləri sırasında ən mühümü onun uşaqların anlaya biləcəyi sadə və aydın bir dildə yazılmasıdır. İnqilaba qədərki dərs kitablarının əksəriyyətinin dili çox qəliz olub, uşaqların anlaması üçün böyük çətinlik törədirdi. Ü.Hacıbəyov kitabını sadə Azərbaycan dilində tərtib etməyi qarşısına məqsəd qoymuş və buna nail olmuşdur.

N.Nərimanov məktəblərdə ana dili tədrisinin yaxşılaşdırılmasını tələb edirdi. O göstərirdi ki, kiçik millətlərin hərtərəfli inkişafı üçün mühüm şərtlərdən biri də ana dilinin məktəblərdə əsaslı şəkildə tədris olunmasıdır.

N.Nərimanov təlimi ana dilində aparmağı tələb etməklə yanaşı, həm də o zamanki orfoqrafiyada hökm sürən hərc-mərcliyə qarşı mübarizə aparırdı. O, yazı işində olan imla xətalarını aradan qaldırmağa çalışırdı. Bu məsələdə, düzgün və asan oxuyub-yazmağa kömək edən, uşaqlara ana dilini və onun qayda-qanunlarını yaxşı öyrənməyə imkan yaradan bir qrammatika dərsliyinə böyük ehtiyac hiss olunduğunu görürdü. N.Nərimanov bu çətin, məsul vəzifəni öz öhdəsinə alaraq 1899-cu ildə Bakıda «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» adlı kitabını nəşr etdirmişdi.

N.Nərimanov Azərbaycan dilini təkcə azərbaycanlılar üçün deyil, Azərbaycanda yaşayan digər millətlər üçün də faydalı hesab edirdi. Bu məqsədlə o, 1899-cu ildə «Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça» adlı dərslik yazmışdı. Ərəb əlifbasının çətinliklərinə baxmayaraq, bu dərslik çox sadə və aydın tərtib edilmişdi. Nərimanov ərəb hərflərinin müxtəlif yerlərdə, müxtəlif formalarda yazılmasını asanlaşdırmış, hərfin ancaq sözün əvvəlində və təklikdə yazılan formasından istifadə etmişdi.

İkinci bir dili öyrənmək üçün tərtib edilən dərsliklərə verilən pedaqoji tələb nöqteyi-nəzərindən müəllifin yazdığı müqəddimə çox xarakterikdir. Orada deyilir: «Biz həmin dərslikdə qısaca olaraq o nitq hissələrindən bəhs edirik ki, tatar (Azərbaycan) dilinin ilk öyrənilməsinə yaxından kömək edir və şagirdi həmin dilin bütöv sərf-nəhvini öyrənməsinə hazırlayır» [14, 73].

İkinci bir dilin öyrənilməsində praktik cəhətə üstünlük verən Nərimanov yazmışdı: «Çox təəssüf ki, digər dərsliklərin tərtibatçıları başlıca diqqəti əsasən dilin nəzəri öyrədilməsinə, yəni sərf-nəhvin öyrədilməsinə verirlər və nədənsə dilin təcrübi öyrədilməsi cəhətinə çox az əhəmiyyət verirlər».

N.Nərimanov göstərir ki, «dilin təcrübi öyrədilməsi əlbəttə, o elmi məqsədlər üçün öyrədilmirsə, birinci yerdə durmalıdır».

N.Nərimanov ana dilini xalqın tarixi, mənəviyyatı və incəsənəti ilə əlaqələndirir və göstərir ki, ana dilində bir nəğmə oxunduqda, vətən tərənnüm edildikdə insanın bədəni də, ruhu da lərzəyə gəlir.

Görkəmli maarifpərvər M.Mahmudbəyov təlimin ana dilində aparılması və ümumiyyətlə, ana dili məsələsinə aid fikirlərini bir neçə istiqamətdə şərh edir. Ən əvvəl onun Azərbaycanda tədris işlərinin ana dilində aparılması uğrunda mübarizəsi diqqəti cəlb edir.

M.Mabmudbəyov çarizmin bu mürtəce siyasətinə qarşı mübarizə apararaq hər bir xalqın öz ana dilində təhsil almasına imkan verilməsini tələb edirdi. Yaşadığı dövrdə buxovlanmış, azadlıqdan məhrum edilmiş «xalqın mənəvi həyatı» K.D. Uşinski olan ana dilinə azadlıq, müstəqillik tələb edirdi.

F.Köçərli yazırdı: «Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını sevdiyi kimi ana dilidə sevir». Üzeyir Hacıbəyov isə deyirdi: «Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığını isbatvücud etməsinə səbəb onun dilidir». Ana dili ilə bağlı Fərhad Ağazadənin də maraqlı fikirləri var. O yazırdı: «İnsan övladının incə hisslərini dayandırmaq üçün ana dili birinci vasitədir». H.Minasazov isə yazırdı: «Dil nə qədər xalqa, onun danışıq tərzinə yaxındırsa, demək o ədəbi dildir. Belə olmasaydı Puşkinin, Nekrasovun, Tolstoyun əsərlərinin dili ədəbi dil hesab edilməzdi» [42, 118].

Azərbaycan dilinin saflığı uğrunda ardıcıl və inadlı mübarizə aparan ziyalılarımız arasında Seyid Hüseynin xidmətləri xüsusi qeyd olunmalıdır. Onun dil haqqındakı fikirləri bu vaxta qədər tədqiq olunub öyrənilmədiyi üçün bu barədə geniş danışmağı lazım bilirik. «İnsan övladında incə hisslər oyatmaq üçün ana dilinin birinci vasitə»

olduğunu söyləyən S.Hüseyn 1911-ci ildən başlayaraq dil ətrafında gedən mübahisələrə qoşulmuş, müxtəlif qəzet və jurnallarda «Türk sözləri», «Fəqərələr», «Bir mütaliə», «İmla və imlaçılarımız», «Dil ətrafında mütaliələr», «Ədəbiyyatımıza bir nəzər» və bir sıra başqa məqalələrini dərc etdirmişdir. Bu məqalələrdə müəllif dilimizin lüğət tərkibinin zənginləşməsi, əcnəbi söz və ifadələrdən təmizlənməsi, ədəbi dil, tərcümə dili, imla, əlifba kimi mühüm məsələlərə toxunmuş, bir çox qiymətli fikirlər irəli sürmüşdür. O, hər şeydən əvvəl dilimizin yad təsirlərdən xilas olmasına çalışırdı.

Məhəmmədağa Şahtaxtlının pedaqoji irsində təhsilin ana dilində aparılması fikri mərkəzi yerlərdən birini tutur. Ana dilinin təlim roluna ayrıca əhəmiyyət verən M.Şaxtalı təhsilin yalnız və yalnız ana dilində aparılmasını zəruri hesab edirdi. O, yazırdı «İbtidai məktəb yalnız təhsilin ana dilində aparıldığı zaman yaxşı nəticə verər». O, göstərirdi ki, məktəbdə verilən elmi-biliklərlə tanışlıq üçün ana dili çox mühüm vasitədir. Ana dili şagirdə məlum olduğundan, şagird ana dili vasitəsilə birbaşa təlimin məzmunu ilə tanış olmağa, ona yiyələnməyə başlayır.

Şahtaxtlı göstərir ki, ibtidai savad məktəblərində şagird ana dilinə yad olan bir dilin sözlərini yalnız sinifdə müəllimdən eşidir və heç vaxt müəllimin dilini düzgün başa düşə bilmir. Buna görə də ona kifayət qədər məlum olmayan priyomlarla verilən elmi bilikləri də düzgün mənimsəyə bilmir. Beləliklə, məktəb illəri bir-bir gəlib keçir, şagird ona yad olan dili pis mənimsəyir və məktəbi tərk edir. Təhsilin xarici dillərdə aparılmasının zərərini sübut edən Şahtaxtlı «İbtidai təhsil ana dilində olmalıdır» ideyasını geniş təbliğ edirdi [59].

Şahtaxtlı düzgün təşkil edilmiş məktəbin ana dili məktəbi üçün lazım olan şərtlərini də müəyyən edirdi. O, Avropa qaydasına məqsədə uyğun təşkil edilmiş Azərbaycan məktəbi üçün ana dilində dərsliklər tərtib etməyi, ilk növbədə isə müvafiq rus məktəblərində istifadə edilən dərslikləri ana dilinə tərcümə etməyi təklif edirdi.

Azərbaycan maarifpərvərlərinin XX əsrin əvvəllərində ana dili uğrunda apardıqları mübarizə öz bəhrəsini verdi. ADR hökuməti milliləşdirmə siyasətini

həyata keçirərkən ana dilinə dövlət dili statusu verərək, onun öyrənilməsinə verilən saatların miqdarını xeyli artırdı. Ana dili xalqın milli sərvətinə çevrildi.

# II FƏSİL
# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN PEDAQOJİ PROBLEMLƏRİN HƏLLİ UĞRUNDA MÜBARİZƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Azərbaycan maarifpərvərlərinin müəllim və müəllim hazırlığı uğrunda mübarizəsi

F.Köçərli isə yazırdı: «Hər millətin içərisində onun üzünə maarif qapıları açan müəllimdir. Ölkələrin xoşbəxt olmalarında müəllimin əvəzsiz rolu vardır. Hər bir millət özünün iqtisadi-siyasi, hərbi qüdrəti və qüvvəsi üçün müəllimə borclu olmalıdır. Rusiyada yaşayan millətlər irəli gedir. Biz isə bu imperiyada yaşayan xalqların çərçivəsindən çıxıb geri qalmışıq. Ona görə ki, uzun müddətlər əbnayi-millətə qaydasınca təlim və tərbiyə verən belə müəllimlərimiz olmadığına görə belə pərişan hala düşmüşük» [33, 192].

Güney Qafqazda dünyəvi məktəblərdə işləmək üçün müəllim kadrları hazırlığına XIX əsrin II yarısında başlanmışdır. İlk dəfə 1866-cı ildə Tiflis Aleksandrovski Müəllimlər İnstitutu təşkil edilmişdir. Görkəmli maarifpərvərlər S.M.Qənizadə, H.Mahmudbəyov, S.Ə.Əbdürrəhmanbəyli və digərləri həmin institutun məzunları olmuşlar. 1871-ci ildə Kubanda, 1876-cı ildə Qori şəhərində Müəllimlər Seminariyası fəaliyyətə başlamışdır. Qori Müəllimlər Seminariyasının nəzdində Azərbaycan şöbəsi 1879-cu ildə təşkil olunmuşdu. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başlamışdı. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin yaranması, inkişafı və fəaliyyəti ilə bağlı F.Seyidovun [54], H.Əhmədovun [16], Ş. Nəzirlinin [48] dəyərli tədqiqatları vardır. Bu səbəbdən də Qori Müəllimlər Seminariyasının fəaliyyətini genişliyi ilə araşdırmağı məqbul hesab etmirəm. Amma İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti üzərində geniş dayanmaq istəyirəm. İrəvan şəhəri haqqında F.Köçərli yazırdı ki, şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olubdur. Bu qədim Azərbaycan torpağı Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Mola Məhəmməd İrəvani, Əbülqasım İrəvani və s. kimi neçə-neçə

görkəmli ziyalının ana yurdu olub. XIX əsrin ikinci yarısının əvvəllərində İrəvanda böyük zəka sahibləri, ziyalılar nəsli yetişmişdi: Mirbabayevlər, Qazıyevlər, Mirbağırovlar, Məmmədzadələr, Bağırbəyovlar, İrəvanskilər, Topçubaşovlar, Muğalinskilər və s. O dövrdə İrəvanda bir müəllimlər Seminariyası, üç gimnaziya və iki pansionat var idi. İrəvan Müəllimlər Seminariyası Qafqaz məktəbləri üçün müəllimlər hazırlanması üçün böyük xidmət göstərən maarif ocağı olmuşdur. Bu tədris ocağı dövrünün qabaqcıl pedaqoji fikrinin əsas mərkəzlərindən biri kimi tanınmışdı.

Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi.

1882-ci ilin sonunda burada oxuyan şagirdlərin sayı 54-ə çatmışdı. Seminariyanın fəaliyyətində Qori Seminariyasının azərbaycanlı məzunlarının böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokratlar F.Köçərli, İ.Şəfibəyov,C.Ələkbərbəyov, C.Məmmədquluzadə, M.Terequlov və başqalarının ilk pedaqoji fəaliyyəti İrəvan oğlan gimnaziyası, Uluxanlı kənd məktəbi ilə yanaşı, İrəvan Müəllimlər Seminariyası ilə də sıx bağlı olmuşdur.

Seminariya fəaliyyətə iki qrupla başlamışdır: böyük hazırlıq qrupu və birinci sinif. Sonrakı dərs ilində ikinci sinif, 1883-cü ildə isə üçüncü sinif təşkil edilmişdi. Beləliklə, Zaqafqaziyada olan bütün müəllimlər seminariyası kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət olmuşdur. Hər il müəllimlər seminariyasının hazırlıq qrupuna və I sinfə qəbul elan edilirdi. II və III siniflərə birbaşa qəbul olunmağa icazə verilmirdi. Əsasnaməyə görə seminariyaya oğlanlar qəbul oluna bilərdi. Qəbul imtahanları II sinfin proqramlarına uyğun olaraq ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən aparılırdı. İrəvan Müəllimlər Seminariyasının nəzdində ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər pedaqoji təcrübələrini həmin məktəbdə keçirdilər. Ordubad şəhər məktəbi həmin seminariyanın təcrübə məktəbi hesab olunurdu. Burada müxtəlif fənlər tədris edilməklə yanaşı, bir sıra peşələr də öyrədilirdi. Bu cəhətdən İrəvan Müəllimlər

Seminariyasında xattatlıq, cildçilik işi, tərəvəzçilik və ipəkçilik fənləri könüllü surətdə tədris olunurdu.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi, maarifçi-pedaqoq Axund Məmmədbağır Qazızadə olmuşdur. O, Seminariya açılan gündən 1897-ci ilə qədər burada ilahiyyatdan və Azərbaycan dilindən dərs demişdir. Seminariyada Azərbaycan məktəbləri üçün müəllimlər hazırlanmasında Axund Məmmədbağır Qazızadənin böyük xidmətləri olmuşdur. Dövrünün qabaqcıl maarifçisi olduğu üçün ona Axund ləqəbi vermişdilər. Bütün ömrünü pedaqoji fəaliyyətə həsr etməsini, gənclərin təlim-tərbiyəsi ilə nümunəvi məşğul olmasını nəzərə alıb, 1882-ci ildə onu gümüş medalla təltif etmişdilər.

İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Həmin il məktəbi 5 nəfər bitirmişdi. XIX əsrin sonlarında Zaqafqaziyada işləyən kənd məktəbləri müəllimləri və müdirlərinin xeyli hissəsi müxtəlif illərdə həmin seminariyada ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ almışlar. Seminariyanın pedaqoji şurasının qərarına əsasən 1895-ci ildə Cəlil Mirzəyev,Tağı bəy Səfiyev,Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Muğanlinski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına kənd müəllimi adı verilmişdir. Bu nəcib işin də təşəbbüsçüsü və təşkilatçısı qocaman maarif xadimi Axund Məmmədbağır Qazızadə olmuşdur [104, 90-92]. İrəvan Müəllimlər Seminariyası 1918-ci ilə kimi fəaliyyət göstərmişdir.

Millətin tərəqqisinin məktəbdən, məktəbin tərəqisinin isə müəllimdən asılı olduğunu söyləyən N.Nərimanov və onun həmkarları F.Köçərli, H.Zərdabi, Ü. Hacıbəyov, A.Səhhət, A.O.Çernyayevski, S.Vəlibəyov, M.Mahmudbəyov, H. Mahmudbəyov, F. Ağazadə, C.Məmmədquluzadə ana dilində dərs deyə bilən müəllimlərin hazırlanmasını dövrün əsas tələbi kimi qiymətləndirirdilər. Mətbuat səhifələrində Azərbaycanda Müəllimlər Seminariyasının açılması, Qori Müəllimlər Seminariyasının Zaqafqaziyanın müsəlman şəhərlərindən birinə köçürülməsi qızğın müzakirə olunurdu.

Bakı müsəlman müəllimləri də təhsil işində islahat aparılmasını tələb edirdilər. Bu məqsədlə onlar 1905-ci ilin fevral ayının 18-də Bakıda müsəlman ibtidai məktəb müəllimlərinin yığıncağını keçirmişdilər [32]. Yığıncaqda Qafqazda müsəlmanlar arasında maarifin vəziyyəti müzakirə olunmuş, nazirlər kabinetinin sədri S.Y.Viteyə kollektiv ərizə göndərilmişdi. Mütərəqqi milli ziyalılar Azərbaycan ərazisində seminariya yaradılması ilə bağlı mətbuatda müzakirələr açdılar. Müəyyən müddətdən sonra Qori Müəllimlər Seminariyasının nəzdindəki şöbənin Azərbaycana köçürülməsi və burada müstəqil fəaliyyət göstərməsi nəzərdə tutulurdu. Müəyyən yazışmalardan sonra 1884-cü ilin fevralında Qafqaz Tədris Dairəsinin popeçiteli K.Yanovski Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru D.Semyonova təliqə göndərir. Həmin təliqədə tələb edilir ki, direktor tatar (Azərbaycan) şöbəsinin ZMS-ın nəzdində bundan sonra da qalmasının faydalı olub-olmaması barədə öz fikrini ifadə etsin, beşillik təcrübəyə əsasən seminariyanın ştatı, həmin şöbənin nizamnaməsi və ştatında bu və ya digər dəyişikliyin edilməsinin lazım gəlib-gəlmədiyini bildirsin. 5 il müddətində Azərbaycan şöbəsini cəmi 21 nəfər bitirmişdi. Təbii ki, bu da Azərbaycanda müəllim kadrlarına olan ehtiyacı ödəyə bilməzdi.

Qeyd etmək lazımdır ki, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Zaqafqaziyanın müsəlman şəhərlərinin birinə köçürülməsi ilə bağlı Azərbaycan ziyalıları Qafqaz canişininə dəfələrlə müraciət etmişdilər.

Bu müraciətlərdə və xahişnamələrdə göstərilirdi ki, Azərbaycanda ana dilində dərs deyən müəllimlər olmadığı üçün seminariyanın Azərbaycan şöbəsi Azərbaycan şəhərlərinin birinə köçürülsün. 1906-cı il may ayının 18-də Şuşa müsəlman cəmiyyəti tərəfindən Nəcəfqulu Ağa Cavanşirovun rəhbərliyi ilə ziyalılar Qafqaz canişininə seminariyanın tatar şöbəsinin Şuşa şəhərinə, Nuxa ziyalıları Nuxa şəhərinə köçürülməsini xahiş edirdilər. Hələ ondan bir il əvvəl 1905-ci il dekabrın 25-də Qori Müəllimlər Seminariyasının tələbəsi Xudad İsabəyov seminariyanın Azərbaycandan uzaqda yerləşməsini, oraya gedib-gəlməyin çətin olmasını əsas tutaraq Azərbaycan şöbəsinin Qutqaşen (indiki Qəbələ) şəhərinə köçürülməsi məqsədilə Qafqaz canişinliyinə müraciət etmişdi. Lakin bu təşəbbüslərin heç biri həyata keçmədi,

Azərbaycan ziyalılarının arzuları reallaşmadı. Qafqaz canişini bu müraciət və xahişnamələri rədd etdi.

Beləliklə, A.O.Çernyayevskinin başçılığı ilə azərbaycanlı ziyalıların Azərbaycan şöbəsini ayrıca Azərbaycan müəllimlər seminariyasına çevirmək uğrunda mübarizəsi müvəffəqiyyətsizliklə nəticələndi.

XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi hadisələr, pedaqoji hərəkatın güclənməsi Qori Seminariyasının Azərbaycan şöbəsinin köçürülməsini və ya Azərbaycanda yeni seminariyanın açılmasını gündəmə gətirdi. 1905-1907-ci illər inqilabı çar hökumətini maarif sahəsində də bir sıra güzəştlərə getməyə məcbur etdi. Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələri Azərbaycan şöbəsini Zaqafqaziyanın istənilən bir müsəlman şəhərinə köçürməyi Qafqaz canişinliyindən xahiş etdilər.

Mətbuatda bu məsələ yenidən diskussiya predmetinə çevrildi. F.Köçərli «Bir darülmüəllimin kifayətdirmi?» adlı məqaləsində göstərirdi ki, Qori Seminariyasının Azərbaycan bölməsi üçün 1906-cı ildə ayrılmış 5 yerə 50-dən artıq adam ərizə vermişdir: «Əlli nəfər uzaq yerdən zəhmət çəkib imtahana gələn elm və kamal təşnəli cavanların ancaq beş nəfəri... şöbəyə götürülüb, yerdə qalan qırx beş nəfəri naəlac evlərinə gərək müraciət etsinlər» [36]. Qəribə haldır ki, elm və bilik axtaranlar elm və bilikdən məhrum olurlar. Bu isə böyük zülm və ədalətsizlikdir. Bu ona bənzəyir ki, aclara yemək, susuzlara su verməyib, məhrum edəsən. F.Köçərli bu vəziyyətdən qurtarmaq üçün yol da göstərdi: «Ona görə lazımdır ki... özgə bir darülmüəllimin açılmasına səy edək» [36]. F.Köçərli yazırdı: «Seminariyanın tatar (Azərbaycan) şöbəsi otuz ildir ki, müsəlman mərkəzindən kənar bir şəhərdə qalıbdır, onu müsəlman şəhərlərinin birinə gətirmək lazımdır» [53].

Yeni müəllim seminariyalarının açılmasını tələb edən F.Köçərli burada pedaqogika, psixologiya fənlərinin əsaslı keçirilməsini, müəllimlərin nəzəri hazırlığını yüksəltməyi vacib məsələ kimi irəli sürürdü. O dövrdə müəllim hazırlığını həyata keçirən təhsil müəssisələrini tənqid edərək yazırdı: «Onlarda pedaqogika elminə dair və təlimat işlərinə mənsub məlumat verilməyib» [34, 203].

F.K.Köçərlinin fikirlərini dəstəkləyən N.Satirov «Tatar müəllimlər seminariyası harada olmalı?» məqaləsində seminariyanın Şamaxıya, Göyçaya, Gəncəyə və ya Nuxaya köçürülməsi məsələsini təqdir edərək yazırdı: 1) müsəlman əhalisi üçün mərkəz məntəqə olsun; 2) iqliminə və şəraitinə görə məktəblilərə uyğun olsun; 3) seminariyanın tədris məqsədi ilə kifayət qədər torpağı olsun. Burada pambıqçılıq, bağçılıq, ipəkçilik üçün şərait yaradılsın; 4) yol və rabitə rahat olsun [53].

Seminariyanın Azərbaycana köçürülməsi ilə bağlı Ü.Hacıbəyovun da fikirləri maraq doğurur. O, yazırdı ki, Azərbaycan dilində savadlı müəllimlərimizə ehtiyac çoxdur, doğrudur, Qori Müəllimlər Seminariyası məktəblərimiz üçün müəllim hazırlayır, lakin oranı qurtaran müəllimlərin əksəriyyəti ana dilində dərs deməkdə çətinlik çəkirlər, çünki orada ana dili oxumurlar, onların proqramı ana dilində dərs vermək üçün tərtib edilməyib. Bunları nəzərə alan Ü.Hacıbəyov yazırdı ki, Qori Müəllimlər Seminariyası Zaqafqaziya müsəlman şəhərlərinin birinə köçürülsə yaxşı olar ki, o zaman ana dilində savadlı müəllimlərimiz çoxalar və maarif işimiz sürətlə irəli gedər.

N.Nərimanov dövrün mütərəqqi, yenilikçi müəllimlərinin işlərini təqdirə layiq hesab edirdi. O, bunların yeni tipli «rus-müsəlman» məktəbləri açıb gənc nəsli yeni ruhda tərbiyə etmələrini, xalqın ümumi tərəqqisi uğrunda mübarizə aparmalarını, ümumiyyətlə, o dövrdə maarif, məktəb, təlim və tərbiyə sahəsində nəzərə çarpan tərəqqini və onun səbəbkarlarının fəaliyyətini geniş təhlil edərək, belə müəllimlərin işinə yüksək qiymət verir. Müəllimlərin qurultayı ərəfəsində o, müəllimlər qarşısında konkret olaraq aşağıdakı vəzifələri qoyurdu:

- qurultayın məqsədini xalqa düzgün başa salmaq;
- müəllimlər arasında birlik yaratmaq;
- təlim-tərbiyəyə aid nöqsanları aradan qaldırmaq;
- yeni tədris proqramları tərtib etmək;
- ana dilində yeni dərsliklər yaratmaq;
- yeni tədris üsulları müəyyən etmək;
- müəllim kadrları hazırlığı məsələsini nəzərdən keçirmək

N.Nərimanovun fikrincə, hər bir millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqi tapması müəllimlərlə bağlıdır. Müəllim təkcə dərs verməklə kifayətlənməməlidir, ictimai-mədəni işlərdə fəal iştirak etməlidir [8, 41]. Onun məqalərində xalqın savadlanması və ümumi tərəqqisi üçün kütləvi kitabxana-qiraətxana açan, teatrın böyüklər üçün məktəb olmasını anlayıb bu işə artıq diqqət yetirən və bu məqsədlə yeni-yeni əsərlər yazan, qeyri-dillərdən tərcümələr edən müəllimlərin işi təqdirəlayiq hesab edilir. O, göstərirdi ki, ictimaiyyətçi müəllimlərin mədəni-kütləvi işləri xalqın ümumi tərəqqisinə kömək etdiyi kimi, müəllimlərin özlərinin fəaliyyət dərəcəsini də genişləndirir. O, müəllimlərin yalnız məktəb çərçivəsi ilə məhdudlaşan fəaliyyətini tənəzzül dövrü hesab edirdi. N.Nərimanov çox haqlı olaraq göstərirdi ki, müəllim «universitet nişanı ilə» deyil, əməli pedaqoji fəaliyyəti ilə özünü göstərməli və fərqlənməlidir.

N.Nərimanovun müəllim haqqında baxışlarında belə bir cəhət də özünü göstərir ki, müəllimlər xalqın ümumi tərəqqisinə çalışdıqları kimi, xalq da müəllimlərin fəaliyyəti ilə yaxından maraqlanmalı, onların başladıqları ictimai-kütləvi işləri müdafiə etməlidir.

N.Nərimanovun fikrincə, müəllim olmaq böyük səadətdir, lakin bu səadət xalq tərəfindən rəğbətlə qarşılandıqda, müdafiə edildikdə və qiymətləndirildikdə daha xeyirli olur.

N.Nərimanov müəllimdən tələb edirdi ki, o pedaqogikanı, təlim və tərbiyənin prinsip və üsullarını yaxşı bilsin. O göstərirdi ki, müəllim təlim və tərbiyə işində şagirdlərin fərdi xüsusiyyətlərini bir an belə nəzərdən qaçırmamalıdır.

N.Nərimanov müəllimləri ömrünü xalq yolunda, zəhmətkeş balalarının təlim və tərbiyəsi uğrunda fəaliyyət göstərməyə sərf etmiş pedaqoqlar kimi hərəkət etməyə çağırmışdı. O, müəllimlərdən uşağı sevməyi, ona böyük qayğı göstərməyi, pedaqoji işdə yaradıcı olmağı, daim yeni-yeni təlim-tərbiyə üsullarını axtarmağı tələb edirdi. Bunun üçün isə uşaqları və müəllimlik sənətini sevməyi lazım bilirdi. Nərimanovun fıkrincə, müəllim yalnız uşaqların müəllimi deyil, həm də özünün müəllimidir.

N.Nərimanov da Qori seminariyasının Azərbaycana köçürülməsi ideyasını dəstəkləyir, çar Rusiyasının bu sahədəki fəaliyyətini tənqid edirdi. Azərbaycan

şöbəsinin İrəvan seminariyasında deyil, Qori seminariyasında açılmasını çarizmin azərbaycanlılara olan mənfi münasibətinin nəticəsi kimi qiymətləndirirdi: «Qori əhalisi gürcüdən, ermənidən ibarət balaca şəhərdir... Qafqaz müsəlmanlarından bir fərd orada həmişəlik məskan etməyibdir» [46, 282].

Seminariyanın Azərbaycan şöbəsinin yaranmasından keçən 27 il ərzində (1879-1905) onun fəaliyyətini təhlil edən N.Nərimanov göstərir ki, seminariya iki səbəbə görə: 1) təlimin ana dilində aparılmamasına; 2) seminariyanı çox az adam bitirməsinə görə artmaqda olan məktəblərin ehtiyacını ödəyə bilmir. N.Nərimanov Qori Müəllimlər Seminariyasının fəaliyyətini hər iki məsələ üzrə təhlil edərək belə nəticəyə gəlir ki, Qori Seminariyası öz proqramında düzəliş edib əvvəlinci tələbimizi ödəyərək ibtidai məktəblərimiz üçün ana dilində dərs verən layiqli müəllimlər hazırlamağa qadir olsa da, ikinci tələbi, yəni oranı bitirənlərin sayının artması tələbimizi yerinə yetirə bilməz. Çünki Qori şəhərində oxuyan müsəlman uşaqları, əsasən, pansiona qəbul olunurlar. Seminariyanın pansionu isə ildə cəmi 40-50 nəfərdən artıq uşaq qəbul edə bilmir. N.Nərimanov yazırdı ki, hətta seminariyada bir ildə cəmi 40-50 nəfərin təlim almasına və bunlardan 10 nəfərinin məktəbi qurtarmasına sevinmək, şükür etmək lazımdır. Belə ki, ildə təxminən 6-7 müəllim hazırlanırdı. Bu isə bəs etmirdi. Kənd məktəbləri müəllimsizlikdən qapanırdı.

Məktəblərin artmaqda olan tələbəni nəzərə alan N.Nərimanov müəllimlərin sayını artırmaq üçün 2-3 seminariya açılmasını lazım bilir. Lakin xalq maarifi sahəsində çar hökumətinin siyasətinin mahiyyətini yaxşı başa düşən N.Nərimanov dövlətin nəinki üç, heç bir dənə də seminariya açmayacağını bilirdi. Ona görə də o da həmfikirləri kimi Qori Seminariyasının Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsini lazım bilirdi. O, yazırdı: «Qori seminariyasını bir qeyri müsəlman mərkəzi olan şəhərə köçürmək lazım gəlir. Qori seminariyasına altmış şagirddən artıq qəbul olunmur və Qoridə həmişəlik sakin olan müsəlman yoxdur. Müsəlman olmayan surətdə kənardan gəlib oxuyan da olmayacaqdır. Açıq deməli, Qori darülmüəllimin Bakıda, ya Gəncədə və qeyri bir müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində olarkən seminariyada elm təhsil etməyə mümkünləri

olacaqdır. Yəni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub axşamlar öz evlərinə gedərlər» [46, 254].

N.Nərimanov göstərirdi ki, seminariyanın Azərbaycan şəhərlərindən birinə köçürülməsinin çoxlu müəllim kadrlarının hazırlığı işinə kömək etməklə bərabər, qeyri məsələlərdə də xalqa böyük mənfəəti olar, yəni xalqın ümumi mədəni tərəqqisinə də təsir edər. O, Qori seminariyasının Azərbaycan şəhərlərindən birinə köçürülməsini və beləliklə də, müəllim hazırlığı vəziyyətini yaxşılaşdırmağı ümumxalq işi hesab edir, camaatın, şəhər duması üzvlərinin qeyrət göstərmələrini tələb edirdi. Xalqın ayılıb öz dərdinə əlac etməsini, qonşu millətlər kimi müəllimlərin sayını artırmağı və beləliklə də məktəb şəbəkəsini genişləndirməyi mühüm vəzifə kimi qarşıya qoyurdu.

Bu məsələni müzakirə etmək üçün Azərbaycan maarifpərvərləri-H.Zərdabi, N.Nərimanov, A.Şaiq, Ü.Hacıbəyov, M.Mahmudbəyov, F.Ağazadə, S.S.Axundov, Ə. Hüseynov Zaqafqaziyada müsəlman müəllimləri qurultayının çağrılmasının qızğın tərəfdarı idi. Onlar müəllimlərin öz aralarında təcrübə mübadiləsinə xüsusi əhəmiyyət verirdilər. Qurultay müəllimləri bir yerə yığmaqla yanaşı, həm də onların pedaqoji məharətinin artmasına kömək edən bir vasitə olmalı idi. Qurultayı hazırlayan və onun keçirilməsinə bilavasitə rəhbərlik edən müəllimlərin tərkibi aydın göstərir ki, qurultay Azərbaycan xalqının maarif tarixində çox böyük rol oynamışdır. Hələ qurultay başlanmazdan əvvəl görkəmli maarifçilərimizin bəzilərinin yazdıqları bir sıra məqalələr göstərir ki, onlar qurultayın qarşısında duran vəzifələri, müəllimin cəmiyyətdəki mövqeyini, millətin inkişafında onun rolunu yaxşı dərk edirdilər. N.Nərimanov «Həyat» qəzetinin 21 mart 1906-cı il tarixli sayında «Müsəlman müəllimləri yığıncağı münasibəti ilə bir neçə söz» məqaləsində ruhanilərə, ədiblərə, zənginlərə, oxumuşlara müraciətlə deyir: «Bakı müsəlman müəllimləri avqust ayında Bakıda, Qafqazda müsəlman müəllimləri üçün syezd düzəltmək fikrindədirlər. Bunlar bir yerə yığılıb düşünəcəklər, bir-birilə qonuşacaqlar. Ümumi bir proqramma düzəldib, ittifaq ilə iş görəcəklər... Həmən məclisdə millətin ümumi qüsurlarını diqqətə alıb, dərdimizə əlac arayacaqlar» [46, 255]. Ona görə də, bu fikri reallaşdırmaq üçün camaat tərəfindən hümmət, həmiyyət və qeyrət göstərilməsi, ruhanilərin bu haqda vəz etməsi, qurultaya hər məktəbdən heç olmasa bir müəllim

göndərilməsi, zənginlərin pul ilə kömək etməsi, mühərrirlərin bu məsələni öz qəzetlərində yazması tələb olunur.

Nərimanov müəllimlər qurultayı ərəfəsində xalqa müraciətlə deyirdi: «...Vətənin xoşbəxtliyi onun cavanlarının yaxşı tərbiyəsinə bağlıdır... Yaxşı tərbiyə isə insanın əqlini və əxlaqını gözəl, pak şeylər əxz etməyə öyrətməkdən, ürəyini və vicdanını pisliklərdən çəkindirməkdən ibarətdir. Gəncləri o meyillərə yönəltmək lazımdır ki, o, onlara tərəqqi versin. İnsanı tənəzzülə salan hər şeydən onları çəkindirmək lazımdır. Əqlin gücü ilə insan pis əməli yaxşıdan seçər, deməli insanın əqlini yaxşılığa doğru yönəltmək lazımdır.

Çağırılacaq müəllimlər qurultayına hazırlıq həmin ilin may ayından başlandı. Müəllimlər qurultayını hazırlamaq, qurultayda müzakirə olunacaq məsələləri nəzərdən keçirmək və qaydaya salmaq üçün xüsusi komissiya yaradıldı. Komissiyaya sədr Nəriman Nərimanov, katib Yusif Əfəndiyev, üzvlər Həsən bəy Məlikov, Həbib bəy Mahmudbəyov, Fərhad Ağazadə, Əlisgəndər Cəfərzadə seçildilər.

Bakı müəllimlərinin 21 may müşavirəsində müzakirə nəticəsində belə qərara gəlindi ki, Azərbaycan müəllimlərinin I qurultayı 1906-cı ilin avqust ayının 15-də Bakıda çağırılsın və bu qurultaya Qafqazın hər yerindən müəllimlər dəvət edilsin.

Qərarın ikinci bəndində Bakıdan kənarda olan müəllimlərə qurultayın müzakirə edəcəyi məsələlər haqqında məlumat verilməsi tövsiyə olunmuşdu. Üçüncü bənddə isə deyilir ki, əgər məclisə qeyri yerlərdən müəllimlər az gəlsələr də Bakı müəllimlərinin iclasını (qurultayını) ümumi hesab etsinlər və onun qətnaməsinə külli müəllimlər itaət etsinlər.

Mayın 23-də təşkilat komissiyasının növbəti iclası keçirilmişdir. Azərbaycan müəllimlərinin I qurultayını keçirmək istəyən komissiya işə çox ciddi yanaşırdı. Təşkilat komissiyasının üçüncü iclasında əsas məsələ olaraq məktəblərdə Azərbaycan dili proqramı ilə dərsliyin uzlaşması müzakirə edilmiş, qurultaya bu barədə lazımi material və məruzə hazırlanması tapşırılmışdı. Mayın 26-da keçirilən iclasda ibtidai məktəblərdə istifadəsi zəruri olan kitabların siyahısı müəyyən edilir, həmin kitabların alınması və müəllimlər qurultayının xərci üçün pul tapmaq məsələsi müzakirə olunur. Ciddi müzakirələrdən sonra aşağıdakı qərar çıxarılmışdır: «Nicat» cəmiyyətinə və

«Bakı cəmiyyət xeyriyyəsinə» aşağıdakı məzmunda ərizə verilsin. Gələcək müəllimlər iclasının tədarük və məsarifi, ibtidai məktəblərdə istifadəsi zəruri olan kitabları əldə etmək üçün pul və ianə cəm edilir, bunu binaən müəllimlər komissiyası «Nicat» cəmiyyətinə və «Bakı cəmiyyət xeyriyyəsinə» kəmal ehtiramla müraciət edərək rica edir ki, bu məsarifin bir hissəsini, yəni 3 yüz manatı «Nicat», 5 yüz manatı «Bakı cəmiyyəti xeyriyyəsi» öz öhdələrinə götürsünlər.

Təşkilat komissiyasının dördüncü iclası mayın 28-də yenə də N.Nərimanovun sədrliyi ilə keçirilmişdir. Burada qurultayın keçirilməsi proqramı və gündəliyi qəbul edilmişdir. Qurultaya hazırlıq komissiyasının N.Nərimanovun sədrliyi ilə 11 iclası keçirilmişdir. «Dəbistan» jurnalının 1906-cı il tarixli 8-ci sayında çap olunmuş Qafqaz müsəlman müəllimlər məclisinin məramnaməsində göstərilir ki, Qafqaz müsəlman müəllimlər məclisi Bakıda avqust ayının 15-dən başlanıb axırına qədər davam edəcəkdir. Məramnamənin ikinci bəndində göstərilir ki, məclisə dəvət olunur. Qafqaz qitəsindən cəmi şəhər və kənd müsəlman müəllimləri və elm ilahi müəllimləri dəxi buraya daxildirlər. Həmçinin o şəxslər ki, təlim-tərbiyə işlərinə məhəbbətləri vardır. Onlar dəxi məclisə dəvət olunurlar.

Qurultayın gündəliyinə 6 məsələ daxil edilmişdi ki, onlardan biri də kənd müəllimlərinin məişətinə və güzaranlarına dair məsələlərə baxmaq idi.

Azərbaycan müəllimlərinin I qurultayı 1906-cı ilin avqust ayının 15-də şəhər ikisinifli müsəlman məktəbinin binasında keçirilmişdir. Qurultayda Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstandan 60 nümayəndə iştirak etmişdir. Bunlardan 30 nəfəri Bakı şəhərindən, 20 nəfəri digər yerlərdən, 10 nəfəri isə maariflə maraqlanan şəxslər idi. Başqa yerlərdən gələnlərin çoxu elmi-ilahi və şəriət müəllimləri idi [53].

Bakı müəllimlərinin qurultay nümayəndələrinin yarısını təşkil etməsinə baxmayaraq, o dövrdə Bakı şəhərindəki müəllimlərin sayını və qurultayın Bakıda keçirilməsini, həmçinin qurultay çağırmaq təşəbbüsünün məhz Bakı müəllimlərinə məxsus olmasını nəzərə alsaq 30 nəfər müəllimin iştirakını kifayət hesab etmək olmaz. Halbuki 1903-cü ilin məlumatına görə Bakı quberniyasında 1722 ibtidai məktəb [10, 71], 5 gimnaziya (iki qız, bir oğlan gimnaziyası, bir qız progimnaziyası, bir «Müqəddəs Nina» gimnaziyası) fəaliyyət göstərirdi [27, 98].

Göründüyü kimi, Bakı müəllimləri qurultayın işində heç də yaxşı təmsil olunmamışlar. Elə ona görə də «İrşad» qəzeti yazırdı: «Təəccüblü burasıdır ki, Bakı quberniyasının Salyan, Dərbənd, Göyçay kimi mərkəzlərindən dəmir yolu ilə 3 saatlıq yolu zəhmət çəkib gələn olmayıb. Lakin Araz nəhrinin (çayının) kənarından olan və adı heç bir dəftərdə yazılmayan Əlizadə kəndinin müəllimi təxminən 6 günlük yolu piyada gəlib özünü qurultaya çatdırdı» [27].

Qurultayı I rus-tatar (Azərbaycan) məktəbinin şəriət müəllimi Molla Ruhulla Axund Məmmədzadə açmış, islamın elmə münasibətindən danışmış və qurultayı təbrik etmişdir. Sonra H.Zərdabi, N.Nərimanov və b. nitq söyləmişlər. Qurultaya hazırlıq komissiyası (sədri N.Nərimanov idi) qurultayın hazırlığı, məqsədi, keçirilən iclaslar, qəbul olunan qərarlar haqqında geniş məruzə etmişdir.

Qurultayın sədrliyinə H.Zərdabi, onun müavinliyinə isə N.Nərimanov, ona köməkçi kimi S.Acalov, katibliyə isə F.Ağayev seçilmişdir. Qurultayın gündə iki iclası keçirilmişdir.

13 gün müddətində keçən (avqustun 15-dən 28-nə kimi) qurultaya ayrı-ayrı təşkilatlar, cəmiyyətlər, tanınmış şəxslər təbrik teleqramları göndərmişdi. Tiflisdən Zaqafqaziya Şeyxülislamı və müftisi, Qoridən Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin inspektoru S.M.Qənizadə, Şuşadan Ə.Ağayev və doktor Mehmandarov, Pyatiqorskidən məşhur yazıçı Talıbov, Ağdamdan M.Behbudov, Zaqatalanın Qax kəndindən müəllim H.Sultanov, Kazan müəllimlərindən Zaburov, Şərifov, Hənifəyev teleqram göndərənlərin siyahısında idi [15, 59].

Qurultayın ilk iclasında ibtidai məktəb proqramlarını nəzərdən keçirərək onu müzakirəyə təqdim etmək üçün üç komissiya təşkil olundu. İkinci iclasda Krım müəllimlər qurultayının nümayəndəsi olmuş A.Əfəndiyevin məlumatı dinlənildi. Üçüncü iclasda (avqustun 17-də) yeddi məsələ müzakirə olundu ki, bunlar da xarici ölkələrə təhsil almaq üçün tələbələrin göndərilməsini, orta məktəbin açılmasını, dil məsələlərini və s. əhatə edirdi. Qurultayın müzakirə etdiyi məsələlər içərisində müəllimlərin sosial vəziyyəti ilə bağlı F.Ağayevin məruzəsi ciddi diskussiyalara və müzakirələrə səbəb oldu. O, «Kənd şkola müəllimlərinin ehtiyacları» mövzusunda

etdiyi məruzədə müəllimlərin ehtiyaclarını iki yerə ayırırdı: 1) müəllimlərin maddi ehtiyacı; 2) müəllimlərin mənəvi ehtiyacı. O, müəllimlərin sosial vəziyyətinin ağırlığından, maddi ehtiyaclarının çoxluğundan, əmək haqlarının həddən artıq az olmasından, güclə yaşamalarından danışaraq qeyd etdi ki, müəllimlər onlara verilən az maaşlarını da vaxtı-vaxtında ala bilmirlər. Bəzən maaş almaq üçün 180 km yol gedirlər. Aldıqları 30 manat isə onların dörd günlük yol xərcini ödəmir. Misal olaraq Zəngəzur qəzasının məktəbləri göstərilirdi: orada elə məktəb var ki, onunla xəzinənin arası 180 verstdir.

F.Ağazadə müəllimdən tam və geniş bilik verməyi tələb edirdi. O, göstərirdi ki, müəllim yalnız dərslikdə yazılanla kifayətlənməməli, uşaqların yeni öyrədilən mövzunu aydın başa düşmələri üçün onlara ətraflı məlumat verməlidir. Müəllim hər mövzunu keçərkən müəllimlik məharətini nümayiş etdirməlidir. Müəllim şagirdlərin məhəbbətini qazanmalı, təkcə məktəbdə deyil, hər yerdə böyük nüfuz sahibi olmalıdır.

F.Ağazadə bütün müəllimlərə təcrübə mübadiləsi aparmağı, öz işində müvəffəqiyyət qazanan yoldaşlarının iş üsullarını öyrənməyi məsləhət görürdü. O, H.Zərdabinin müəllimlik məharətini nümunə göstərir, onun təlimdə müvəffəqiyyət qazanmasının səbəblərini izah edərək yazırdı: «Şagirdlərin kitabında qeyd olunan dərslərə kifayət etməyib, Həsən bəy çox məsələləri əlavə öyrədirdi. Böylə ki, onun üsulu çox vaxt dərsi «xitabə» vasitəsilə keçmək idi. Bu üsuldan uşaqlar çox məlumat kəsb edirdilər. Ona görə mərhum Həsən bəy müsəlman, rus şagirdləri arasında ümumi sevgili müəllim olmuşdur».

S.M.Qənizadəyə görə, müəllimlik dünyanın ən vacib peşələrindən biri, bəlkə də birincisidir. Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz. Həqiqi müəllim var-dövlət, cah-cəlal, şan-şöhrət haqqında düşünməməlidir. Əgər düşünərsə, «nisbi lənət olar», müəllimin «evi kitabxanadır, dövləti kiçik şagirdlərdir, müxəlləfatı qara məktəb mizləridir, sözü, nəğməsi şagirdlərin sədasıdır, istirahəti dəftərlərin təshihi, qazancı isə millətin məhəbbət və etimadıdır». S.M.Qənizadə «Müəllimlər iftixarı» [37, 23-24] adlı məqaləsində yazırdı ki, «Dünya müəllimsiz dolanmadıqda müəllimlər təsəllütündə neft zavodları ola bilməz, çünki

mütəməvvil firma sahibi hərgiz müəllimliyə yaramaz…Tacir ticarətdə və ya sənətkar sənətində müəllimlik sevdasına düşər olsa, qəbahət görünür, hakəza müəllim məktəb lövhəsinin müqabilində hərgah mürəkkəb şüşəsinə baxıb vapor və ya neft quyusunun quyğusun çəkər olsa, lənət aparar. Müəllimin evi məktəbxanadır, müəllimin nökəri məktəb mülazimidir, müəllimin təvabe və ətbari cociq-şagirdlərdir, müəllimin müxəlləfatı qara-qura məktəb mizləridir, müəllimin sazı nəğməsi məktəb şagirdlərinin sədasıdır, müəllimin istirahəti dəftərlər təshihidir. Müəllimin mal və mətai dərs və təlimdir, müəllimin kəsb və icrəti öz millətinin məhəbbət və iradətidir. Mənim rəy və təsəvvürümə görə, müəllim dediyimiz zad mərifət külbəsinin dərbanı və nicat yolunun rəhbəridir. Elə rəhbər ki, məktəbxana astanasında hidayət məsələsi sancıb əbnayi – ruzigar xidmətinə gecə və gündüz amadə dayanarkən, hər bir təvəllayə gələn körpə üçün zəngin təlim qapısını ibadət zoru ilə açıb nicat yolunu nişan verir». S.M.Qənizadə ustad müəllimlərə yüksək qiymət verərək deyirdi ki, hünərli ustad xam dəmirdən səbrlə Misri  qılınc yapa bilərsə, yaxşı müəllim kəctəpə millətdən xoş əxlaq cəmiyyət hazırlaya bilər [89, 30]. O, müəllimlik peşəsini həm şərəfli, həm də çətin peşə hesab edərək yazırdı: «İnsafən müəllimlik təklifi ağır təklifdirsə, müəllimlik şəni həm şəndir. Müəllimlik hər bir əsrdə ağır olubsa, bu əsrimizdə dahaca ağırraqdır! Əsrimiz bir əsrdir ki, gündüzlər qiraət, gecələr kitabət müəllimlər üçün din borcudur» [89, 31].

Azərbaycan müəllimlərinin I qurultayında müəllimlərin maddi ehtiyacları ilə bağlı məruzə və çıxışlarını ümumiləşdirməli olsaq aşağıdakı nəticələrə gələ bilərik:

1) Bəzi kəndlərdə yerli əhalinin aldadılaraq məktəb açdırılması, oraya ana dilini bilməyən müəllimlərin göndərilməsi;

2) Müəllimlərin əmək haqqının ölkədə əmələ gələn bahalılığa uyğun gəlməməsi;

3) Əvvəllər hökumətin açdığı məktəblərdə xərc dövlət xəzinəsindən ödənilirdi, müəllimlər məvacibini heç bir çətinlik çəkmədən, vaxtı-vaxtında oradan alırdılar. Məktəb xərcinin yerli əhali tərəfindən ödənilməsi, camaatdan xüsusi məktəb vergisi yığılması ilə bağlı dövlətin təhsil siyasətinin millətin mənafeyinə uyğun gəlməməsi;

4) Məktəb üçün yığılan «adı var, özü yox» pulların kilsə tikməyə, faydasız məmurlara, polis işçilərinə xərclənməsi;

5) Yerli əhalidən zorla əhdnamələrin («mirski priqavorlar») alınması, onların hesabına məktəb binalarının tikilməsi, elə ona görə də həmin məktəblərdən əhalinin faydalana bilməməsi, müəllimlərin halının gündən-günə ağırlaşması.

Azərbaycanda təhsilin inkişafında mühüm xidmətləri olan I qurultay müəllim hazırlığını geniş müzakirə etdi və aşağıdakı qərarı çıxarıb məktəblərə göndərdi.

1) Təxirə salınmadan Qori seminariyası Azərbaycan şəhərlərindən birinə köçürülsün;

2) Azərbaycan dilinin tədrisi məcburi fənn olsun;

3) Azərbaycan müəllimlərinin hüquqları qeyriləri ilə bərabərləşdirilsin;

4) Azərbaycan dili dərsliklərinin sayı artırılsın;

5) Müəllimlərin təyin olunması və işdən çıxarılması xalqın ixtiyarına verilsin [6, 26].

Azərbaycan müəllimlərinin II qurultayı 1907-ci ildə Gəncədə çağrılması nəzərdə tutulsa da, 1907-ci ilin 25 avqustundan 5 sentyabrına qədər Bakıda keçirilməsinə icazə verildi [6, 44].

I qurultayda müzakirə edilmiş Azərbaycan dili müəllimlərinin başqa müəllimlərlə hüquq bərabərliyi, müəllimlər ittifaqının təşkili, rus-tatar məktəblərinə ana dili müəllimlərinin imtahan yolu ilə götürülməsi, müəllimlərin pedaqoji-metodik hazırlığı yenidən müzakirə olundu. Qurultayda müəllimlər ittifaqının nizamnaməsi də qəbul edildi. Azərbaycan müəllimlərinin II qurultayının keçirilməsində Ə.Hüseynzadə, M. Mahmudbəyov, F.Ağazadə, H.Mahmudbəyov, S.Axundov, M.Əfəndiyev, A.Vəlibəyov və b. xüsusi fəaliyyət göstərdilər. Həm II qurultayda, həm də Rusiya müsəlmanlarının qurultaylarında müəllimlərin hazırlığı məsələsinə xüsusi önəm verilirdi. Müsəlman məktəblərinə müəllimlər hazırlamaq üçün müsəlmanlara məxsus müəllim məktəblərinin (seminariyalar) təsis edilməsi, qadın müəllimələri hazırlamaq üçün Kazan, Bakı və Bağçasarayda Müəllimlər seminariyasının açılması vacib hesab olunurdu.

Müəllim kadrları hazırlığı ilə bağlı M.Ə.Rəsulzadənin fikirləri də maraq doğurur. Məktəblərin sayının azlığının başlıca səbəblərindən birini müəllim kadrlarının yox-luğunda görən M.Ə.Rəsulzadə xalqı elmə, dərsə rəğbətsiz, meyilsiz hesab edənləri tənqid edir, göstərirdi ki, hər yerdə məktəblər açılır, elm və mərifətə olan meyl artır,

ancaq «ana dilini tədris etməyə müqtədir olub və qanunca həqqi-tədrisə malik olan və pedaqoji nöqteyi-nəzərdən hazırlığı olan tapılmıyor» [63]. Bütün Qafqaza müəllim kadrları hazırlamaqdan ötrü Qori seminariyası kifayət deyil, mütləq müsəlmanlara məxsus yeni seminariyalar açılmalıdır. Unutmaq olmaz ki, «bütün millətlərin səadətini və istiqbalını təmin edən müəllimdir». Buna görə də M.Ə.Rəsulzadə müəllimlərin qarşısında bir sıra tələblər qoyurdu. Bu tələblərdən ən başlıcası milli tələblər idi. Yəni müəllimlər ilk növbədə xalqın dilinə, adət-ənənəsinə və və ruhuna bağlı insanlar tərbiyə etməlidir. Yoxsa özündən bixəbər «uçitellərdən» xalqa nə fayda ola bilərdi. O cür «uçitellərdən» də yarımçıq «uçeniklər» əmələ gələcəkdi. «Müəllim uşaqlarına dərs verdiyi xalqın dilinə, adətinə açina və onu sevər ruhlu və fəal bir xadim olarsa, ancaq o zamandır ki, naqis də olsa, bizi tərbiyəyə mədar olan rus–müsəlman məktəblərindən faidə görəcəyiz. Yoxsa ortadakı kəndiliyindən bixəbər «uçitellər»dən yarımçıq «uçenik»lərdən başqa bir şey gözləmək əbəsdir» [1].

A.Səhhətə görə, müəllim geniş dünyagörüşünə malik olmalı, dövrün ictimai siyasi hadisələrindən baş çıxarmalı, xalqla daim ünsiyyət saxlamalı, məktəb və maarif işini yaxşılaşdırmaq üçün «hüquqi» vəzifələri onlara başa salmağa çalışmalıdır. A.Səhhət mövcud siyasi vəziyyət haqqında xalqa xəbər verməyi, təbliğat işləri aparmağı müəllimlər qarşısında mühüm bir vəzifə kimi qoyurdu. A.Səhhət təlim prosesində müəllim və şagirdləri vəhdətdə götürdüyündən onu təkcə müəllim fəaliyyəti ilə məhdudlaşdırmayıb, bu işdə şagirdlərin də fəallığını tələb edirdi. O, elmlərə yiyələnmək, gələcəkdə kamil şəxs olmaq üçün səylə çalışmağı əsas şərt sayırdı. A.Səhhətə görə elm yolu çox çətindir. Ona görə də elmə sahib olmaq istəyən hər bir şəxs məktəbə getməli, əmək sərf etməli, çalışmalı, tər tökməli, çətinlikdən qorxmamalıdır. Həqiqi insani keyfiyyətlərə malik, elmli, qabiliyyətli «Böyük insan»lar yetişdirməyi o bu cür təsəvvür edirdi.

M.Mahmudbəyovun pedaqoji irsində müəllim hazırlığı məsələləri xüsusi yer tutur. O, məktəblərin tərəqqi etməməsinin əsas səbəblərindən birini yeni məktəblərdə işləyə biləcək müəllimlərin yoxluğu ilə əlaqələndirirdi. M.Mahmudbəyov məktəbdə dərs deyən müəllimi əsl sima hesab edir, müəllimin savadlı, hazırlıqlı olmasını tərəqqinin mühüm şərti hesab edərək yazırdı: «Müəllimdən biri isteddalı, fəal, işini

bilən, digəri isə dərs var imiş, məktəb tərəqqi istərmiş, şagirdlər vaxt tələf edərlərmiş, məktəbə xəyanət və millətə ihanət olur imiş kimi mənaları bir dəqiqə böylə etibarinə almayıb düşünməz, hər dərsini əhəmiyyətsizcə yalnız yazı oxumaq, yalnız ləfs öyrənmək surətində dərsləri kitab üzü ilə gütah edirsə məktəb tərəqqi etməz» [38]. M.Mahmudbəyov müəllimlərin öz aralarındakı münasibətlərinin şagirdlərin tərbiyəsinə böyük təsir etdiyini qeyd edirdi. O, göstərirdi ki, müəllimlər bir-biri ilə səmimi rəftar etməli, bütün davranışları ilə dərs dedikləri şagirdlərə nümunə olmalıdırlar. Bir–biri ilə ədavət, çəkişmə aparan müəllimdən şagirdlər nə götürə bilər» [38].

H.Cavid müəllimlərə valideynlərin də kömək etməsini zəruri sayırdı. Çünki onun fikrincə, ailə tərbiyəsi və bədənin sağlamlığı həyati-bəşəriyyətin əsasını təşkil edir. Övladın sağlam olması ata və analardan asılıdır. Uşaqlara sirayət edən xəstəliklərdən ən dərin fəlakətlərə yol açan analardır. Cocuq tərbiyəsinə diqqət vermək üçün tərbiyə görmüş analar lazımdır. Bəs belə isə hanı ana yetişdirəcək məktəblərimiz? Vətəni, vətənin qiymət və əhəmiyyətini, tərəqqi və səadətini kimdən gözləyə bilərik? Beli bükülmüş, ətalətə uğramış ixtiyarlardanmı? Bir parça laqeyd, laübali gənclərdənmi? Yaxud saf, təmiz, məsum, ləkəsiz qızlardanmı?

H.Cavidə görə, müəllim öz mənəviyyatını, özünü, təsfiyə və islaha çalışmalıdır. Belə olduqda onun dediyi sözlərin, verdiyi nəsihətlərin faydası ola bilər. Hər söz sahibinin sözü ilk öncə ruhu və vicdanı ilə uzlaşmalıdır. Ürəkdən gələn sözlər ürəyə nüfuz edə bilir. Deməli, sözün təsiri olması üçün söz deyənin təmiz qəlbə, parlaq vicdana, gözəl əxlaqa malik olması vacibdir. Müəllimin hər sözü, hər duruşu, bütün şagirdlərə ciddi təsir göstərir. Müəllim öz sözü və nüfuzu ilə təkcə şagirdləri tərbiyə etmir, o, başqalarına da təsir edir. Çünki indi bizim yalnız məktəblərimiz deyil, bütün ictimai həyatımız belə saf, parlaq bir tərbiyəyə möhtacdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində yetişən Azərbaycan müəllimləri xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir, onlara milli-mənəvi dirlik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli xilas, qurtuluş, ictimai azadlıq və mübarizə savadı öyrətmək istəyirdilər. Milli hərəkatın tərkib hissəsi kimi pedaqoji hərəkat o dövrdə geniş intişar tapmışdır ki, burada da ağırlıq bütövlükdə milli ziyalıların – müəllimlərin üzərinə düşürdü. Milli məfkurəyə malik müəllim kadrların

hazırlanması, onların elmi-pedaqoji və metodik hazırlığının yüksəldilməsi məqsədilə milli maarifçilər planlı və məqsədyönlü xeyli iş görmüşdür.

## 2.2. Azərbaycan maarifpərvərlərinin yeni məktəb uğrunda mübarizəsi

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərinin həll etməyə çalışdıqları pedaqoji problemlər içərisində təlimin ana dilində aparılması, müəllim hazırlığı, təlimin məzmunu və metodu, tərbiyənin məqsədi və vəzifəsi, öyrənilməsi vacib olan elmlərlə yanaşı, yeni məktəblərin yaradılması xüsusi aktuallıq kəsb edirdi. Yeni məktəb uğrunda mübarizə Azərbaycan maarifpərvərlərinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Yeni üsullu məktəblər yaratmadan xalqın maarifə olan ehtiyacını ödəmək olmazdı.

Bu dövrdə Azərbaycanda əhalinin böyük əksəriyyəti təhsildən kənarda qalmışdı. XX əsrin əvvəllərində Bakı quberniyasında savadlı kişilər 11,1 faiz, savadlı qadınlar 3,8 faiz, Yelizavetpol (Gəncə) quberniyasında savadlı kişilər 7,3 faiz, savadlı qadınlar isə 1,7 faiz təşkil edirdi [66]. Bu rəqəmlər o dövrdə Azərbaycanda əhalinin təhsil səviyyəsinin aşağı olmasından xəbər verir. Bir faktı qeyd edək ki, bu rəqəmlər yalnız dünyəvi məktəblərdə təhsil alanları əhatə edir. Halbuki o dövrdə həm Azərbaycan, həm də Azərbaycandan uzaqlarda yüksək mədrəsə təhsili görmüş xeyli insanlar vardı. Çar hökuməti hesablama apararkən məktəb və mədrəsə bitirənləri nəzərə almırdı. Faktlara diqqət yetirək: Qafqaz Təlim Dairəsinin 1900-cü ilə olan məlumatına görə, Azərbaycanda 172 ibtidai məktəbdən 91-i Yelizavetpolda (Gəncə), 81-i Bakı quberniyasında idi. Yelizavetpol quberniyasının ibtidai məktəblərində təhsil alan 6303 uşaqdan 1407-si, Bakı quberniyasında isə 8107 uşaqdan 1239-u azərbaycanlı idi. QTD üzrə fəaliyyət göstərən 1621 ibtidai məktəbdə təhsil alan 122815 şagirddən 4124-ü azərbaycanlı idi. Qafqaz üzrə fəaliyyət göstərən 157 xüsusi ibtidai məktəblərdə oxuyan 8265 şagirddən 192-si, Qafqaz üzrə 45 şəhər məktəblərində oxuyan 13073 uşaqdan 715-i (5,5%) azərbaycanlı idi [62, 69].

1902-ci ildə ibtidai məktəblərin sayı nisbətən artdı. Həmin dövrdə Bakı və Yelizavetpol quberniyasında 230 ibtidai məkəb fəaliyyət göstərirdi [62, 70]. Onlardan

135-i Yelizavetpol quberniyasında idi. Bu məktəblərin 39-u ikisinifli, 96-sı birsinifli məktəb idi. Burada təhsil alanlardan 23,5 faizi (8761 şagirddən 2062-si) azərbaycanlı idi. Bakı quberniyasında olan 95 ibtidai məktəbin 8-i ikisinifli, 87-si isə birsinifli idi. Təhsil alan şagirdlərdən 25,5 faizi (6197 şagirddən 1581-i) azərbaycanlı idi.

1903-cü ilin məlumatına görə, Yelizavetpol (Gəncə) quberniyasında 871557 nəfər yaşadığı halda burada 102 məktəb fəaliyyət göstərirdi. Deməli, 8544 nəfərə bir məktəb düşürdü. Bakı quberniyasında da vəziyyət acınacaqlı idi. Çar maarif məmurları özləri də azərbaycanlılar arasında təhsilin aşağı səviyyədə olmasını yazırdılar. Mənbələrdə göstərilir ki, Gəncə quberniyasında ibtidai təhsilin vəziyyəti acınacaqlıdır. Burada rus əhalisinin hər 660 nəfərinə bir məktəb, erməni əhalisinin hər 380 nəfərinə bir məktəb, azərbaycanlıların isə hər 12000 nəfərinə bir məktəb düşür. Quberniyalarda əhalinin böyük əksəriyyəti kənddə yaşadığından burada az sayda açılan məktəblər xalqın maarifə olan tələbatını ödəmirdi. O zaman məktəblər üç mənbə əsasında-dövlət xəzinəsi, kənd camaatının vəsaiti, Zemstvo vəsaiti hesabına açılırdı. Dövlətin maliyyə vəziyyəti pis olduğundan birinci mənbəyə ümid bağlamaq olmazdı. İkinci mənbədən də 7420 manat pul toplanırdı (Bakı quberniyası üzrə) ki, onunla da məqsədə çatmaq qeyri-mümkün idi. Çünki kənd camaatı çox yoxsul idi. Məktəbin fəaliyyət göstərməsi isə kəndlilərin maddi durumundan asılı idi. Vəsait toplanarkən müxtəlif maneələrə rast gəlinirdi. Nəticədə pul yığılmayanda məktəb və müəllimlər pis vəziyyətdə qalırdılar. Belə olduqda kənd camaatı məktəbin dövlətin hesabına keçməsini tələb edir, yaxud da «məktəb bizə lazım deyil, özümüzü ancaq dolandırırıq» - deyib uşaqlarını məktəbə göndərmirdilər. Belə olduğu halda təbii ki, məktəblər öz-özünə bağlanırdı. Ona görə də 1903-1905-ci illərdə açılacaq məktəblərin xərcini zemstvo hesabına keçirmək istəyirdilər.

Bakı quberniyasında təhsilin vəziyyətini öyrənmək baxımından Bakı quberniyası və Dağıstan vilayəti Xalq Məktəbləri Direktorunun QTD-nin popeçitelinə 10 mart 1905-ci il tarixdə yazdığı məktuba diqqət yetirək: «Məktəb yerli şəraitdən və yerli camaatın dünyagörüşündən asılı olan məhəlli iş deyildir. Məktəb ümumxalq və dövlət işidir. Buna görə də məktəb üçün vəsait Zaqafqaziya ölkəsi torpaq gəlirindən ayrılmalıdır. Ancaq son illərdə həmin torpaq gəlirindən Bakı

quberniyasının 23 məktəbi üçün cəmi 15900 manat pul ayrılmışdır. Bu vəsait çox azdır. Ona görə də məktəblərin yaşaması və yenilərini açmaq üçün əlavə məbləğ ayrılmalıdır [5]. Çar hökumətinin Azərbaycanda təhsilin inkişafına biganə yanaşmasının nəticəsi idi ki, bəzi açılan məktəblər möhkəmlənməmiş, bağlanmaq təhlükəsi ilə üzləşirdi. Qafqaz Təhsil Dairəsi üzrə 1899-cu ildə 15 xüsusi, 14 dövlət ibtidai məktəbi, 1900-cu ildə 12 xüsusi, 9 dövlət ibtidai məktəbi, 1901-ci ildə 8 xüsusi və 4 dövlət ibtidai məktəbi [66, 63-64] bağlanmışdı. 1903-cü ilin 12 iyununda Şamaxıda məktəblər komissiyasının iclası keçirilmişdir. Həmin iclasda rus-tatar məktəblərinin vəziyyəti müzakirə olunmuşdur. Komissiya üzvlərindən bəziləri şagirdlərin sayının az olmasını bəhanə gətirərək həmin məktəblərin birləşdirilməsi fikrini irəli sürmüşdülər. «Kaspi» qəzeti bu tendensiyanın çox qorxulu bir şey olduğunu yazaraq, bunun ancaq maarifə ziyan vuracağını bildirir: «Qoy bu məktəblərdə şagirdlərin sayı 20-30 olsun, bunun eybi yoxdur. Bu, məktəblər komissiyasını narahat etməməlidir. İndi şagirdi az olan məktəblər illər keçdikcə müsəlman əhalisi arasında nüfuz qazana bilər. Cəmi bir neçə il əvvəl ilk rus-tatar məktəbləri açılanda burada 70-80 uşaq oxuyurdu. İndi rus-tatar məktəbi vardır ki, buranın 26 bölməsində 700-800 şagird təhsil alır [30].

R.Əfəndiyev «Təlimi-ümumi» məqaləsində yazırdı: «Bir diqqət edəlim təlimi-ümumi məsələsinə. Bu məsələ ən ümdə məsələlərdən birisidir, hər bir dövlətin tərəqqi və talesi, təlimi-ümumiyə bağlıdır. Elm, maarif, sənaye, hünər hanımısı təlimi-ümuminin nəticəsidir. Camaat yaxşı bilir ki, təlimi ümumi olmayan bir dövlətdə nə hürriyyət, nə ədalət, nə də müsavat ola bilməz» [11].

Aydındır ki, ümumi təhsilin xalqın tərəqqisində, mədəniyyətinin inkişafında, öz hüquqları uğrunda mübarizə aparmasında, azadlığa qovuşmasında müstəsna əhəmiyyəti vardır. Qabaqcıl pedaqoq çar hökümətinin inqilab nəticəsində hazırladığı «ümumi-təlim» qanun layihəsini tənqid edərək göstərirdi ki, yeni məktəblər xalqın hesabına yox, dövlətin hesabına açılmalıdır. İbtidai təhsil məcburi olmalı və təhsil müddəti uzadılmaqla bütün məktəb yaşlı uşaqları əhatə etməlidir. Rəşid bəy Əfəndiyevin ümumi təlimlə bağlı gəldiyi qənaətlər belə idi: 1) təlimi-ümumi məcburi olmalıdır; 2) məktəblərin bütün xərcini xəzinə (dövlət) verməlidir; 3) məktəb üçün

xərc olunan pulların miqdarı kifayət dərəcədə artırılmalıdır; 4) alınan məbləğ millətin sayına görə olmalıdır; 5) məktəblərə sərf olunacaq məbləğ zemstov olaraq və zemstov olmayan yerlərdə mərkəzi yerli komitələrə tapşırılmalıdır; 6) ibtidai məktəblər dörd illik olmalıdır; 7) hər iki şöbədə bir müəllim çalışmalıdır; 8) ibtidai məktəblərdə ümumi təlim ana dilində olmalıdır [12].

M.Mahmudbəyov yazırdı: «Biz çalışdıq ki, mütərəqqi pedaqoji prinsiplər əsasında yeni məktəblər açılsın. Yeni məktəblər xalqımızın inkişafına, onun tanınmasına, dilinin, ədəbiyyatın, maarif və mədəniyyətinin şöhrətlənməsinə kömək edər».

Milli məktəblərlə bağlı Ü.Hacıbəyovun fikirləri də konseptual xarakter daşıyır. O, yazırdı: «Bizə türk məktəbləri - milli məktəblər lazımdır. Mən milli məktəb ona deyirəm ki, orada bütün elmlər öz ana dilimizdə tədris olunur. Əcabə, biz müəllimlər öz ana dilimizi mükəmməl bilirikmi? Biz yazıqlar hansı məktəbdə öz ana dilimizdə oxumuşuq? O ki, qaldı milli məktəblərimizə onların sayı çox azdır. Bu məktəblər dəxi zəmanəyə müvafiq bir halda deyildir. Kəndlərdəki milli məktəblərimizin vəzifəsi əvvəla ana dilini uşaqlara mümkün qədər mükəmməl surətdə öyrətməklə bərabər rus dilini də ona təlim etdirməkdir. Rus dilini bilməmək kəndistan əhalisi üçün böyük bir müsibətdir» [21, 126].

C.Məmmədquluzadə yazırdı ki, məktəb ana yurdun şüurlu vətəndaşlarını və dövlətin sadiq təbəələrini hazırlamaq üçün bir növ laboratoriyadır. Məktəb eyni zamanda uşaqları cəhalətdə batıb qalanlar içərisindən çıxarıb ümumdünya mədəniyyəti ilə birləşdirəcəkdir. Məktəb uşaqların dilini açacaq, onları həyatın hər bir işində iştirak etməyə hazırlayacaqdır [39, 152-153].

Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultaylarında ciddi müzakirə predmetinə çevrilmişdi. Rus dövlətinin siyasətini həyata keçirən, müstəmləkəçi üsul-idarə və mülkiyyətçi quruluş üçün məmurlar yetişdirən məktəblər xalqın mənəvi tələbatını ödəmirdi. Bu, çarizmin milli müstəmləkə siyasəti ilə bağlı idi. O dövrdə milli məktəb, milli dərslik, milli tərbiyə problemlərini həll etməyə qadir ziyalılar nəsli formalaşdı. Milli mənafe uğrunda mübarizədə eyni platformada dayanan bu ziyalılar– N. Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, Ə. Ağayev,

Ə.Hüseynzadə, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, F.Köçərli, S.M.Qənizadə və b. müxtəlif cərəyanları təmsil edirdilər. Milli ziyalılar milli məktəbləri, maarifçiliyin, milli şüur təliminin müqəddəs idealı hesab edirdilər. Onlar yaxşı bilirdilər ki, məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi, hərəkat və fəaliyyət orqanı ola bilməz. Odur ki, üsuli cədid hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək vəzifəsi dururdu. Üsuli-cədid hərəkatı Krım tatarı İ.Qaspirinskinin adı ilə bağlıdır. O, Üsuli–cədid adlı ilk məktəbini Bağçasarayda 12 şagirdlə açmışdır [156, 155]. Üsuli-cədid hərəkatı qısa bir dövrdə Qafqazda, Orta Asiyada, Qərbi və Cənubi Azərbaycanda geniş yayıldı. Azərbaycan ərazisində «Nicat», «Səfa», «Səadət», «Nəşri-maarif» xeyriyyə cəmiyyətləri və qurultaylar şurası xeyli yeni üsullu məktəblər açdılar. Şərqdə ilk müsəlman qadın məktəbinin əsası qoyuldu. Azərbaycanda dünyəvi elmləri öyrədən ilk müsəlman qız məktəblərinin yaradılması görkəmli maarifpərvər, böyük nessanat «millət atası» H.Z.Tağıyevin adı ilə bağlıdır. 1896-cı ildə H.Z.Tağıyev Bakı Qubernatoruna məktubla müraciət edərək qız məktəbini açmaq istəyini bildirdi [76]. Təklifə rədd cavabı aldığından III Aleksandra müraciət etmək məcburiyyətində qaldı. Çar da onun bu arzusunun reallaşmasına imkan vermədi. Sonralar H.Z.Tağıyev Çarın arvadı Aleksandra Fyodrovnaya qiymətli hədiyyə göndərdi və açacağı məktəbə onun adına qoyacağını bildirdi. Yalnız bundan sonra Hacının istəyi reallaşdı. H.Z.Tağıyev ayrı-ayrı məmurlara yazdıqları məktubda bildirirdi ki, məktəbdə yalnız azərbaycanlı qızlar təhsil alacaq, əl işini, ev işini öyrənməklə yanaşı, rus və Azərbaycan dillərini öyrənəcəklər. Hər iki dili azərbaycanlı müəllimlər tədris edəcək. Burada təhsil müddəti 4 il nəzərdə tutulmuşdu. H.Z.Tağıyev çalışırdı ki, fanatik müsəlmanlar heç bir şaiyəyə uymadan öz qızlarını məktəbə göndərsinlər. Məktəbə heç kişilərin gəlməsi qəti qadağan idi. Hacı məktəb üçün yüz əlli min manat ayırmışdı. Binanın tikilməsi yüz əlli üç min beş yüz səksən üç manata başa gəldi. Onun fəxri qəyyumu məktəbin fonduna yüz iyirmi beş min manat pul keçirdi. O dövrdə «Kaspi» qəzeti yazırdı: «Məktəb memarlıq cəhətdən şəhərin gözü olacaqdır. Qızlar üçün hər cür şərait yaradılmışdır. Yataq otaqları, dərs otaqları, kitabxana, şəriət dərsi üçün ayrıca

otaq və məscid (məktəbin zalı məscid kimi düzəldilmişdi) məktəbin özünün xüsusi əsasnaməsi var idi. Bu əsasnaməyə görə:

1. Bakıda açılan məktəb Bakının birinci gildi sahibi Tacir H.Z.Tağıyevin kapitalı əsasında  yaradılır, məqsəd müsəlman qızlara təhsil verməkdir;

2. Məktəb Qafqaz Təhsil Dairəsinin nəzdində olub yerli xalq məktəbləri direktorluğunun da nəzdindədir. O, qapalı tədris–tərbiyə ocağı olmaqla, oraya yeddi yaşından az olmayan müsəlman qızlar qəbul olunurlar;

3. Məktəb öz proqramına görə Qafqaz Təhsil Dairəsinin ibtidai məktəblərinə uyğundur. Sinif nəzdində müsəlman ailələrinin tələbinə uyğun olan və ev işləri üzrə də məşğələlər keçirilir;

4. Bu məktəbdə təhsil müddəti dörd ildir [67].

Məktəb 1901-ci il oktyabrın 7-də açıldı. Açılışda H.Z.Tağıyev çıxış edərək dedi: «Bu məktəbin güşadı barəsində sizin bu növ izharir–zaməndi və məmnuniyyətinizin bu məktəbə olan məhəbbət və hissiyyatınız məni bais edir ki, gələcəkdə mən bir mərtəbə bu məktəbin imarətinin üstün bina edib vaxtilə bu məktəbi müsəlmanlar üçün ünasiyyə mədrəseyi rüşdiyyəsi qərar verim. Sizin bu növ himmətiniz mənim bu fikrimin əncamə gəlməyinin dəxi də təcilinə bais olacaqdır» [23, 78]. Məktəb sonralar beş illik, az sonra 6 illik oldu. Məktəbin ilk direktoru H.Zərdabinin həyat yoldaşı Hənifə xanım olmuşdur. H.Z.Tağıyev banka yüz min manat beş faizli qızıl pul verərək məktəbi seminariyaya çevirmək istəmiş, bu məqsədlə iki yüz iyirmi beş min manat pul keçirmişdir. Lakin baş verən ictimai-siyasi hadisələr onun bu istəyinin reallaşmasına imkan verməmişdir. H.Z.Tağıyevin bu təşəbbüsü bütün ziyalılar tərəfindən dəstəklənmiş, onun və məktəbin ünvanına təbrik teleqramları gəlmişdir.

1908-ci ilin məlumatına görə, Bakı quberniyasında məktəbyaşlı azərbaycanlı uşaqların 88%-i ibtidai təhsildən kənarda qalmışdı. Sonrakı illərdə ibtidai məktəblərin və orada təhsil alan şagirdlərin sayı nisbətən artdı. 1909-cu ildə ibtidai məktəbdə təhsil alan 18675 uşağın 250-si qız, 1910-cu ildə 25869 uşağın 634-ü qız, 1911-ci ildə 28200 uşağın 898-i qız idi.

1914-cü ildə Azərbaycanda fəaliyyət göstərən 942 məktəbdən 920-si ibtidai məktəb idi ki, burada da ümumilikdə 62786 şagird təhsil alırdı.

1903-cü ildə dövlət vəsaiti hesabına Lənkəran və Quba şəhərlərində şəhər məktəbləri açıldı. Bu məktəblərdə 168 şagird təhsil alırdı. Həmin dövrdə Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında ibtidai təhsil verən məktəblərlə bərabər, sənət məktəbləri də fəaliyyət göstərirdi. Həmin sənət məktəblərində 218 uşaq təhsil alırdı.

Qafqaz Tədris Dairəsinin 1908-1912-ci il hesabatında göstərilir ki, 1898-1908-ci illərdə azərbaycanlı uşaqların artımı ibtidai məktəblərdə 0,4%, şəhər məktəblərində 4,2%, sənət məktəblərində isə 1,7% olmuşdu [69, 73-74]. Bunlarla yanaşı, 1914-1915-ci tədris ilində Azərbaycanda 21 ali ibtidai məktəb də fəaliyyət göstərirdi. Ali ibtidai məktəbdə təhsil müddəti 4 il idi. Uşaqlar buraya 3-4 illik ibtidai məktəbi bitirdikdən sonra daxil olurdular.

XX əsrin əvvəllərində təlimin rus dilində aparıldığı və Azərbaycan dilinin məcburi olmayan ayrıca bir fənn kimi keçirildiyi rus-Azərbaycan məktəblərinin sayı ildən-ilə artmağa başladı. 1917-ci ildə Azərbaycanda belə məktəblərin sayı 16 idi ki, bunlardan da 12-si oğlan, 4-ü qız məktəbi idi. Bu məktəblərdə ümumilikdə 2682 şagird təhsil alırdı.

Dövlət məktəbləri ilə yanaşı, Bakıda və onun ətraf kəndlərində «Xəzər-Qara dəniz Cəmiyyəti», «Nobel qardaşları şirkəti», «Balaxanı neft şirkəti», «Qurultay şurası», «Bekendorf və kampaniyası» və digər şirkət və təşkilatlar da məktəblər açmışdılar.

Milli maarifçilər çar Rusiyasının Azərbaycanda apardığı təhsil siyasətini tənqid edirdilər. Yuxarıda da qeyd etdiyimiz kimi, bu siyasət nəticəsində azərbaycanlıların milli, mədəni hüquqları pozulur, özləri isə ayrıseçkiliyə məruz qalırdılar. Çar Rusiyasının Qafqaz üçün qəbul etdiyi təhsil lahiyəsi mürtəce xarakter daşıyırdı.

XX əsrin əvvəllərində yetişən milli sahibkarlar da millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin yüksəlməsi yolunda əllərindən gələni əsirgəmirdilər. Hacı Zeynalabdın Tağıyevlə yanaşı, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyev, İsa bəy Hacınski kimi onlarla sahibkar milli ziyalı nəslinin yetişməsində, təhsil sisteminin inkişafında müstəsna rol oynadı.

## 2.3. Azərbaycan maarifpərvərlərinin milli dərslik və uşaq ədəbiyyatı yaratmaq uğrunda mübarizəsi

XIX əsrin əvvəllərindən 1917-ci ilə kimi Azərbaycanda bir sıra dərslik və dərs vəsaitləri nəşr olunmuşdur. XIX əsrin axırlarında Azərbaycan dilinin dövlət məktəblərinin tədris planına qismən daxil olması, bu dilin öyrənilməsinin zəruriliyi, ana dilində bir sıra dərslik və dərs vəsaitlərinin yaranması ilə nəticələndi. Əsasən digər millətlərdən olan şagirdlərin bu dili öyrənməsi üçün nəzərdə tutulan həmin tədris vəsaitlərinin tərtibi ana dilində yeni üsulla dərslik tərtib etməyin birinci mərhələsini təşkil edir. XIX əsrin 80-ci illərində meydana gələn xalq məktəbləri ilə ana dilində dərsliklər tərtibinin ikinci mərhələsi başlandı. Həm də bu dövrdə meydana gələn dərsliklər bilavasitə azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Həmin dərslikləri iki qismə bölmək olar. Birinci qism dərsliklərlə rus məktəblərində təhsil alan şagirdlər Azərbaycan dilini öyrənirdilər. Məsələn, M.Kazım bəyin «Türk-tatar dilinin qramatikası», Mirzə Şəfi Vazeh, İvan Qriqoriyevin «Kitabi-türkü», M.Əbdülhəsən bəy Vəzirovun «Samouçitel tatarskoqo yazıka», Ü.Hacıbəyovun «Türkü-rusi», «Rusi-türki lüğəti». İkinci qism dərsliklərin özünü də 2 yerə bölmək lazımdır. Onların bəziləri ayrı-ayrı məktəb açan müəllimlərin özləri tərəfindən hazırlanmışdı. Həmin məktəblərdə istifadə edilsə də vətəndaşlıq hüququ qazana bilməyən dərsliklər idi. İkincisi isə dövrün ziyalıları tərəfindən yüksək qiymətləndirilən, dəfələrlə yenidən nəşr olunan dərsliklər idi. Belələrindən A.O.Çernyayevskinin «Vətən dili» və Vəlibəyovla birgə yazdığı «Vətən dili»nin II hissəsi, R.Əfəndiyevin «Uşaq bağçası», «Bəsürətül-ətfal», M.Mahmudbəyovun bir neçə müəlliflə şərikli yazdığı «Türk əlifbası və ilk qiraət», «İkinci il», «Üçüncü il», «İmlamız», A.Şaiqin «Uşaq gözlüyü» və s. kitabları idi. Bunlardan əlavə S.Ə.Şirvani, S.Ünsüzadə, M.M.Əfşar, M.T.Sidqi, Nəvvab və s. tərəfindən də müntəxəbat, dərs vəsaiti, lüğət tipli mətnlər məcmusu, qrammatika kitabı, əxlaq dərsliyi, çalışmalar toplusu, nəsihətnamələr və s. şəklində də kitablar tərtib olunmuşdu. Bununla da dərslik yaratmaq və uşaq ədəbiyyatının inkişafı sahəsində yeni bir ənənənin əsası qoyulmuşdu.

«Bəsürətül-ətfal» kitabı 226 səhifə idi, onun 156 səhifəsi qiraət üçün kiçik mətnlər, mənzum parçalar, qalanları isə üslubiyyat və orfoqrafiyaya dair materiallardan ibarət idi. Zaqafqaziyada şöhrət qazanmış bu kitab böyük tirajla çap olunmuşdu. Bu dərslikdə də uşaqları düzlüyə, doğruluğa, əməyə, təvəzökarlığa, xeyirxah və səmimi olmağa təhrik edən çoxlu tərbiyəvi mətnlər verilmişdi. Rəşid bəyin dərslikləri ana dilli dərslik yaradıcılığında irəliyə doğru atılmış bir addım oldu. Yeni səs üsulu ilə dərslik yaratmaq ideyası Zaqafqaziyada geniş yayıldı. Dərslik yaratmaq sahəsində yeni bir ənənən formalaşdı. Yeni müəlliflər nəsli yetişdi. Dərslik məsələsi Azərbaycan müəllimlərinin qurultaylarında geniş müzakirə olundu [51]. Qurultayda mövcud dərsliklərin təlimə yararlılığını müəyyənləşdirmək və yenilərini yaratmaq məqsədilə xüsusi komissiya yaradıldı. Az sonra qurultayın məramnaməsinin tələblərinə uyğun olaraq yeni dərs kitabları yazıldı və nəşr edildi. M.Mahmudbəyov 1907-ci ildə Bakıda «Türk əlifbası və ilk qiraət» kitabını nəşr etdirdi. Həmin dərslik 1923-cü ilə qədər 16 dəfə nəşr edilmişdi. Dərsliyin özündən əvvəlkilərdən fərqləndirici xüsusiyyətləri aşağıdakılar idi:

1) uşaqların yaş və anlaq səviyyəsinə yazılması;

2) sadə ana dilində yazılması;

3) hərflərin əlifba sırası ilə çətinlik dərəcəsinə görə düzülməsi;

4) hərflərin mənimsədilməsi məqsədilə münasib sözlərin seçilməsi;

5) yeni öyrədilən hərfin həm sözün əvvəlində, həm ortasında, həm də axırında işlədilməsi;

6) hər hərfə aid geniş formatlı şəkillərin olması;

7) hərflərin şagirdlərin mənimsəmə qabiliyyətinə münasib olaraq iri şiriftlə yazılması və s.

Bir il sonra M.Mahmudbəyov, S.Əbdürrəhmənbəyzadə, S.S.Axundov, F.Ağazadə, A.Şaiq və A.Əfəndiyevin «İkinci dil» dərsliyi meydana gəldi. Həmin dərsliklər həm pedaqoji, həm də didaktik-metodik cəhətdən yeni tələblərə cavab verirdi. Kitabların dilinin sadəliyi, aydınlığı bədiiliyi, dolğun məzmuna malik olması, metodik cəhətdən materialların seçimi, uşaqlara veriləcək biliklərin onların yaş və anlaq səviyyəsinə uyğun olması, sadə xalq dilində yazılması, uşaqlara bədii zövq

tərbiyə etməsi, cəlbedici olması onların əsas məziyyətləri idi. Bu dərsliklərin yazılması və nəşri «Nicat» xeyriyyə cəmiyyətinin bilavasitə təşəbbüsü və yardımı ilə həyata keçirilmişdi.

«İkinci il» dərsliyi yüksək elmi-metodik səviyyədə və uşaqların anlaya biləcəyi doğma ana dilində yazılmışdı. Dərslik proqramın tələblərinə müvafiq hazırlanmışdı. Burada materiallar sistemli və ardıcıl şəkildə düzülmüşdü. Materiallar şagirdlərdə düzlük, doğruçuluq, yoldaşlıq, dostluq, intizamlılıq, təşkilatçılıq, saf əqidə, möhkəm xarakter, valideynlərə məhəbbət, böyüklərə hörmət, nəzakətli və mədəni, fəal və təşəbbüskar olmaq kimi yüksək əxlaqi keyfiyyətlər formalaşdırmağa xidmət edirdi. Real həyat hadisələri, şagirdləri maraqlandıran məsələlər mətnlərin əsas məzmununu təşkil edirdi. «İkinci il» dərsliyində didaktik prinsiplərin bütün tələbləri gözlənmişdir. Təlimdə şüurluluq, müstəqillik, əyanilik, sistematiklik və ardıcıllıq, asandan çətinə, sadədən mürəkkəbə, məlumdan məchula qaydalarının gözlənilməsi dərsliyin yalnız quruluşunu deyil, şagirdlərdə fakt və hadisələr haqqında bütöv təsəvvür  yaratmaqla, onlarda təlim materiaollarının dərindən mənimsənilməsinə marağı artırırdı.

XX əsrin əvvəllərində Azərbaycanda milli dərsliklərin yaranmasına, milli mətbuat nümunələrinin nəşri mühüm təsir göstərir. Milli mətbuatın əsası hesab olunan «Əkinçi»dən (1875-1877) sonra bir neçə yeni mətbuat orqanı, o cümlədən «Şərqi-rus» qəzeti yarandı. «Mola Nəsrəddin» (1906-1931), «Füyuzat» (1906-1907) jurnalları ilə ictimai fikir yüksək səviyyəyə çatdı. Pedaqoji hərəkatın inkişafını təmin edən ilk pedaqoji mətbuat nümunələri yarandı. Ə.Cəfərzadənin redaktorluğu ilə «Dəbistan» (1906-1908), M.Mahmudbəyovun redaktorluğu ilə «Rəhbər» (1906), Q.R.Mirzəzadə və Ə.T.Əfəndizadənin redaktorluğu ilə «Məktəb» (1911-1917) jurnalları fəaliyyətə başladı. A.Şaiqin «Uşaq gözlüyü» (1910), «Gülşəni-ədəbiyyat» (1910), «Gülzar» (1912), Q.Rəşadın «Qafqaz coğrafiyası» (1910), Ü.Hacıbəyovun «Hesab məsələləri» (1907), Qəmərlənski, M.Nərimanbəyov və başqalarının «Ana dili» (1907) və b. əsərlər meydana gəldi.

Ü.Hacıbəyovun «Hesab məsələləri» kitabı üzərində xüsusi dayanmaq istəyirəm. Dərslik haqqında M.Ə.Rəsulzadə «Tərəqqi» qəzetində yazırdı: «Bütün rəsmi və qeyri- rəsmi olan məktəblərdə lisan dərsindən sonra ikinci yer tutan hesab dərsi

böyük bir ehtiyacda idi. Uşaqlara bir dərs maddəsi olmaq üçün əvvəlinci dərəcədə lazım olan hesab məsələlərini came bir kitab yox idi. Bu yoxluq bir anda, hər saatda özünü bildirir, hiss etdirir idi.

M.Ə.Rəsulzadə kitabın müsbət cəhətlərini təqdir edir, onu Komarovun kitabı ilə müqayisə edir, anlaşıqlı dildə yazıldığını, misal və məsələlərin cavablarının hamısının düzgün olduğunu bildirir və həmin kitabı Qafqaz ibtidai məktəbləri üçün tövsiyə edir.

XX əsrin əvvəllərində uşaq ədəbiyyatı sahəsində fəaliyyət göstərən yazıçı və şairlərin sayı artır, A.Şaiq, A.Səhhət, M.Ə.Sabir, S.S.Axundov, S.M.Qənizadə məhsuldar fəaliyyətləri ilə zəngin bədii ədəbiyyat nümunələri yaratmağa nail olurlar. Uşaq ədəbiyyatı isə müstəqil ədəbi yaradıcılıq sahəsi kimi özünü təsdiq edir, bu illərdə qazanılan uğurlar uşaq ədəbiyyatının sonrakı inkişafına güclü təsir göstərir.

## 2.4. Azərbaycan maarifpərvərləri qadın təhsili haqqında

XX əsrin əvvəllərində məfkurə və yaradıcılıq etibarilə bir-birindən fərqlənən maarifpərvər ziyalılar qadınların cəhalət girdabından qurtarmalarını maariflənməkdə görür, qadın təhsili, təlimi və tərbiyəsi ideyasını Avropa və rus maarifçiləri kimi ön plana çəkirdilər.

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərləri «Kaspi» (1881-1916), «Baku» (1902-1918), «Şərqi-rus» (1903-1906), «Həyat» (1905-1906), «İrşad» (1905-1908), «Təkamül» (1906-1907), «Tazə həyat» (1907-1908), «Tərəqqi» (1908-1909), «Səda» (1909-1911), «İqbal» (1912-1915), «Açıq söz» (1915-1918), «Rəhbər» (1906), «Mola Nəsrəddin» (1906-1931), «Dəbistan» (1906-1908), «Füyuzat» (1906-1908), «Yeni füyuzat» (1911), «Məktəb (1917), «İşıq» (1912), «Dirilik» (1912-1916) qəzet və jurnallarında Azərbaycan qadınlarının təhsil və tərbiyəsi ilə bağlı maraqlı yazılarla çıxış etmiş, öz sələfləri (M.F.Axundov, A.A.Bakıxanov, M.Ş,Vazeh, M.Kazımbəy və s.) kimi qadına böyük qiymət vermiş, onların cəmiyyət üçün, millətin təhsil–tərbiyəsi üçün çox böyük rol oynadıqlarını qeyd etmişlər.

S.M.Qənizadənin yaradıcılığında qadın təhsili problemi mühüm yer tutur. Məktəbi, müəllimi, maarifi həyatının bəzəyi, ömrünün qayəsi hesab edən S.M.Qənizadə «Məktubati Şeydabəy Şirvani» əsərində qadın mənəviyyatını onun xarici gözəlliyindən üstün tutur. Təhsilli, mədəni qadını təqdir edir, onun yüksək əxalqi keyfiyyətlərini tərənnüm edir. 1905-1907-ci illər inqilabı ərəfəsində Azərbaycan maarifpərvərləri qadın tərbiyəsi məsələlərini daha cəsrətlə irəli sürür, mövcud məktəblərdə müsəlman qızlarının oxumalarına çalışır, milli qız məktəblərinin yaradılması fikirlərini irəli sürürdülər. N.Nərimanovun «Məktəb, məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər» fikri maarifpərvər aiyalılarən nəzəri konsepsiyasının əsas müddəası kimi çıxış edirdi [45, 274].

N.Nərimanovun yaradıcılığında qadın azadlığı və təhsili ilə bağlı maraqlı fikirlər vardır. N.Nərimanov yazırdı ki, çarşab bizim arvadların zənciridir. Bu zəncir gec-tez qırılmalıdır. Çarşab məsələsini Qurana istinad edərək həll etməyə çalışanlara cavab olaraq Nərimanov yazırdı: «Onlar düşünmürlər ki, min üç yüz il bu barədə bəhs olunubdur. On min il də bəhs olunsa, yenə də hər iki tərəf müəyyən bir nəticəyə gəlməyəcəkdir».

N.Nərimanov qadınların çarşabdan xilas olmasını daha dəhşətli məsələlərdən asılı hesab edirdi ki, bu da istismar, zülm və hüquqsuzluq idi. Nərimanov göstərirdi ki, «daha dəhşətli məsələlər» düzəlməsə, yəni mövcud quruluş dəyişməsə, «çarşab məsələsi» təbii yolla getməyəcəkdir.

N.Nərimanovun qadın azadlığına aid fikirləri sonralar təkmilləşmiş və daha da inkişaf etmişdir. Əgər keçən əsrin 90-cı illərində Nərimanov bu məsələdə islahatçılıq mövqeyində dururdusa, sonralar o, inqilabçı kimi çıxış etmişdir. 1915—1916-cı illərdə «Bahadır və Sona» əsərinin səhnələşdirilmiş nüsxəsində bu cəhət özünü daha aydın göstərir. Müəllif, Bahadınn dili ilə Sonaya müraciət edərək deyir: "Sona, zənnimcə qadınlar hal-hazırdakı zəncirdən, yəni çarşabdan xilas olmasalar, millət ciddi surətdə tərəqqi yoluna yeriş edə bilməyəcəkdir...

N.Nərimanov qadınların təhsilini qadın azadlığmın tərkib hissəsi hesab edirdi. O, qadının-ananın oxumasını, elmli olmasını vacib bilir və göstərirdi ki, gələcək cəraiyyətin taleyi anaların öz uşaqlarına verdiyi tərbiyədən çox asılıdır. Bu isə

gələcək ananın elmli, təhsilli olması ilə əlaqədardır. Məhz buna görədir ki, N.Nərimanov qızların məktəbə cəlb olunmasına,onlar üçün xüsusi qız məktəblərinin açılmasına çalışırdı.

N.Nərimanov qadınların təhsil almasının, onların ictimai işlərdə fəal iştirakının qızğın tərəfdarı idi. Onun bilavasitə yaxından köməyi ilə təşkil edilmiş qız məktəblərində təhsil alan yüzlərlə azərbaycanlı qız sonralar xalqımızın mədəni inkişafında böyük rol oynamışdır.

Görkəmli pedaqoq M.H.Şeyxzadə iki qızına evdə təhsil verib qız məktəbi açmaq üçün onları müəllim kimi hazırlamışdı. M.Şaxtaxteynski, Ə.M.Topçubaşov, Ə.Ağayev kimi görkəmli ziyalılar da maarifi nadanlıqdan qurtarmağın yeganə yolu hesab edirdilər. Onların fikirləri XX əsrin əvvəllərində bir intibah yaratdı. İlk müsəlman qız məktəbləri meydana gəldi. Halbuki ona qədər Azərbaycan ərazisində dövlət məktəblərində ancaq qızlar təhsil alırdı. Onlar milliyətcə başqa millətə məxsus idilər. Buna baxmayaraq Azərbaycanda ayrı-ayrı şəxslərin və xeyriyə cəmiyyətlərin açdıqları tədris ocaqları maarifin yayılmasında böyük rol oynayırdı. Azərbaycanda «Müqəddəs Nina», «Müqəddəs Ripsime» və başqa xeyriyyə cəmiyyətlərinin qız məktəbləri var idi. Qısaca olsa da qeyd edək ki, XX əsrin əvvəllərində pərvəriş tapan qadın təhsili üçün XIX əsrin II yarısında Azərbaycanda zəngin təcrübə toplamışdı. Belə ki, «Müqəddəs Nina» qadın xeyriyə cəmiyyəti 1846-cı ilə və 1848-ci ildə Şamaxıda qız məktəbi açdı. 1850-ci ildə İrəvanda «Müqəddəs Ripsime» qadın xeyriyə cəmiyyətinin qız məktəbi fəaliyyət göstərirdi. Şamaxıda açılan «Müqəddəs Nina» məktəbində cəmi 24 nəfər azərbaycanlı qızı təhsil alırdı.

1901-ci ildə H.Z.Tağıyevin qız məktəbinin fəaliyyətə başlaması Şərqdə çox böyük elmi-mədəni hadisə idi. Bu münasibətlə Bağçasarayda İsmayıl Kaspinski həmin günü Rusiya müsəlmanlarının və maarif dünyasının yaddaşında böyük gün kimi səviyyələndirirdi, Bağçasaray şəhər rəisi Mustafa ibn Davud məktəbin müsəlman dünyasına işıq saçacağını bildirirdi [41, 126].

1905-ci ildə Bakı və Gəncə quberniyasında xeyli qız təhsil alırdı. Həmin il Gəncə quberniyasında 4 ibtidai qız məktəbi, 20 qarışıq məktəb açılmışdı. Quberniyada 156 məktəb fəaliyyət göstərirdi ki, orada da 10082 şagird təhsil alırdı.

Bunlarda yalnız 1641 nəfəri qız idi. Bakı quberniyasında 1900-1905-ci illər ərzində 6 qız məktəbi, 17 qarışıq məktəb yaradılmışdır. Quberniyanın 120 ibtidai məktəbində 9677 nəfərdən 3884 nəfəri qız idi. 1901-ci ildə Gəncədə Bağbanlar məhələsində birsinifli rus-tatar qız məktəbi açılmışdı. 1903-cü ildə Gəncədə ikinci belə bir məktəb açılmışdı.

XX əsrin əvvəllərində Bakıda bir neçə xüsusi qız məktəbi fəaliyyət göstərirdi. 1900-ci ildə Tutovanın açdığı I dərəcəli qız məktəbində 224 şagird təhsil alırdı. Həmin ildə açılan II dərəcəli digər qız məktəbində isə 43 şagird oxuyurdu. Bu məktəblər Azərbaycanda qadın məktəblərinin inkişafında şübhəsiz ki, təsir edici rol oynamışdı. Həmin dövrdə «Füzüzat» jurnalında yazırdı: «Elm və ürfandan, fəal və kamaldan məhrum olan qadın qanadsız quş kimi olub həvayi-nisvaniyətdə uça bilməz». Sonra jurnal sual edildi: «Həvayi-nisvaniyyət necə bir aləmdir». Jurnal həmin suala belə cavab verir: «Həvayi-nisvaniyyət öylə bir gülzariəzl və kərəm bir akləmdir ki, ailə, millət, vətən, məhəbbət, üxüvvət, cəmiyyət, mədəniyyət, insaniyyət, şəfqət, məhəbbət kimi müqəddəs şeylər həp o aləmdə doğar, orada nəşvü-nüma bulur» [19].

«Molla Nəsrəddin» jurnalı azərbaycanlı qızların nəinki Azərbaycanda açılan məktəblərdə, o, həm də xarici ölkələrdə ali təhsil almalarını ürəkdən arzulayırdı. Jurnal bəzən qəribə məzmunlu yuxular dərc edir, bunun vasitəsilə Şərq aləmini elmə, maarifə çağırır, pis əməllərin, adət və ənənələrin aradan qaldırılmasını irəli sürürdü. Bu nöqteyi nəzərdən jurnalın növbəti «Tısbağanın yuxusu» çox maraqlıdır. Felyetonun məzmunu belədir: tısbağa yatıb yuxuda görür ki, o, məsciddədir. Orada çoxlu adam vardır. Axundlar, mollalar məscidə gəlib namaz qıldıqdan sonra molla minbərə çıxıb moizə oxuyur və deyir: Camaat, biz müsəlman milləti geridə qalmışıq. Belə ki, bizdə hər cür işlər görülür, məsələn adam öldürmək, oğurluq etmək, özgələrini incitmək, əcnəbi millətini özümüzə güldürmək. Bunların hamısının səbəbi budur ki, biz müsəlmanlar qızlarımızın təhsil və tərbiyəsi ilə pis məşğul oluruq. Mənim sizi buraya çağirmaqdan tələbim budur ki, bu dərdlərə bir dərman arayaq. Mənim zənnimə görə bu dərdin bircə dərmanı məktəbdir və biz gərək əlləşək, vuruşaq, özümüzə məktəb açaq və bir də uşaqlarımızı hal-hazırda olan məktəbə verməyə qorxmayaq [43].

«Dirilik» jurnalında qadın təhsili və azadlığı məsələsi kəskinliklə qoyulmuşdu, «Qadın» adlı məqalədə fransa feministlərindən tutmuş Amerika və bütün dünyada qadınların tərqqisinə və təhsilinə aid məsələlərdən bəhs olunur. Rusiyada baş verən inqilabi hadisələrə münasibət bildirən müəllif qeyd edir ki, «Amalımız qovuşmaq üçün ciddi və əzimlə çalışmalıyıq. Bu gün qadınların bütün müqəddəratı bizim əlimizdə olduğundan təmbir etmək vəzifəmizdir» –deyirdi [10].

Ş.Əfəndizadə həmin dövrdə nüfuzlu praktik müəllim, maarifçi, publisist yazıçı kimi tanınırdı. Onun pedaqoji ideyalarının əsasında elmə, təhsilə, maarifə çağırış, böyüyən nəslin əxlaq tərbiyəsi, xüsusilə də qadın təhsili və azadlığı məsələləri dayanırdı. Ş.Əfəndizadə xalqın, xüsusilə də onun hüquqsuz hissəsi olan qadınların geri qalmasının səbəbini cəhalətdə görürdü. O, «Şərqi-rus» qəzetində dərc etdirdiyi «Bir çox ümidlərimiz» adlı məqaləsində yazırdı: «Hər bir rəzalətin başlıca səbəbi cəhalətdir. Cəhalətdən çıxmağın başlıca dərmanı isə elmdir, mərifətdir». O, nəzəri fikirlər söyləməklə kifayətlənmir, rəzalətdən çıxmağın yollarını da göstərir. Bunun üçün isə məktəb açmağı, ilk növbədə qızları təhsilə cəlb etməyi vacib bilir. O, qadını gənc nəslin əqli və fiziki cəhətdən sağlam böyüməsinin əsas vasitəsiçisi, tərbiyəçisi hesab edirdi. «Dirilik və varlıq qadın ilədir» məqaləsində yazırdı ki, inkişaf «qadınlıq və qadınlığın diriliyindədir». Bu baxımdan «Bir çox ümidlərimiz» adlı məqaləsi daha xarakterikdi. O, yazırdı: «Biz balaca-balaca qızlara təlim və tərbiyə veririk. Onlar gələcəkdə millətimizin anası olacaqlar». Həyat onun dediyi fikirləri təsdiq etdi. Ş. Əfəndizadənin, H.Məlikovanın, S.Axundzadənin qızların təhsili uğrunda mübarizəsi az sonra bəhrə verdi. A.Musabəyova, N.Nərimanova, S.Şeyxzadə, N.Sultanova, İ.Heydərova-Əliyeva, M.Bayraməlibəyova, X.Əlibəyova və başqaları qız məktəbləri açdılar, fanatizm və cəhalətin aradan qaldırılmasında cəsarətlə çarpışdılar.

# NƏTİCƏ

1. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanda kapitalist münasibətlərinin sosial-iqtisadi sahədə təşəkkülü və inkişafı ilə səciyyələnir.

2. Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş verən dəyişikliklər, regionun ayrı-ayrı əraziləri arasında iqtisadi birliyin yaranması, iqtisadi və mədəni mərkəzlərin yüksəlməsi kimi amillər, vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi həyatı olan Azərbaycan xalqının bir millət kimi formalaşmasına səbəb oldu.

3. Yeni münasibətlərin yaranması milli burjuaziyanın təşəkkülünə şərait yaratdığı kimi Azərbaycan xalqı arasındı milli birlik ideyasını möhkəmləndirdi. Azərbaycandakı maarifçi mühit maarifçilik cərəyanına çevrildi və burjuaziyanın təsiri ilə millətin tarixi taleyində mühüm rol oynayan yeni ziyalılar nəsli formalaşdı. Milli şüurun oyanması, milli azadlıq hərəkatının güclənməsi, milli istiqlal və istiqbal mübarizəsində ciddi irəliləyişlər nəzərə çarpırdı.

4. XX əsrin əvvəllərində Azərbaycanda demokratik pedaqoji fikri maarifçilikdən daha çox, onun ictimai-milli və inqilabi vətəndaşlıq ideyaları ilə bağlı motivləri cəlb edirdi.

5. XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmunun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi.

6. Rusiyada gedən ictimai-pedaqoji hərəkat Azərbaycana da güclü təsir göstərdi. Baş verən ictimai-siyasi hadisələr xalqın mübarizəsi, maarif müəssisələrinin, məktəblərin genişlənməsi, təhsilin ana dilində, pulsuz və ümumi olması tələblərini irəli sürməyə şərait yaratdı, pedaqoji hərəkatın canlanmasına təsir göstərdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azdlıq və müstəqilliyinə münasibət səviyyəsində irəli sürüldü.

7. M.F.Axundovun «Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır»–fikri XX əsrin əvvəllərində milli ziyalıların fəaliyyət proqramına çevrildi. Onlar artıq xalqa sadəcə əlifba öyrətməklə kifayətlənmək istəmir,xalqa milli-mənəvi dirilik, fəallıq, ictimai namus, həmrəylik, hüquq, əxlaq, milli qurtuluş, ictimai azadlıq və mübarizə savadı istəyirdilər.

8. XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji mühitin formalaşmasında kitabxana və qiraətxanalar mühüm rol oynayırdı. Azərbaycan xalqının milli şüurunun, siyasi dünya görüşünün formalaşmasına, təhsil səviyyəsinin yüksəlməsinə, kitabxana, qiraətxana, xalq evləri, kulublar, yeni yaradıllan məktəblər təkan verirdi.

9. XX əsrin əvvəllərində ümumi mədəni yüksəlişlə əlaqədar olaraq Azərbaycanda «Nicat», «Nəşri-maarif», «Səfa», «Səadət» və digər xeyriyyə cəmiyyətləri yarandı. Bu cəmiyyətlərin fəaliyyəti nəticəsində Azərbaycan həyatının bütün sahələri–marif, elm, incəsənət, teatr, kadr hazırlığı, mətbuat, ədəbiyyat öz inkişafının yeni mərhələsinə daxil oldu.

10. Təlimin ana dilində aparılması, yeni milli məktəblərin yaradılması, ana dilli dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi, yeni təlim metodlarının tətbiqi milli maarifçilərin ictimai-siyasi və pedaqoji fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi. Milli maarifpərvərlər yaxşı bilirdi ki, ənənəvi məktəb və mədrəsəni – bu ən kütləvi mənəvi-əxlaqi tərbiyə və ideoloji təsir silahını ruhaniliyin əlindən tamamilə almadan, dünyəvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən istiqlal və maarifçilik ide yalarına yiyələnmək olmaz. M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə. Ağaoğlu, M.Şahtaxtlı, C.Məmmədquluzadə və onların həmfikirləri hesab edirdilər ki, köhnə məktəb və mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzi–hərəkət və fəaliyyət orqanı ola bilməz. Ona görə də təlimi ana dilində aparmaq üçün «üsuli-cədid» məktəblərinin yaradılmasını və milliləşdirilməsini vacib hesab edirdilər.

XX əsrin əvvəllərində Azərbaycan maarifpərvərlərini daha ciddi narahat edən pedaqoji problemlər aşağıdakılardan ibarət idi: 1) məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlərin tədrisi; 2) yeni üsullu məktəblər; 3) milli məfkurəyə malik müəllim kadrları; 4) təlimin ana dilində aparılması; 5) təhsilin məzmunun milliləşdirilməsi; 6) pedaqoji prosesdə yeni təlim metodlarının tətbiqi; 7) milli dərslik və uşaq ədəbiyyatı nümunələrinin yaradılması; 8) tərbiyədə milliliyə üstünlük verilməsi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Ağayev Ə. F.Ağazadənin pedaqoji görüşləri və fəaliyyəti. Ped. elm. nam... dis. Bakı, APİ, 1970, 187 s.
2. Axundov M.F. Əsərləri. Bakı: Maarif, 1962, 260 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı: Maarif, 1960, 360 s.
4. Azərbaycan müəllimlərinin qurultayları. 1-12. Bakı: Çaşıoğlu, 2008, 783 s.
5. Azərbaycan tarixi. Bakı: Elm, 1993, 280 s.
6. Azərbaycan tarixi. I cild. Bakı: Azərnəşr, 1994, 668 s.
7. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1992, 276 s.
8. Əfəndiyev R. «Təlimi-ümum» // «Tazə həyat» qəzeti, 1907, №31.
9. Əfəndiyev R. «Təlimi-Ümum» // «Tazə həyat» qəzeti, 1907, №32.
10. Əhmədov H.M. Ana dili dərsliyi problemində ilk addım // «Azərbaycan dili və ədəbiyyatı tədrisi» məcmuəsi. 1980, №1, s.75-82.
11. Əhmədov H.M. Nəriman Nərimanovun pedaqoji fikirləri. Bakı: 2000, 138 s.
12. Əhmədov H.M. Tarixi qurultay // Azərbaycan məktəbi. 1966, №8,
13. Əhmədov H. M. XIX əsr Azərbnaycan məktəbi. Bakı: Maarif, 2000, 366 s.
14. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: Zaman, 1997, 256 s.
15. Hacıbəyov Ü. Müəllimlər ictimasına dair // «İrşad» qəzeti, 15-16 avqust 1906-cı il.
16. Hacıbəyov Ü. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1985, 654s.
17. Hacıbəyov Ü. Seçilmiş əsərləri. III cild. Bakı: Yazıçı, 1968, 308 s.
18. Hacı Zeynalabdin Tağıyev. (tərtib edənlər: Ə.Həşimoğlu və b.) Bakı, Azərbaycan, 1993.
19. Hüseynzadə Ə. Axund Əbu Turab həzrətləri və «Elmi-Əbdan» / «Həyat» qəzeti, 1906, № 106,
20. Hüseynzadə Ə. Yazımız, dilimiz, ikinci ilimiz / «Tərəqqi» qəzeti. 1909, №31-32,
21. İbrahimov M. Böyük satira ustası. Bakı: Maarif, 1966, 250 s.

22. Köçərli F. N.Nərimanov. Bakı: Maarif, 1965, 160 s.
23.Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1963, 341 s.
24.Köçərli F. Seçilmiş əsərləri. Bakı: Elm, 1983, 350 s.
25.Köçərli F. Zaqafqaziya seminariyası // Tərəqqi qəzeti. 14 aprel 1909-cu il.
26.Qənizadə S.M. Gəlinlər həmayili. Bakı: Yazıçı, 1986, 180 s.
27. Mahmudbəyov M. Məktəblər qabağa getməyir // «Tərəqqi» qəzeti. 1909, №24.
28.Məmmədquluzadə C. Əsərləri. 3 cilddə. II cild Bakı: Azərnəşr, 1966, 902 s.
29.Məmmədquluzadə C. Zəncir // «Molla Nəsrəddin» jurnalı, 1909, №8.
30.Mərdanov M. Azərbaycan təhsil tarix. I cild. Bakı: Təhsil, 2011, 296 s.
31.Minasazov H. Seçilmiş əsərləri. Bakı: Təhsil, 1992, 320 s.
32.«Molla Nəsrəddin» jurnalı. Bakı, 1906, №31.
33.Nemənzadə Ö.F. Yazımız dilimiz, ikinci ilimiz// «Tərəqqi» qəzeti. №41, 1909.
34.Nərimanov N. Əsərləri. Bakı: Azərnəşr, 1956, 302 s.
35.Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973, 451 s.
36.Nəsirov B. Mahmudbəy Mahmudbəyov və ibtidai təhsilin inkişafı. Bakı: ADPU, 2010, 104 s.
37.Nəzirli Ş. Qoridən gələn qatar. Bakı: Təhsil, 2000, 150 s.
38.Rəsulzadə M.Ə. Cümə məktəbi // «İrşad» qəzeti, 27 mart 1908.
39.Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1992, 152 s.
40.Rüstəmov F. Azərbaycan müəllimlərinin ilk qurultayı // Azərbaycan məktəbi» jurnalı, Bakı, 2006, №6, s.25-38.
41.Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Elm və təhsil, 2010, 748 s.
42.Satirov N. Tatar müəllimlər seminariyası harda olmalı? /«Kaspi» qəzeti, 1907, №23-24.
43.Seyidov F. Qori seminariyası və onun məzunları. Bakı: Maarif, 1988, 296 s.
44.Seyidov F. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı: Təhsil, 1997, 188 s.
45.Seyidov Y. Yazıçı və dil. Bakı: Elm, 1979, 288 s.

46.Səhhət A. Bizdə millət uyğusu olur // «Bəsirət» qəzeti, 1914-cü il, 10 may, №5.
47.Səhhət A. Ədadi məktəblərdə milli tərbiyə // «Açıq söz», 1916-cı il, 22 fevral,
48.Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006, 430 s.
49.Şaiq A. Xatirələrim. Bakı: Gənclik, 1975, 170 s.
50.Tağıyev Ə. Azərbaycanda məktəb tarixi. Bakı: Maarif, 1993, 250 s.
51.Zərdabi H. Açıq məktub // «Həyat» qəzeti, 1906, 14 fevral.
52.Джалилов А.Б. Просветительско-педагогическая деятельность и педагогические взгляды Сулейман Сани Ахундова. Автореф. дисс…канд.пед.наук. Баку, 1973, 25 с.
53.Ибрагимов М.Дж. Предпримниательская деятельность Г.З.Тагиева. Баку, Азярнешр, 1990, 220 с.